RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 181 (9636) 24 avqust 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# TARİXİ səfərdə məqam

# BİZ MÜTTƏFİQİK



### ◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

- Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimi olub.
- Prezident İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə məhdud tərkibdə görüşü olub. Hər iki dövlət başçısı Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclasında iştirak edib.
- Hər iki ölkə Prezidentinin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub. Sonra hər iki dövlət başçısı mətbuata bəyanatlarla çıxış edib.
- Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşüb.
- Dövlət başçılarının hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü keçirilib.
- Səfər çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva Daşkənddə "Mexrli" məktəbi ilə tanış olublar. Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva və qızı Saida Mirziyoyeva ilə birgə Özbəkistanın Xalq rəssamı Akmal Nurun əsərlərindən ibarət sərgi ilə tanış olublar.
- Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida Mirziyoyeva Daşkənddə keçirilən Azərbaycan və Özbəkistan incəsənət ustalarının birgə qala konsertində iştirak ediblər.
- Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilib.
- Avqustun 23-də dövlət başçısı İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri başa çatıb.

→ 2-8

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# BİZ MÜTTƏFİQİK

## Daşkənddə rəsmi qarşılanma mərasimi







**Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Özbəkistanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva qarşıladılar.

Sonra birgə foto çəkdirildi.

Azərbaycanın və Özbəkistanın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Özbəkistanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Şavkat Mirziyoyevə təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Dövlət başçıları birgə foto çəkdirdilər.





## Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin məhdud tərkibdə görüşü olub



Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə məhdud tərkibdə görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıması məmnunluqla vurğulandı, enerji, nəqliyyat, turizm sahələrində əməkdaşlıq müzakirə olundu, beynəlxalq və regional məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.

## Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib



Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə Özbəkistan Prezidenti çıxış etdi.

*Bax: səh. 3*

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# BİZ MÜTTƏFİQİK

## Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib

### Prezident Şavkat Mirziyoyevin çıxışı





- Hörmətli İlham Heydər oğlu.

Bugünkü iclasımızın iştirakçıları.

Hörmətli İlham Heydər oğlu, Sizi və Azərbaycan nümayəndə heyətinin üzvlərini, qardaşlarımızı Özbəkistanda salamlayıram. Sizi bir daha salamlamağa şadam. Özbəkistana xoş gəlmisiniz.

Vurğulayım ki, Sizin indiki dövlət səfəriniz həqiqətən də tarixidir. Birincisi, bu gün məhdud tərkibdə görüşdə danışdığımız kimi, müttəfiqlik münasibətlərinə dair müqavilə imzalayacağıq. Ən əsası, bir neçə il ərzində Sizinlə birgə Özbəkistan-Azərbaycan münasibətlərini ən yüksək dövlətlərarası qarşılıqlı fəaliyyət səviyyəsinə qaldıra bildik. Bu, bizim real uğurumuzdur. Zənnimcə, bu gün xalqlar, insanlar eşidəcəklər ki, biz müttəfiqlik münasibətlərinə dair müqavilə imzalayacağıq. Bu, xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcək. Başlıcası, biz ölkələrimizi yaxınlaşdırdıq, artıq dediyim kimi, xalqlarımız həqiqətən də bir-birinə qardaşcasına münasibət göstərirlər. Bizim hər görüşümüz xalqlarımızı yaxınlaşdırır və məmnuniyyətlə demək istəyirəm ki, bu gün Sizin, sözün həqiqi mənasında, Özbəkistana tarixi səfəriniz həyata keçirilir.

İkincisi, bu gün Ali Dövlətlərarası Şuranın birinci iclasını keçiririk. Dövlət başçılarının sədrliyi ilə bu şuranı çoxplanlı əməkdaşlığımızın inkişafının konkret məzmunla zənginləşdirilməsini daha səmərəli mexanizm hesab edirəm. Çünki bizim hər görüşümüzdə konkret tapşırıqlar veririk və indi də bu, istisna olmadı. Biz məhdud tərkibdə görüşdə geniş müzakirə apardıq. Bu gün bu barədə geniş tərkibdə də danışacağıq və növbəti görüşümüzə qədər birgə qərarlar qəbul edəcəyik. Qeyd edim ki, müasir dünyada böyük nəticələr o zaman əldə olunur ki, siyasi iradə və qarşılıqlı dəstək olsun. Bizdə iki prezidentin siyasi iradəsi də, hər iki tərəfdən dəstək də var. Fikrimcə, komandalarımız artıq bunu görür və dərindən hiss edirlər.

Hörmətli İlham Heydər oğlu, əvvəlcə Sizi Azərbaycanda islahatların uğurla keçirilməsi münasibətilə səmimi-qəlbdən təbrik etmək istəyirəm. Yaxın qonşular və qardaşlar olaraq, biz uğurlarınıza sevinirik. Ölkənizin necə dinamik inkişaf etdiyini görür və buna ürəkdən sevinirik. Siz iqtisadiyyatın şaxələndirilməsi strategiyasını həyata keçirə bildiniz, Azərbaycanda davamlı inkişaf yeni sahələrin və infrastrukturların hesabına təmin edilir. Bütün bunlar əhalinin rifah halının durmadan yüksəlməsinə gətirib çıxarır. Ölkənin beynəlxalq nüfuzu artır. Bu il Azərbaycan dünyanın ən böyük tədbirlərindən birinə - Qlobal İqlim Sammitinə evsahibliyi edəcək. Belə bir sammit bizim geniş regionumuzda ilk dəfədir ki, keçirilir. Bu, heç vaxt olmayıb. Bu, Sizin xarici siyasət kursunun səmərəliliyinin etiraf olunmasını bir daha təsdiq edir. Sizə böyük uğurlar arzulayıram. Biz bu barədə danışdıq, həmişə Sizinlə birlikdə olacağıq, həmçinin biz də bu sammitə ciddi hazırlıq görürük.

Hörmətli İlham Heydər oğlu, nümayəndə heyətlərinin qarşısında ölkənizin ərazi bütövlüyünün bərpa olunmasında və Azərbaycanın əzəli torpaqlarının qaytarılmasında Sizin tarixi rolunuzu bir daha qeyd etmək istəyirəm. Siz öz atanızın və xalqınızın ən böyük arzusunu yerinə yetirdiniz. Bu gün Qarabağ gözlərimizin qarşısında dirçəlir, çiçəklənən diyara çevrilir. Mən özüm həm Füzulidə, həm də Şuşada bunları öz gözlərimlə gördüm və sevindim.

İrimiqyaslı sosial-infrastruktur və sənaye layihələri həyata keçirilir. Biz məhdud tərkibdə görüşdə ərazilərimizin inkişafı üzrə əməkdaşlığın genişləndirilməsi imkanlarını ətraflı müzakirə etdik, ayrıca proqramın - yol xəritəsinin qəbul edilməsi, regionların üçüncü forumunun keçirilməsi, həmçinin turistik komplekslərin paytaxtda yaradılması üzrə razılığa gəldik. Biz artıq bu barədə danışmışıq.

Hörmətli nümayəndə heyətlərinin üzvləri, son bir neçə il ərzində Özbəkistan-Azərbaycan əməkdaşlığı xeyli genişlənib. Parlamentlər, hökumətlər, nazirliklər və idarələr arasında sıx təmaslar var. Mütəmadi olaraq, Hökumətlərarası Komissiyanın iclasları, Biznes Şurası, forumlar, sərgilər və mədəniyyət tədbirləri keçirilir. Biznes dairələri arasında tərəfdaşlıq genişlənir.

Hörmətli İlham Heydər oğlunun bizim görüşümüzə Azərbaycanın biznes liderlərini dəvət etməsinə ürəkdən şadam, onlar sanballı iş adamlarıdır. Zənnimcə, tezliklə nəticələri görə biləcəyik. Ciddi nəticə əldə ediləcək. Əminəm ki, bu dialoq çox məhsuldar olacaq.

Ümumilikdə ikitərəfli münasibətlərin hazırkı səviyyəsinə qiymət verərkən vurğulamaq istəyirəm ki, birgə səylərlə çox böyük işlər görülüb. Amma görüləsi daha çox iş var, çünki biz prezidentlər artıq bir-birimizi və iş adamlarını, şirkətləri, nazirlikləri və idarələri rəsmi hissədə olarkən dediyimiz kimi, əzbərdən bilirik. Bu da onu göstərir ki, tez-tez görüşdüyümüzə görə real nəticələr əldə olunur.

Növbəti ildə diplomatik münasibətlərin 30 illiyini qeyd edəcəyik. Biz bu yubileyə ciddi nəticələrlə gəlməliyik. Bununla bağlı əsas vəzifələr üzərində dayanacağam. Birincisi, intensiv siyasi təmaslar və bütün il ərzində gündəlikdəki məsələlər üzrə ahəngdar fəaliyyətin mübadiləsi üçün cədvəl hazırlamağı təklif edirəm. Bundan başqa, xarici işlər nazirliklərimiz qarşıdakı əlamətdar hadisə ilə əlaqədar tədbirlər proqramı hazırlayırlar. İkincisi, İlham Heydər oğlu, əgər Siz dəstəkləyirsinizsə, biz razılaşdıq ki, - mən artıq bunu məhdud tərkibdə görüşdə də dedim, - növbəti ili "Özbəkistan-Azərbaycan iqtisadi kooperasiyası ili" elan edək və məhdud tərkibdəki görüşdə üzərində dayandığımız 20 prioritet istiqaməti əhatə edən kompleks proqram qəbul edək. Qarşıda əmtəə dövriyyəsinin həcmini dəfələrlə artırmaq və sənaye kooperasiyasını yeni fazaya keçirmək, o cümlədən üçüncü ölkələrdə layihələri reallaşdırmaq vəzifələri durur. Biz bu barədə də çox ciddi danışdıq. Görüşümüz üçün 2 milyard dollardan artıq məbləğdə perspektivli layihələr portfeli hazırlanıb. Onların reallaşdırılmasını bu gün biznes nümayəndələri ilə ətraflı müzakirə edəcəyik.

Bundan başqa, Birgə İnvestisiya Fondu da səmərəli fəaliyyətə başladı. Siz də dediyiniz kimi, layihələr olarsa, biz hər iki tərəfdən fondu genişləndirəcəyik. Çünki bu, biznes və real layihələrin həyata keçirilməsi üçün çox yaxşı dəstəkdir. Hesab edirəm ki, layihələrin dəstəklənməsinin bu aləti saat kimi işləməlidir. Çünki onlar işləyirlər, amma bu gün biz iş adamlarını da eşidəcəyik, onları bu məsələdə də dəstəkləyəcəyik. Üçüncüsü, nəqliyyat-kommunikasiya, energetika və digər infrastruktur layihələri vasitəsilə ölkələrimizin qarşılıqlı əlaqələrini gücləndirmək vacibdir. Artıq çoxtərəfli formatda fəal iş aparırıq. Bu əməkdaşlığı tam şəkildə dəstəkləyirəm. Aviareyslərin sayının artırılmasını, yerüstü, hava daşımalarının maksimum dərəcədə yüngülləşdirilməsini, rəqəmsal həllərin tətbiqini də vacib hesab edirəm. Biz artıq bu barədə məhdud tərkibdəki görüşdə danışmışıq.

Dördüncüsü, mədəniyyət və incəsənət, təhsil, səhiyyə, gənclər və informasiya siyasəti, idman sahələrində fəal mübadiləni davam etdirmək lazımdır. Bu sahələrə cavabdeh olan nazirlərimiz müntəzəm görüşlər keçirməlidirlər.

Bu gün incəsənət ustalarının, o cümlədən əfsanəvi mədəniyyət xadimləri Fərrux Zakirov və Polad Bülbüloğlunun iştirakı ilə birgə konsert olacaq. Bu yaxınlarda hörmətli İlham Heydər oğlu ilə onlara ölkələrimizin Xalq artistləri adı vermişik.

Bundan başqa, Özbəkistan və Azərbaycan universitetlərinin rektorlarının müntəzəm görüşləri mexanizmini yaratmağı təklif edirik.

Hörmətli İlham Heydər oğlu, Bakıdakı görüşlərimizin birində, həm də məhdud tərkibdə görüşdə demişdim ki, biz ikitərəfli münasibətlərimizin inkişafının mühüm informasiya-analitik kontekstindən, əməkdaşlığımızın yeni imkanlarının dərin təhlili və üzə çıxarılması potensialı ilə bağlı birgə layihələrdən danışmışıq. Bugünkü iclasımızda iqtisadi təhlil mərkəzlərindən birinin rəhbəri iştirak edir. Əgər Siz razılıq verərsinizsə, o, öz komandası ilə bayramlardan sonra, növbəti həftədə yəqin ki, - bizim Müstəqillik Günündən sonra birbaşa Azərbaycana yollanacaq. Etiraz etmirsinizsə, bayramlardan sonra birhəftəlik deyil, ongünlük gələcək, iyirmi sahə istisna olmaqla, bizim gələcəkdə inkişaf etdirəcəyimiz sahələrin yaxşı iqtisadi təhlilini aparacaq, həm də biz bununla başqa resursları və ehtiyatları üzə çıxara bilərik. O, öz komandası ilə birlikdə yaxın vaxtlarda azərbaycanlı tərəfdaşlarla bu tədqiqata hazırlıq məqsədilə Bakıda olacaq. Ümidvaram ki, bu, gələcək üçün yaxşı kömək olacaq.

Beləliklə, hörmətli İlham Heydər oğlu, bunlar mənim demək istədiklərimin hamısıdır. Biz məhdud tərkibdə görüşdə çox ətraflı danışdıq. Məmnuniyyətlə sözü Sizə verirəm.

* * *

Sonra Azərbaycan Prezidenti çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Əziz qardaşım, hörmətli Şavkat Miromonoviç, sağ olun. İlk növbədə dəvətə görə bir daha minnətdarlığımı bildirmək istərdim. Qardaş Özbəkistana yenidən böyük məmnuniyyətlə səfər edirəm. Yeni görüşümüzə şadam.

Siz də qeyd etdiyiniz kimi, məhdud tərkibdə görüşdə münasibətlərimizin geniş gündəliyini artıq nəzərdən keçirdik, əməkdaşlığın yeni istiqamətlərini müəyyən etdik. Əlbəttə, bu gün geniş tərkibdə - Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində qarşılıqlı münasibətlərimizin mühüm məsələlərini müzakirə edəcəyik.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə bağlı sözlərinizə görə xüsusi təşəkkürümü bildirmək istəyirəm, həmçinin azad edilmiş ərazilərə bir neçə dəfə səfər etdiyiniz üçün Sizə xüsusi minnətdarlığımı ifadə edirəm. Əlbəttə, azad olunmuş ərazilərin bərpasında köməyə görə Füzuli şəhərinin sakinləri və Azərbaycanın bütün əhalisi adından xüsusi təşəkkürümü bildirirəm. Bu, xarici dövlətin infrastrukturun bərpası üzrə Azərbaycana ilk hədiyyəsi idi. Mirzə Uluqbəyin adını daşıyan məktəb düz bir il əvvəl açılıb. Elə bu gün, avqustun 23-də biz Sizinlə Füzulidə və Şuşada olduq. Orada artıq 500 şagird təhsil alır. Sakinlərin qayıdacağını nəzərə alsaq, onların sayı artacaq.

Ölkələrimiz arasında möhkəm münasibətlər artıq bütün sınaqlardan çıxıb və bu gün ən yüksək səviyyəyə çatıb. Siz də qeyd etdiyiniz kimi, bu, müttəfiqlik münasibətləridir və bundan yüksəyi yoxdur. Biz buna nisbətən qısa zaman ərzində nail olduq, məhz hər iki tərəfdən siyasi iradə nümayiş etdirdik, həmçinin ölkələrimizi və xalqlarımızı maksimum yaxınlaşdırdıq. Əminəm ki, həm Özbəkistanda, həm də Azərbaycanda ictimaiyyət bizim qazandığımız nailiyyətləri diqqətlə izləyir və bizimlə birlikdə sevinir.

Heydər Əlirza oğlu Əliyevin xatirəsinə göstərilən ehtirama görə təşəkkürümü bildirmək istərdim. İki il əvvəl Daşkəndə səfərim zamanı biz Sizinlə birlikdə onun adını daşıyan parkın və barelyefinin açılışını etdik. Dünən bu məkanı ziyarət edərkən qəlbimdə bir daha Sizə təşəkkür etdim.

Əlbəttə, Özbəkistanın inkişafı ilə bağlı heyranlıq sözlərimi ifadə etmək istəyirəm. Mən həm Xivəyə, həm Səmərqəndə səfər etdim. Uzun illər əvvəl Səmərqənddə olmuşam. Bu yaxınlarda etdiyim səfər bir daha ölkənin inkişafı sahəsində Sizin həyata keçirdiyiniz müdrik siyasətdən xəbər verir. Bu, şəhərin görkəminin necə dəyişməsində, paytaxtın və Özbəkistanın regionlarının simasının gözəlləşməsində özünü göstərir. Beynəlxalq icmanın mühüm üzvünə çevrilən Özbəkistan bu gün təkcə öz regionunda deyil, həm də dünya məkanında geniş nüfuz qazanıb. Əlbəttə, bütün bunların arxasında iqtisadi inkişaf durur. Siz ölkədə iqtisadi münasibətləri tamamilə yenidən qurmağı və bu sahəni, eyni zamanda bütün digər sahələri modernləşdirməyi bacardınız.

Qardaş Özbəkistanın idmançılarının tarixi qələbəsi ilə bağlı xüsusi təbriklərimi çatdırıram. Biz onların qələbəsinə özümüzünkü kimi sevinirdik. Səkkiz qızıl medal, müsəlman ölkələri arasında birinci yer və bütün ölkələr üzrə 13-cü yer - bu tarixi nailiyyət Sizin idmanın inkişafına göstərdiyiniz böyük diqqətin təzahürüdür.

Bugünkü iclas çərçivəsində biz, əlbəttə, nümayəndə heyətlərimizin üzvlərini də dinləyəcəyik. Siz də qeyd etdiyiniz kimi, iqlim konfransının keçirilməsinin əhəmiyyətini xüsusi vurğulamaq istərdim. Təbii ki, Sizi səbirsizliklə gözləyirik və həmçinin ikitərəfli formatda işləyirik. Çünki konfransın keçirilməsi mühüm hadisədir. Amma növbəti ildə də böyük iş aparılacaq, biz mahiyyət etibarilə bu prosesə sədrlik edəcəyik. Əlbəttə, bizim regionumuzda da, Mərkəzi Asiya regionunda da iqlimlə bağlı çoxlu məsələlər var və ikitərəfli formatda fəal əməkdaşlıq etməyə hazırıq. Prinsipcə, bu əməkdaşlıq artıq başlayıb.

Beləliklə, dəvətə, diqqətə görə bir daha təşəkkür edirəm və fürsətdən istifadə edərək, Sizi növbəti ildə yenidən Azərbaycana dövlət səfərinə dəvət edirəm. Amma biz hələ noyabrda COP konfransında görüşəcəyik, lakin növbəti ildə Sizi dövlət səfəri ilə gözləyirik. Sağ olun.



## Azərbaycan-Özbəkistan sənədləri imzalanıb

**Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"ni imzaladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının birinci iclasının Qərarı"nı qəbul etdilər.

"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsi arasında 2024-2026-cı illər üzrə turizm sahəsində Fəaliyyət Planı"nı Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və Özbəkistan Respublikasının Turizm Komitəsinin sədri Umid Şadiyev imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Özbəkistan Respublikasının Mədəniyyət Nazirliyi arasında 2024-2026-cı illər üçün mədəni-humanitar əməkdaşlıq üzrə Yol xəritəsi"ni Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Özbəkistan Respublikasının mədəniyyət naziri Ozodbek Nazarbekov imzaladılar.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Məktəbəqədər və Ümumi Təhsil Nazirliyi arasında məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının məktəbəqədər və ümumi təhsil naziri xanım Xilola Umarova imzaladılar.

*Ardı 4-cü səh.*

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# BİZ MÜTTƏFİQİK

## Azərbaycan-Özbəkistan sənədləri imzalanıb

*Əvvəli 3-cü səh.*

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Ali təhsil, Elm və İnnovasiyalar Nazirliyi arasında peşə təhsili, orta ixtisas, ali təhsil və elm sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının ali təhsil, elm və innovasiyalar naziri Konqratbay Şaripov imzaladılar.

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında 2024-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Özbəkistan Respublikasının ədliyyə naziri Akbar Taşkulov imzaladılar.

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyinin yanında Hüquqşünasların İxtisasının Artırılması Mərkəzi arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının ədliyyə naziri Akbar Taşkulov imzaladılar.

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi yanında H.Sulaymanova adına Respublika Məhkəmə Ekspertizası Mərkəzi arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının ədliyyə naziri Akbar Taşkulov imzaladılar.



"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Milli Qvardiyası arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyev və Özbəkistan Respublikasının Milli Qvardiyasının komandanı Rustam Curayev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Özbəkistan Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Özbəkistan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və hüquqlarının müdafiəsi haqqında Saziş"i Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Özbəkistan Respublikasının məşğulluq və yoxsulluğun azaldılması naziri Bexzod Musayev imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Özbəkistan Respublikasının İnvestisiyalar, Sənaye və Ticarət Nazirliyi arasında ticarət-iqtisadi və investisiya əməkdaşlığının daha da genişləndirilməsi üzrə 2024-2025-ci illər üçün Praktiki Fəaliyyət Planı"nı ("Yol xəritəsi") Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratov imzaladılar.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2025-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistan Respublikasının xarici işlər naziri Baxtiyor Saidov imzaladılar.

Səfər çərçivəsində həmçinin Bakı (Azərbaycan) ilə Daşkənd (Özbəkistan), Beyləqan (Azərbaycan) ilə Şəhrisəbz (Özbəkistan), Quba (Azərbaycan) ilə Cizak (Özbəkistan) şəhərləri arasında regionlararası əməkdaşlıq haqqında sənədlər və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Uzbekneftegaz" SC arasında Əsas Şərtlər Sazişi" imzalanıb.

## Azərbaycan və Özbəkistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Avqustun 23-də Daşkənddə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Özbəkistan Prezidenti bəyanatla çıxış etdi.**



### Prezident Şavkat Mirziyoyevin bəyanatı



- Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri. Sizin iştirakınıza şadam. Azərbaycan Respublikasının Prezidentini, əziz qardaşım, hörmətli İlham Heydər oğlu Əliyevi və Azərbaycan nümayəndə heyətinin bütün üzvlərini qonaqpərvər özbək torpağında səmimiyyətlə salamlayıram. Sizi görməyimizə çox şadıq. Özbəkistana xoş gəlmisiniz.

Böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri çoxəsrlik dostluq münasibətlərimizin inkişafında tarixi hadisədir. Bu gün hörmətli İlham Heydər oğlu ilə müttəfiqlik münasibətləri haqqında müqavilə imzaladıq. Bu sənəd dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni fəslin başlanması ilə əlamətdardır. Biz bununla çoxplanlı tərəfdaşlığın hərtərəfli inkişafı kursuna möhkəm sadiqliyimizi təsdiq etdik.

Hörmətli iştirakçılar, siz yəqin ki, bu gün bizim, əslində, nə etdiyimizi sonuna qədər təsəvvür etmirsiniz... Zənnimcə, bu il 33 illiyimizin tamam olduğu qısa bir müddətdə bu sənədlərin imzalanması heç bir ölkə ilə olmayıb, birincisi, Özbəkistanın çox az ölkə ilə müttəfiqlik münasibətləri var. Sizin qarşınızda bir daha demək istəyirəm, bu gün biz tarix yazdıq. Bu tarix iki yaxın xalqın - Azərbaycan və Özbəkistan xalqlarının rifahında öz əksini tapacaq. Bu münasibətlə Sizi bir daha təbrik edirəm.

Özbəkistanın kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciət edirəm: siz bu barədə daha çox, daha ucadan danışmalı və onu əhalimizə çatdırmalısınız. Fikrimcə, sizin azərbaycanlı həmkarlarınız da çatdıracaq, çünki xalqlar bunu gözləyirlər. Zənnimcə, bu, müttəfiqlik münasibətləri haqqında çoxdan gözlənilən ən vacib müqavilədir.

Biz həmçinin müttəfiqlik münasibətlərimizin dərinləşməsi üzrə yeni təkliflərin hazırlanması və həyata keçirilməsinin səmərəli mexanizmi olan Ali Dövlətlərarası Şuranın birinci iclasını keçirdik. Bilirsiniz, biz İlham Heydər oğlu ilə həmişə razılığa gəlirik, tapşırıq veririk, həm də nəzarət edirik. Azərbaycandakı birinci görüşümüzdə əməkdaşlığın on istiqaməti müəyyən edildi. Məmnunluqla və əminliklə demək istəyirəm ki, razılaşmaların heç biri kağız üzərində qalmayıb. Bizim real nəticələrimiz var. Bu gün 20 yeni istiqamət götürmək üzrə razılıq əldə etmişik, bu, əməkdaşlığımızın real istiqamətləridir və İlham Heydər oğlu məmnuniyyətlə qəbul etdi. Zənnimcə, indi dərindən məşğul olacağımız sahələr, istiqamətlər var.

Ümumilikdə danışıqlar ənənəvi olaraq, açıq və konstruktiv abhavada keçdi. Hesab edirəm ki, görüşümüzün uğurunun əsasını böyük hazırlıq işi təşkil edir. Biz, sadəcə, danışmırıq, hər istiqamət üzrə çox diqqətlə işləyirik, nazirliklərimizin və idarələrimizin nümayəndələri artıq öyrəşiblər ki, Azərbaycanla nəzərdə tutduqlarımızı mütləq yerinə yetirməliyik. İlin əvvəlindən hökumətlərarası komissiyanın iclasları, siyasət və təhlükəsizlik sahələrində məsləhətləşmələr, parlamentarilərin görüşləri, regionların forumu və bir sıra mədəni və işgüzar tədbirlər keçirilib.

Hörmətli jurnalistlər, biz Özbəkistanda qardaş Azərbaycanın böyük uğurlarına və nailiyyətlərinə ürəkdən sevinirik. Bu gün sizin ölkənizdə iqtisadiyyatın, sənayenin, əhalinin həyat səviyyəsinin dinamik artımı təmin edilir, böyük sənaye və infrastruktur layihələri həyata keçirilir. Hörmətli İlham Heydər oğlu, böyük tarixi Qələbə, ölkənin ərazi bütövlüyünün bərpa olunması və əzəli Azərbaycan torpaqlarının qaytarılması münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm. Qədim Qarabağ torpağı Sizin səylərinizlə inkişaf və tərəqqi diyarına çevrilir. Burada sosial infrastruktur və istehsalat obyektləri fəal şəkildə tikilir, yeni iş yerləri yaradılır, insanların dinc, əmin-aman və xoşbəxt həyata qayıtması üçün bütün tədbirlər görülür. Mən özüm Füzulidə, Şuşada olarkən insanların baxışlarını, tikilmiş infrastrukturu, tunelləri, körpüləri gördüm. Evlər, məktəblər, xəstəxanalar inşa edilir. Yəni demək istəyirəm ki, insanların rahatlığı və xoşbəxt həyatı üçün hər şey edilir. Qayıdan hər bir insanın, - onlar bu günü illərlə, on illərlə gözləyiblər, - biz İlham Heydər oğlu ilə onlarla görüşərkən, mən bu sakinlərin gözlərində evlərinə qayıtmağın sevincini gördüm. Bir daha əmin etmək istəyirəm ki, Özbəkistan gələcəkdə də bu nəcib işdə Sizi dəstəkləməyə hazırdır. Məhdud tərkibdə görüşdə razılığa gəldik ki, bu gün irimiqyaslı quruculuq işlərinin getdiyi Qarabağda əgər özbək inşaatçıları üçün də hər hansı sahə və ya rayon ayrılarsa, biz də çiçəklənən yeni Qarabağın inşaat işlərində iştirak edərik. İlham Heydər oğlu nəzərdə tutduğumuz işlərdə mənə çox ciddi dəstək verdi. Zənnimcə, biz də sözdə deyil, əməldə bunları reallığa çevirmək üçün dostlarımızın yanında olacağıq.

Daha bir vacib məqam - düz bir həftə sonra, sentyabrın 1-də Azərbaycanda böyük daxili siyasi hadisə - parlament seçkiləri olacaq. Noyabrda Bakı Qlobal İqlim Sammitinə evsahibliyi edəcək. Biz onların uğurla keçirilməsini arzu edirik və qardaşlarımıza hərtərəfli dəstək göstərəcəyik.

Hörmətli jurnalistlər, Azərbaycan bizim mühüm strateji tərəfdaşımız və bu gündən etibarən artıq həm də müttəfiqimizdir. Bizi ortaq tarixi köklər, çoxəsrlik dostluq birləşdirir, biz bir dinə və oxşar mədəniyyətə, ənənələrə malikik. Bütün bunlar hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün möhkəm zəmindir.

Bu gün çoxtərəfli münasibətlərimizin bütün spektrini ətraflı müzakirə etdik, əsas istiqamətlər üzrə məruzələri dinlədik. Bu, hər şeydən əvvəl ticarət, sənaye kooperasiyası, energetika, nəqliyyat, böyük imkanlarımızın olduğu kənd təsərrüfatı, təhlükəsizlik, mədəniyyət və digər sahələrdir. Siyasi dialoqu möhkəmləndirmək, çoxtərəfli platformalarda qarşılıqlı dəstək göstərmək, parlamentlər, hökumətlər, sahələr, nazirliklər səviyyəsində və ən başlıcası, həm də regionlararası fəal təmasları davam etdirməklə bağlı razılığa gəldik. Qarşılıqlı fəaliyyətin artırılmasına xüsusi diqqət yetiririk. Əmtəə dövriyyəsi həcmlərinin artırılmasının zəruriliyini vurğuladıq. Bugünkü əmtəə dövriyyəsini iki dəfə artırmaq üçün bütün əsaslar mövcuddur. Obrazlı desək, biz sıfırdan başlamışıq və indi bu səviyyəyə çatmışıq. Göstəriciləri dəfələrlə artırmaq üçün bütün əsaslar var. Razılığa gəldik ki, növbəti ili "Özbəkistan-Azərbaycan iqtisadi kooperasiyası ili" elan edək və bununla yanaşı, artıq dediyim kimi, 20 əsas istiqamət üzrə proqram qəbul olunsun. Danışıqlar əsnasında konkret kooperasiya layihələrinin üzərində dayandıq. Bu ərəfədə biznes-forum məhsuldar şəkildə keçirildi, onlarla müqavilə və saziş imzalandı. Bu gün bizim biznes nümayəndələri ilə ayrıca görüşümüz olacaq. Bu da ilk dəfədir. Birlikdə mühüm layihələrə start verəcəyik - bu, mehmanxanaların, tekstil klasterlərinin, tikiş fabriklərinin tikintisi, inşaat materiallarının istehsalı və digərləridir. Bildiyiniz kimi, belə layihələrin həyata keçirilməsi üçün 500 milyon dollar kapitalı olan birgə investisiya şirkəti fəaliyyət göstərir. Üçüncü ölkələrdə perspektivli layihələrdə iştirakı nəzərdən keçirmək üzrə razılığa gəldik.

Biz həmçinin nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi, o cümlədən Trans-Xəzər dəhlizinin inkişafı vasitəsilə birgə səyləri davam etdirəcəyik. Regionlararası əlaqələrin potensialından maksimum istifadə edəcəyik. May ayında Quba şəhərində regionların forumu uğurla keçirildi. Regionlararası kooperasiya üzrə yol xəritəsini qəbul etmək, növbəti forumun gələn il Kokand şəhərində keçirilməsi, paytaxtlarda turistik komplekslərin yaradılması qərara alındı. Mədəniyyət, gənclər, informasiya siyasəti, elm, təhsil və idman sahələrində fəal mübadiləni davam etdirəcəyik. Hər il ölkələrimizdə qarşılıqlı mədəniyyət və kino günlərinin, sərgilərin, yaradıcı kollektivlərin qastrollarının keçirilməsi xoş ənənəyə çevrilib. Belə tədbirlərin tez-tez bizim əhalinin böyük hissəsinin yaşadığı regionlarda keçirilməsi çox vacibdir. Bu gün həmçinin bizim əfsanəvi ulduzlarımız Fərrux Zakirov və Polad Bülbüloğlunun çıxış edəcəkləri birgə konsert olacaq. Onların geniş şəkildə tanınması və yüksək qiymətlərinin əlaməti olaraq biz hörmətli İlham Heydər oğlu ilə bu yaxınlarda onlara Xalq artistləri fəxri adının verilməsinə dair qərar qəbul etdik.

Ümumiyyətlə, demək istəyirəm ki, etimada əsaslanan danışıqların nəticəsindən çox məmnunam, çünki bu gün də, dünən də bir çox beynəlxalq, regional, ikitərəfli məsələləri çox ciddi müzakirə etdik. Demək istəyirəm ki, bizim mövqelərimiz üst-üstə düşür. Bütün məsələlər üzrə razılığa gəldik. Bizim mövqelərimiz eynilə ondan ibarətdir ki, bütün platformalarda əməkdaşlıq edəcəyik, qarşılıqlı münasibətlərimizi birlikdə inkişaf etdirəcəyik. Yekunda biz mühüm, konkret razılaşmalar əldə etdik, qarşılıqlı fəaliyyətin əsas sahələrində sanballı sazişlər paketi imzaladıq. Bizim bütün təkliflərimizi dəstəklədiyinə görə hörmətli İlham Heydər oğluna səmimi-qəlbdən təşəkkür etmək istəyirəm. Əminəm ki, Sizin tarixi səfərinizin məhsuldar nəticələri Özbəkistan-Azərbaycan əlaqələrinin gələcək inkişafına güclü təkan verəcək, dostluq və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə xidmət edəcək.

İndi məmnuniyyətlə sözü İlham Heydər oğluna vermək istəyirəm.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

*Bax: səh. 5*

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# BİZ MÜTTƏFİQİK

## Azərbaycan və Özbəkistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

### Prezident İlham Əliyevin bəyanatı





- Hörmətli Şavkat Miromonoviç, əziz qardaş, sağ olun. İlk növbədə dəvətə görə təşəkkür etmək istəyirəm. Qardaş Özbəkistana yenidən səfər etmək və qardaş ölkənin sürətli inkişafını bir daha görmək böyük sevincdir.

Müxtəlif dövrlərdə, xüsusən son illərdə Özbəkistana dəfələrlə səfər etmişəm. Şavkat Miromonoviçin rəhbərliyi ilə özbək xalqının həyata keçirdiyi möhtəşəm dəyişiklikləri əyani şəkildə görürəm və buna şadam. Şəhərlər gözəlləşir, sənaye fəal inkişaf edir. Keçən səfərimdə biz Daşkənddə birlikdə böyük sənaye kompleksində olduq. Bütün bunlar müdrik siyasətin, xarici investisiyaların cəlb edilməsinin, əlverişli biznes mühitinin yaradılmasının nəticəsidir. Bugünkü Özbəkistan sosial-iqtisadi inkişaf üzrə aparılan gündəlik iş, çoxlu sayda sosial layihələrlə səciyyələnir. Həmçinin bütün bunlara ölkənin beynəlxalq arenada nüfuzunun artmasını da əlavə etmək olar. Bu gün Özbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında sanballı siyasi nüfuza malik ölkəyə çevrilib. Biz buna səmimi-qəlbdən sevinirik. Şavkat Miromonoviçin müdrik siyasətinin son təzahürü özbək idmançılarının Yay Olimpiadasında tarixi uğuru oldu, onlar çoxlu medal qazandılar, onlardan 8-i qızıldır, həm də müsəlman ölkələri arasında birinci və dünyada 13-cü yeri tutdular. Bu, tarixi nailiyyətdir. Sizi bu münasibətlə Azərbaycan xalqı adından bir daha təbrik etmək istərdim.

Artıq qeyd etdiyim kimi, mən qardaş ölkədə tez-tez oluram. Səfərə hazırlaşarkən, onların cədvəlinə və Şavkat Miromonoviçin səfərlərinin cədvəlinə nəzər saldım və gördüm ki, bu, mənim son iki ildə beşinci səfərimdir. Şavkat Miromonoviç isə son il yarımda dörd dəfə Azərbaycanda olub. Əgər buna noyabrda COP konfransında görüşməyimizi də əlavə etsək, onda hesabı bərabərləşdiririk. Bu, ən yaxşı göstəricidir. Hələ mən başqa ölkələrdə beynəlxalq tədbirlər çərçivəsində görüşlərimizi demirəm. Bütün bunlar bu gün haqqında danışdığımız və Ali Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində məruzələrdə dinlədiyimiz uğurların rəhnidir. Konkret layihələrin iyirmiyə çatdırılması onun nəticəsidir ki, bizim keçmişdə razılığa gəldiklərimizin hamısı yerinə yetirilib. Belə deyək ki, nümayəndə heyətlərinin üzvlərinə razılaşdırdığımız məsələlərlə bağlı irad tutduğumuz bir bənd də yoxdur. Bu, əlbəttə, onlarda arxayınlıq yaratmamalıdır, amma hər zaman obyektiv və ədalətli olmaq lazımdır. Ona görə də biz, əslində, Azərbaycan və Özbəkistan nümayəndə heyətlərinin kollektivi arasında da eynilə bu cür münasibət görürük.

Şavkat Miromonoviçin qeyd etdiyi kimi, bu gün biz rəsmən müttəfiq olduq. Bu, razıyam ki, əslində, tarixi məqamdır. Müttəfiqlik münasibətləri haqqında müqavilə iki ölkənin imzalaya biləcəyi ən yüksək beynəlxalq sənəddir. Biz bu gün Daşkənddə həqiqətən də münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Zənnimcə, əminəm ki, üzərimizdə dolaşan və bununla bağlı bizə xeyir-dua verən əcdadlarımızın ruhları şad olacaq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldular. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə bizim münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək. Çünki biz fəal işləyirik və Şavkat Miromonoviçin dediyi kimi, ən müxtəlif - regional və beynəlxalq siyasət məsələləri müzakirə olundu. Bu gün Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionları vahid geosiyasi regiona çevrilir və regionlarımızda müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılıdır.

Ona görə də bu hadisə ölkələrimizin ictimaiyyəti tərəfindən çox düzgün qiymətləndirilməlidir fikrinə mən də qoşuluram. Əminəm ki, onlar bizim danışdığımız məsələləri biləndə, bu səviyyəyə çıxdığımızı görəndə bu cür sevinc hissləri keçirirlər. Şavkat Miromonoviç deyəndə ki, bütün bunlar rekord qısa müddətdə edilib, o, tamamilə haqlıdır. Yəni biz xalqlarımızın yaxınlaşması üzrə işlərimizi o qədər intensiv həyata keçirdik ki, bu səviyyəyə çatmaq üçün cəmi bir neçə il lazım oldu.

Şavkat Miromonoviç də artıq bu barədə danışdı, bizim bu gün müzakirə etdiyimiz məsələlər arasında yalnız bir layihəni ayrıca qeyd etmək istərdim, çünki o, əlamətdardır - bu, işğaldan azad olunmuş Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılmasıdır. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun daha bir rəmzidir. Biz həmişə - istər işğal, istərsə də İkinci Qarabağ müharibəsi illərində və sonra da özbək xalqının qardaş dəstəyini hiss etmişik. Mən bu gün bu barədə danışmışam, Özbəkistan ilk ölkədir ki, Prezidentin təşəbbüsü ilə bizə mənəvi dəstək olmaqla yanaşı, həm də azad olunmuş ərazilərin bərpasında kömək edib. Bir il əvvəl, avqustun 23-də biz Füzulidə Mirzə Uluqbəy adına 960 şagird üçün nəzərdə tutulan və münasibətlərimizin rəmzi olan, özbək qardaşlarımızın gözəl münasibətlərinin simvoluna çevrilən, həmçinin Şavkat Miromonoviçin Özbəkistanda həyata keçirdiyi standartlara uyğun məktəbin açılışında olduq. O, artıq Özbəkistanda çoxlu sayda belə məktəblər tikib və eynisini bizdə də inşa etdi. Artıq mənə məlumat veriblər ki, orada 500 şagird təhsil alır, amma tezliklə bu məktəbdə nəzərdə tutulduğu qədər şagird olacaq. Çünki keçmiş məcburi köçkünlərin qayıdışı prosesi uğurla davam edir.

Qarabağ haqqında söylədiyiniz sözlərə görə sağ olun. Hamınız bilirsiniz ki, bu, təxminən 30 il ərzində bizim üçün bir nömrəli məsələ idi. Ərazi bütövlüyünün bərpası və sonra ötən ilin sentyabrında suverenliyin tam təmin edilməsi tarixi ədalətin və beynəlxalq hüququn bərqərar olmasıdır. Belə münasibətə görə səmimi-qəlbdən minnətdaram.

Bu gün biz həmçinin iş adamlarından ibarət qrupla görüşəcəyik. Hərçənd biznes-forum artıq işini yekunlaşdırsa da, hələ hazırda yerinə yetirilmə mərhələsində olan konkret layihələr var. Bu səbəbdən biz onları dinləmək və yeni təlimatlar vermək istəyirik. Həmçinin bugünkü diskussiyalar çərçivəsində çoxlu yeni mövzuları, ilk növbədə əmtəə dövriyyəsinin artırılması, iqtisadi-ticari əlaqələrimizin konkret məzmunla zənginləşdirilməsi, həmçinin üçüncü ölkələrdə birgə işimizi müzakirə etdik. Yəqin ki, bunun üçün bizə Birgə İnvestisiya Fondunun kapitalını artırmaq lazım gələcək, artıq eşitdiyimiz kimi, layihələrə 500 milyon ayrılıb. Odur ki, bu kapitalı həm ikitərəfli gündəlik, həm də üçüncü ölkələrə investisiyalar ilə çıxış üçün artıracağıq.

Qardaş ölkələr, müttəfiqlər kimi inamla, layiqincə, çiyin-çiyinə addımlayırıq və irəliləməyə davam edəcəyik. Qonaqpərvərliyə və dəvətə görə bir daha təşəkkür edirəm. Sağ olun.

## Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü keçirilib

Avqustun 23-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə əvvəlcə Özbəkistan Prezidenti çıxış etdi.

### Prezident Şavkat Mirziyoyevin çıxışı





- Hörmətli İlham Heydər oğlu.

Hörmətli görüş iştirakçıları.

Mən bir daha sizinlə görüşməkdən və Özbəkistana bugünkü tarixi səfərinizdən çox şadam. Bir daha Özbəkistana xoş gəlmisiniz.

Ölkələrimizin - Azərbaycanın və Özbəkistanın aparıcı şirkətlərinin, strateji sənayelərin nümayəndələrinin, biznes elitasının rəhbərlərinin ilk dəfə baş tutan görüşündən məmnunam.

Hörmətli İlham Heydər oğlu, səfər proqramı çərçivəsində özünüzlə işgüzar dairələrdən ibarət geniş nümayəndə heyətini gətirdiyinizə görə Sizə səmimi təşəkkürümü bildirirəm. Çünki bilirəm ki, onlar tez-tez görüşürlər, lakin prezidentlərin himayəsi ilə biz ilk belə görüşü keçiririk. Əminəm ki, çox yaxşı nəticəsi olacaq. Çünki bir daha demək istəyirəm ki, mən onların çoxunu tanıyıram, onlar haqqında çox eşitmişəm, lakin onlar Özbəkistana belə missiya ilə ilk dəfədir səfər edirlər.

Onları özünüzlə gətirdiyiniz üçün bir daha minnətdarlığımı bildirmək istəyirəm. Çünki bizim sahibkarlar bir-birini çoxdan tanıyırlar, amma prezidentlərin himayəsi ilə belə bir görüşümüz olmayıb. İstəyirəm ki, dəstək verdiyiniz təqdirdə, - biz səfərlərə gedəndə, Siz məni dəvət etdiniz və mən də məmnuniyyətlə qəbul etdim, gələn il mütləq səfər edəcəyəm, - biznes nümayəndələri ilə belə görüşlər ənənəvi xarakter alsın. Onların artıq təcrübəsi, əməkdaşlıq etmək istəyi var və biz bütün şəraiti yaradacağıq ki, onların Özbəkistanda işləməsi qarşılıqlı faydalı və rahat olsun. Onlar buna əmin olmalıdırlar. Ona görə də bu gün mən onları məmnuniyyətlə dinləmək istərdim. Çünki gördüyünüz kimi, hörmətli İlham Heydər oğlu və mən dünya və regional bazarlarda qeyri-sabitlik şəraitində Özbəkistan və Azərbaycan arasında iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetiririk, habelə bu prosesdə biznes təşəbbüslərinə və layihələrinə dəstəyin hansı rola malik olduğunu yaxşı bilirik.

Bu masa arxasında həm Azərbaycanda, həm də Özbəkistanda ayaqüstə möhkəm duran aparıcı şirkətlərin rəhbərləri və nümayəndələri əyləşiblər. Bunu bir daha sizinlə paylaşmaq istəyirəm ki, son üç-dörd il ərzində mən bu biznes elitasını yetişdirirəm və qoruyuram. Çünki bizim müəyyən tarixçəmiz olub. Bəzi insanlar yaxşı bilirlər ki, əvvəllər nə olub, indi vəziyyət necədir. Yəni mənim üçün onların hər biri həqiqətən yetirmədir. Mən onların hər birini tanıyıram, biznes elitasının burada əyləşən nümayəndələrinin hər biri ilə görüşürəm, onlara hər cür şərait yaradıram. Bu gün isə onların Azərbaycan şirkətləri ilə əməkdaşlıq etməyini istəyirəm. Görürsünüz ki, nə qədər nailiyyətlər əldə etmişik. Dünən keçirilən biznes-forumda artıq 2 milyard dollar dəyərində layihələr portfeli formalaşdırılıb. Bunu uzun bir səyahətin başlanğıcı hesab edirəm, iri şirkətlərimiz isə bundan daha artığına qadirdir. Bugünkü görüşümüzün tarixi olmasını çox istəyirəm. Biz indicə mətbuatla görüşdük və dedim ki, hörmətli İlham Heydər oğlu ilə müttəfiqlik müqaviləsi imzalamışıq. Bilirsiniz ki, biz bu qədər qısa müddətdə heç bir ölkə ilə belə bir müqavilə imzalamamışıq. Niyə məhz mən və hörmətli İlham Heydər oğlu qısa müddətdə buna nail olduq? Çünki ölkələri, xalqları bir araya gətirmək üçün siyasi iradə var. Bizim birbaşa uçuşlarımız yox idi. Bu gün hər iki istiqamətdə həftədə 4 uçuş həyata keçirilir.

Ardı 6-cı səh.

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# BİZ MÜTTƏFİQİK

## Daşkənddə Azərbaycan və Özbəkistan prezidentlərinin hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü keçirilib

*Əvvəli 5-ci səh.*

Amma biz başqa şəhərlərə, yəni Səmərqəndə, Fərqanəyə, Urgençə yeni uçuşlar açmaq istəyirik və bunun üzərində ciddi işləyəcəyik.

Siz iqtisadiyyatın hərəkətverici qüvvəsisiniz, cəsarətlə yeniliklər edir, biznes yaradır və yeni iş yerləri açırsınız. Siz yaxın keçmişi yaxşı xatırlayırsınız. Qeyd etdiyim kimi, siz iqtisadi islahatların əsas hərəkətverici qüvvəsisiniz. Sizin Azərbaycanda, mənim isə Özbəkistanda indiki biznes nümayəndələrim çox böyük işlər görürlər. İlham Heydər oğlu, hər il avqustun 20-sində Sahibkarlar Günü qeyd olunur və Özbəkistan Prezidenti qaldırılan bütün məsələlərlə bağlı biznes ictimaiyyəti ilə görüşür. Bu tədbirlər bir ay ərzində davam edir və Prezident, Baş nazir, nazirlər və bütün əyalət rəhbərləri, bələdiyyə sədrləri də biznes-elita ilə görüşürlər. Beləliklə, onlar artıq daha həvəslidirlər. Hər görüşdə onlarla danışıqlar aparırıq. Çətin dövrdə bizneslərini davam etdirmələri, kapitallarını artırmaları, onların burada özlərini rahat hiss etmələri üçün hər cür şərait yaradırıq. Ona görə də onlar son qərarlardan həvəslənirlər. Düşünürəm ki, bayramaqədərki sonuncu iclasda onlara söz verdiyim bu sərəncamları imzalayacağıq. Biz bu görüşü Qaraqalpaqıstanda keçirdik, çünki Qaraqalpaqıstanda bizneslə məşğul olmaq üçün çox qeyri-adi şərait yaratmışıq. Hər kəs bütün vergilərdən azaddır. Torpaq bütün imtiyazlarla verilir və s. Orada şərait çox münbitdir. Odur ki, nümayəndələrimiz hazırdır ki, siz biznes nümayəndələri imkanınız varsa, daha iki-üç gün də bizdə qalıb, həmkarlarınızla görüşəsiniz. Onlar öz niyyətlərini, baxışlarını paylaşmağa hazırdırlar ki, şirkətlərimiz Azərbaycanda, sizinkilər isə Özbəkistanda təmsil olunsunlar. Biz İlham Heydər oğlu ilə razılaşdıq, mən təklif etdim ki, həm Bakıda, həm də Daşkənddə bizimki kimi bir məkan tikməyə başlayaq. Yəqin bilirsiniz ki, biz Səmərqənddə "əbədi şəhər"ə bənzər "əbədi şəhər" tikmişik. Hətta soruşdum ki, neçə hektar tələb olunur: bizə minimum 5 hektar lazımdır, 10 hektar varsa, ondan da yaxşı olar. Yaxud hər cür şərait yaradın. Bakıda özbək torpağı, Daşkənddə isə Azərbaycan torpağı olacaq. Ona görə düşünürəm ki, bu gün iş adamlarımız da öz təkliflərini verəcəklər. Artıq bunu etmək istəyən iş adamları var. Yəni sizə lazım olan bütün şəraiti yaradacağıq.

Buna görə də Sizi Özbəkistanda görməyə bir daha şadam. Bir daha demək istəyirəm ki, mənim bütün komandam - Prezidentdən, Baş nazirdən tutmuş hər kəs istənilən vaxt sizinlə görüşəcək, Özbəkistanda qarşılıqlı faydalı şərait yaradacaq ki, özünüzü rahat hiss edəsiniz. Sizdən yalnız layihələr təklifi gəlməlidir. Bunu İlham Heydər oğlu da, mən də dəstəkləyəcəyik. Biz burada görüşürük və bu gün Özbəkistanda biznes mühitinin sizin üçün yaxşılaşdırılması ilə bağlı hər hansı təklifiniz olarsa, sizi dinləməkdən məmnun olaram.

Bir daha sizi görməyə şadam. Mən məmnuniyyətlə sözü İlham Heydər oğluna vermək istərdim.

* * *

Sonra Azərbaycan Prezidenti çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı





- Hörmətli Şavkat Miromonoviç.

Hörmətli görüş iştirakçıları.

Əvvəlcə bu görüşün keçirilməsi təşəbbüsünə görə Özbəkistan Prezidentinə təşəkkür etmək istərdim. Qeyd edim ki, mənim praktikamda belə görüşlər heç vaxt olmayıb. Rəsmi səfərlər çərçivəsində biznes forumlarında iştirak etdiyim, yaxud xarici dövlət başçılarının səfərləri zamanı Bakıda biznes forumlarının keçirildiyi hallar olub, amma bir qayda olaraq onlar dövlət başçılarının hansısa qısa nitqlərlə müraciət etmələri ilə məhdudlaşıb, sonra çıxıb gediblər, biznes-forum isə öz axarı ilə davam edib. Prinsipcə, bu günlərdə Daşkənddə keçirilən biznes-forum layihələrlə çox zəngin olub. Amma nisbətən məhdud tərkibdə iki ölkənin işgüzar dairələrinin əsas nümayəndələrinin belə bir görüşü mənim praktikamda ilk dəfədir keçirilir. Ona görə də bundan başlamaq və Şavkat Miromonoviçə təşəkkürümü bildirmək istəyirəm.

Həmçinin bu gün imzalanan sənədlərin, ilk növbədə müttəfiqlik münasibətlərinə dair müqavilənin əhəmiyyətini bir daha qeyd etmək istərdim. Bu, Azərbaycanda həmin qəbildən olan üçüncü sənəddir. İndiyə qədər - bizə yaxın olan iki ölkə ilə 2021-ci və 2022-ci illərdə müttəfiqlik münasibətlərinə və ya müttəfiqlik qarşılıqlı fəaliyyətinə dair bəyannamələr imzalamışıq. İndiki halda söhbət müqavilədən gedir, yəni dünyada bu sənəddən daha yüksəyi yoxdur. Həm də bu, çox qısa müddət ərzində bizim birgə fəaliyyətimizin nəticəsidir. Biz Şavkat Miromonoviç ilə məsələləri dəfələrlə müzakirə etmişik və əldə etdiklərimizə sevinmişik, amma həmişə daha çox iş görə biləcəyimizlə bağlı həyəcan keçirmişik. Mən ikimizi deyil, bir çox illər əvvəl - 15 və ya 20 il öncə Özbəkistan və Azərbaycanı nəzərdə tuturam. İlk dəfə Prezident kimi Özbəkistana düz 20 il əvvəl - 2004-cü ildə gəlmişəm və həmin vaxt Özbəkistan hökumətinə az bir müddət əvvəl rəhbərlik edən Şavkat Miromonoviçlə tanış olmuşam. Onunla birlikdə Səmərqəndə getdik və beləliklə, həmin vaxt bizim dostluğumuz başladı. Amma özbək dostlarımız ozamankı vəziyyəti yaxşı bilirlər, həm siyasi dialoqu, həm də iqtisadi münasibətləri inkişaf etdirmək üçün imkanlar yox idi, onlar, demək olar ki, mövcud deyildi, sadəcə, onlar olmayıb. Bu gün bizim burada təqdim etdiyimiz 20 istiqamət üzrə yeni təşəbbüsləri, təbii ki, diqqətlə öyrənəcəyik. Bununla yanaşı deməliyəm ki, prezidentlər səviyyəsində təkcə biznes sahəsində deyil, iqtisadi-ticari sahədə qəbul edilən hər hansı bir qərarın yerinə yetirilmədiyi hal olmayıb.

Daha bir mühüm mövzuya toxunmaq istəyirəm. Bilirəm ki, biznes strukturları siyasi konyunktura çox həssas reaksiya verir, onlar belə də etməlidir. İndi Özbəkistanla Azərbaycan arasında mövcud olan ən yaxşı siyasi konyunktura, sadəcə, heç bir yerdə mövcud deyil. Ona görə də bu, iş adamlarımızı birlikdə işləməyə və o cümlədən birgə investisiya qoymağa sövq edən ən vacib amillərdən biridir. Özbəkistan böyük potensiala malik ölkədir və indi bir növ çiyinlərini, qanadlarını yenicə açır və artıq uçur, amma hələ bir az vaxt, bir neçə il lazımdır ki, bu, sözün bütün mənalarında əsl uçuş olsun. Ölkə çox az dövlətlərdən biridir ki, siyasi sabitlik həm Prezidentin siyasətinə, həm də xalqın Prezidentə münasibətinə əsaslanır. Bu isə biznes üçün çox vacibdir. İrəlini görmək çox mühümdür, iş adamlarının, investorların onların investisiyalarının qorunacağını və məmnunluqla, sevinclə işləyəcəklərini, həmçinin gəlir əldə edəcəklərini bilmələri çox vacibdir. Həmçinin Özbəkistanda yaxşı investisiya mühiti var. Əks halda, qısa müddət ərzində bu qədər sərmayə olmazdı, onların bir çoxu xarici və yerlidir, yəni yerli investorlar, sadəcə, başqa ölkələrə yatırardılar, xaricilər isə gəlməzdilər. Ona görə də bütün bu amillər çox mühümdür. Prinsipcə, mən indiki halda Azərbaycan iş adamlarına müraciət edərək deyirəm, amma həmin sözləri Azərbaycan haqqında da söyləyə bilərəm. Bütün bu amillər Azərbaycanda da mövcuddur, ona görə də özbək investorları üçün Azərbaycanda işləmək, sərmayə qoymaq da əlverişli və faydalı olacaq. Əgər investisiyaların statistikasına nəzər salsaq, bütün bunlar, necə deyərlər, bizim sözlərimizi daha çox təsdiq edər.

Bizim artıq investisiya proqramlarını müəyyən etdiyimiz sahələr - sənaye (ağır, avtomobil, yüngül), kənd təsərrüfatı (pambıqçılıq, ipəkçilik, bağçılıq), turizm biznesi, mehmanxana biznesidir. Bunlar işlərin artıq davam etdiyi yeganə istiqamətlər deyil. Daha bir əhəmiyyətli məqamı qeyd etmək istərdim. Bu, investisiyaların iki tərəfdən gəlməsidir. Deyək ki, bu, həmçinin Azərbaycanın praktikasında elə də tez-tez rast gəlinmir. Bir qayda olaraq, xarici investorlar Azərbaycanın neft-qaz sahəsinə maraq göstərir, digər sahələrdə xarici şirkətlərə gəldikdə, onlar Azərbaycanda əsasən iş müqavilələri almaq istəyirlər. Başqa sözlə desək, podratçı qismində çıxış etmək. Bu da yaxşıdır. Bizə yaxşı, ixtisaslı və vicdanlı podratçılar lazımdır. Amma bu, bizim təcrübəmizdə heç də istədiyimiz deyil, investisiyalar elə bil ki, paralel kursla daxil olur və bizim daha çox inkişaf etmiş sahələrimizi əhatə edir. Ona görə də bu sahədə münasibətlərimizin unikallığı, düşünürəm ki, həmçinin ictimaiyyətin, o cümlədən iş adamlarının böyük diqqətinə layiqdir. Son məqamda mən konkret layihələrin sadalanması ilə vaxtı çox almaq istəmirəm. Bu barədə çox danışmışıq. Bizim razılığa gəldiyimiz son məqam biznes layihələrinin informasiya dəstəyidir. Məsələn, Azərbaycanda Özbəkistanda baş verənlərlə bağlı və hansı böyük layihələrin reallaşdığı, biznes üçün necə imkanların olması barədə daha çox informasiya olsun. Çünki bu gün biz bir növ aparıcı biznes strukturları ilə danışırıq, amma əminəm ki, öz müəssisələrini açmaq istəyən çoxlu sayda kiçik biznes, orta biznes nümayəndələri də olacaq. Ola bilər ki, onların sayı Xankəndidə tikiş fabrikində olduğu kimi min nəfərə çatmasın, cəmi 5 nəfər olsun. Əminəm ki, bu da, bugünkü səfər də, bizim danışdıqlarımız və imzaladıqlarımız da onlar üçün belə siqnal olacaq. Ona görə də nəyin baş verməsi, hansı imkanların olması, hansı iqtisadi sahələrin hökumət üçün prioritet təşkil etməsi haqqında informasiyalar nə qədər çox olarsa, iş adamları da bu istiqamətdə addımlayacaqlar. Birincisi, cəmiyyətlərimiz bir-biri haqqında daha çox informasiya alacaq, bu isə mütləq lazımdır, müttəfiqlər kimi buna nail olmalıyıq, həmçinin bu, biznes strukturları üçün də yaxşı oriyentir olacaq. Onlar biləcəklər ki, orada, məsələn, gəlir norması 20 faizdir, burada 15 faiz, başqa yerdə 25 faiz, yaxşı gəlir əldə etmək üçün bu sahə var. Ölkələrimizin potensialının çox böyük olduğunu və həmçinin investisiyaların qoyulması sahələrinin tamamilə geniş olduğunu nəzərə alaraq, əminəm, gəlir norması elə olacaq ki, onu başqa yerlərdə əldə etmək çətin ki, mümkün olsun.

Nəhayət, ən sonuncusu. Bakıya qayıdandan sonra, həmçinin şəhər meriyasına yaxşı bir yerdə 5-10 hektar ərazi ayırmağı tapşıracağam və Şavkat Miromonoviçin Bakıda Özbəkistan guşəsinin, Daşkənddə isə Azərbaycan guşəsinin yaradılması təklifini tam dəstəkləyirəm. Onlar həm bizim mədəniyyətimizi, həm adət-ənənələrimizi, həm də memarlığımızı təcəssüm etdirəcək. Beləliklə, biz də bu məsələnin üzərində fəal işləyəcəyik. Yaxın vaxtlarda belə bir yer seçəcəyik.

Diqqətinizə görə sağ olun.

* * *

Görüşdə çıxış edən şirkət rəhbərləri və iş adamları iki ölkə arasında neft-qaz, neft-kimya sənayesində, inşaat, inşaat materiallarının istehsalı, maşınqayırma, nəqliyyat, gəmiqayırma, sərmayə qoyuluşu və digər sahələrdə birgə layihələrdən danışdılar.

Dövlət başçıları çıxışlar barədə rəylərini bildirdilər.

* * *

**Prezident Şavkat MİRZİYOYEV:** İlham Heydər oğlu, hesab edirəm ki, bu, biznes dairələrimizin böyük birgə işinin başlanğıcıdır. Bir daha qeyd edirəm, İlham Heydər oğlunun dediyi kimi, siz əmin olmalısınız ki, biz hər cür rahat şərait yaradacağıq. Yetişdirdiyim şirkətlər artıq dedilər, - bu gün hər kəs çıxış etmək istərdi, amma təəssüf ki, vaxtımız məhduddur, - hamısı sizinlə əməkdaşlıq etmək istəyir. Bir daha deyirəm, biz yalnız qarşılıqlı faydalı əsasda bütün şəraiti yaradacağıq ki, bir ildən sonra sizin şirkətlərin nümayəndələri Özbəkistanda, bizim şirkətlər isə Azərbaycanda təmsil olunsun. Artıq başa çatdırdığımız iri layihələrin sayı bir deyil, iki deyil. Biz başlayanda heç kim bizə inanmırdı. Göründüyü kimi, əməkdaşlıq etmək olar. İkincisi, mən həmişə İlham Heydər oğluna bir məsələni deyirəm: əgər biz idxalı əvəzlədiyimizə baxsaq, görərik ki, başqa ölkələri təmin edirik. Biz əməkdaşlıq etsək, 2-3 ilə çox şeyə nail olacağıq və nəticələr də olacaq. "Global Textile" şirkətinin rəhbəri Müzəffər Razakov bu gün 2 min iş yerinin olduğunu bildirdi. Bu da real nəticədir - 2 min iş yeri. Mən ona tapşırdım ki, bu, Özbəkistanda ən nümunəvi klaster olmalıdır, çünki İlham Heydər oğlu, mən Sizə səmimi deyirəm, 3-4 ildir, rəqəmlərlə danışsaq, biz pambığın təxminən 15 faizini emal etmişik. Amma ümumi baxanda, 2016-cı ildən etibarən hazır lif satışı 700 milyon təşkil edib. Bu gün biz bu sənayeni tamamilə dəyişdirmişik. Biz ixrac edirik, yalnız ixraca yönəlmişik. 2,5 milyona yaxın vergi daxilolmaları ilə yanaşı, bütün respublika üzrə qadınları bu sahəyə cəlb etmişik. Bu sənayedə 4-4,5 milyardlıq ixracımız var. Yəni bunlar bizim işimizin real nəticələridir. Ən əsası isə, biz bunu sahibkarlara həvalə etdik. Klasterlər özəl mülkiyyətçilərdir, özləri əkir, emal edir və bazarda satırlar. Mən hər il onlara kömək edirəm. Toxuculuq üçün yaxşı bazar şəraiti olanda onlar özləri bacarıqlarını nümayiş etdirəcəklər. Amma onlar son üç-dörd ildir ki, fəaliyyət göstərirlər. Dövriyyə kapitalı olsun deyə, biz onları bir az dəstəkləyirik. Hər il onlarla görüşür, onlara dəstək oluram. İlham Heydər oğlu, odur ki, biz bu sahələrdə də yaxşı əməkdaşlıq edə bilərik.

**Prezident İlham ƏLİYEV:** Şavkat Miromonoviçlə tamamilə razıyam. Eşidəndə ki, artıq iş başlayıb və planlar yetərincə genişmiqyaslıdır, çox sevindim. Qırx min ton pambıq, əgər biz indi 300 min ton istehsal ediriksə, bu, malik olduğumuzun təqribən 15 faizi deməkdir. Sahənin 5 mindən 11 min hektara qədər artırılması perspektivindən, - həm də orada torpaqların hamısı əkinə yararlıdır, - sizin texnologiyalarla biz düşünürəm ki, hektardan 4-5 ton pambıq yığacağıq, bu da tamamilə realdır. Yəni biz 50 min ton həcminə çata bilərik, bu isə ciddi əlavə artım olacaq. Siz düzgün qeyd etdiniz ki, tekstil klasteri, ilk növbədə qadınlar üçün iş yerləri deməkdir, yəni bu, məşğulluqdur. Yəni bu, çox faydalı layihədir. Həmçinin başqa yoldaşların məruzə etdikləri də birgə işimizin nəticəsidir.

Bizim nəqliyyatçılar da buradadırlar. Həmçinin nümayəndə heyətimizə, - mənimlə birlikdə gələn nümayəndə heyətini nəzərdə tuturam, - tövsiyə edərdim ki, Xəzər vasitəsilə daşımalar məsələsində bərələrin sifarişini təklif etsinlər. Bəlkə Siz nəqliyyat naziri ilə görüşəsiniz və elə bu mövzunu müzakirə edəsiniz. Çünki biz hazırda gəmiqayırma zavodumuzun gücünü artırırıq - hazırda burada 6 gəmi inşa edilir. Yəni o, bizim sifarişlərimizi qəbul etmək üçün tam yüklənib. Yəqin ki, lazım olarsa, bununla kifayətlənməyəcəyik, çünki Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu tezliklə hazır olacaq. Deməli, əlavə yüklər gələcək. Bütün hallarda həm siz, həm də biz bu planda birgə işləməli olacağıq. Həmçinin keçən görüşlərin birində mən Şavkat Miromonoviçə məlumat verdim ki, biz indi Qara dəniz regionuna fəal şəkildə çıxırıq. Dörd ədəd "Afromaks" tankeri almışıq, həm də nəzərə almalıyıq ki, bizim Qara dənizdə əvvəllər də gəmilərimiz olub. Əgər perspektivdə Sizi maraqlandırarsa, biz Qara dənizdə yüklərin daşınması üzrə birgə işləyə bilərik, çünki orada sifarişlərin həcmi yetərincə böyükdür. Qara dəniz hövzəsinin çətinlikləri isə, necə deyərlər, məlumdur, buna görə də burada birgə işləyə biləcəyimiz müəyyən sahələr var.

Qarabağda işlərlə bağlı. Tikintiyə töhfənizə görə sağ olun. Həmçinin iqtisadiyyat nazirinə tapşırıram ki, sizin köməyinizlə daha hansı layihələrin reallaşdırıla biləcəyi nəzərdən keçirilsin. "Böyük qayıdış" proqramı kifayət qədər genişmiqyaslıdır. Bu ilin sonunadək bizim 2021-ci ildən bəri yatırmağa başladığımız sərmayələrin ümumi həcmi yəqin ki, 10 milyard dollardan az olmayacaq. Praktik olaraq, elə bu yaxınlarda mənzillərin tikintisinə başlamışıq, yəni hər şey əsasən infrastruktura yönəldilib. Mənzillərin tikintisi isə kütləvi şəkildə başlayıb. Biz artıq qayıtmaq istəyən 100 min nəfərdən 8 mindən bir qədər çoxunu yerləşdirmişik. Yəni, zənnimcə, mənzil tikintisi bütün infrastruktur başa çatdıqdan - 2026-cı ildən sonra olacaq, bu, əsas istiqamətə çevriləcək. Ona görə də bütün layihələr üzrə bizdə qərargah, təşkilat komitəsi var. İqtisadiyyat Nazirliyi investisiya layihələri ilə məşğul olur. Bu səbəbdən əlaqə saxlayın, düşünürəm ki, bizim növbəti görüşümüzdə siz hansı layihələrin həyata keçirildiyini deyə biləcəksiniz.

**Prezident Şavkat MİRZİYOYEV:** İlham Heydər oğlu, bir təklifim olacaq, hesab edirəm ki, bizim proqramımız zəngindir. Amma mən çox istərdim ki, hamını dinləyək. Lakin protokola əməl etməliyik. Amma mənim belə bir təklifim var, İlham Heydər oğlu, mən yenə də təklif edirəm, dediyim kimi, xahiş edirəm, bir gün də qalın ki, həmkarlarınızla danışasınız, sonra hər biriniz hansısa ortaq layihə ilə çıxış edəsiniz. Üstəlik, biz İlham Heydər oğlu ilə fondun məbləğinin artırılmasına dair razılığa gəldik. Yəni işinizə başlamaq üçün dəstək verəcəyik. Daha müfəssəl danışın. Siz iş adamları, bir-birinizi dərhal başa düşürsünüz. Tərcüməçiyə ehtiyacınız yoxdur. Siz bir-birinizi çox tez başa düşürsünüz və biz prezidentlər - İlham Heydər oğlu və mən sizi dəstəkləyəcəyik. Daha sonra Yol xəritəsinə yeni layihələr daxil edəcəksiniz. Bir daha demək istəyirəm, əmin olmalısınız ki, bu, həm sizin, həm də bizim üçün daha rahat işləyə bilməyiniz baxımından qarşılıqlı faydalı olacaq. Qeyd etdiyim kimi, üçüncü ölkələr, məsələn, Əfqanıstan da var. Bizim Mərkəzi Asiyada 80 milyonluq bazarımız var, sərbəst şəkildə nəzərə ala bilərsiniz. Bunu diqqətdə saxlayın. Buna görə bir daha hamınızı Özbəkistanda görməyə şadam. Hesab edirəm ki, bu, Azərbaycanın və Özbəkistanın işgüzar dairələri arasında çox yaxşı qarşılıqlı əlaqələrin başlanğıcıdır.

**Prezident İlham ƏLİYEV:** Tamamilə razıyam. Şavkat Miromonoviç, bu təşəbbüsə görə bir daha sağ olun. Həm bu təmas, həm də işgüzar dairələr üçün bizim tövsiyələrimiz düşünürəm ki, mühüm əhəmiyyətə malik olacaq. Sizinlə nazirlərimizin gördüyü işlərə nəzarət etdiyimiz kimi, beləcə onlara da nəzarət edəcəyik. Odur ki, qoy onlar buna hazır olsunlar.

**Prezident Şavkat MİRZİYOYEV:** Bəli. Odur ki, siz də nəzarətə hazır olun.

* * *

Sonra yeni Özbəkistan-Azərbaycan birgə layihələrinə start verilməsi mərasimi oldu.

Bildirildi ki, ümumi dəyəri 520 milyon dollar olan 7 layihə həyata keçirilməyə hazırdır. Bunlar aşağıdakılardır:

*- Daşkənd şəhərində beşulduzlu mehmanxananın və "The Ritz-Carlton" brendi altında premium-sinif rezidensiyasının tikintisi. Layihənin dəyəri 200 milyon dollardır.*

*- Qaşqadərya vilayətinin Qamaşı rayonunda gips və gips-karton məmulatları istehsalı zavodunun tikintisi, istehsal gücü sutkada 350 ton. Layihənin dəyəri 20 milyon dollardır.*

*- Daşkənddə "Agalarov Development" tərəfindən yaşayış komplekslərinin tikintisi. Layihələr 133 milyon dollara başa gəlib.*

*- Azərbaycan Respublikasının Yevlax rayonunda tekstil klasterinin yaradılması. Layihənin dəyəri 104 milyon dollardır. Pambıq becərilməsinin başlanğıcından hazır məhsulun buraxılmasına qədər tam istehsal prosesini təmin edir. Bu layihə Özbəkistanın "Global Textile" şirkətinin iştirakı ilə həyata keçirilir.*

*- Azərbaycan Respublikasının Xankəndi şəhərində toxuculuq fabrikinin tikintisi. Layihənin dəyəri 6 milyon dollardır və Özbəkistanın "BUSINESS TEX" MMC şirkətinin iştirakı ilə həyata keçirilir.*

*- Azərbaycan Respublikasının İmişli rayonunda tekstil klasterinin yaradılması. Layihənin dəyəri 54 milyon dollardır və pambığın yığılmasından hazır məhsulun buraxılmasına qədər tam istehsal prosesini təmin edir. Layihə Özbəkistanın "TST GROUP" şirkətinin iştirakı ilə həyata keçirilir.*

*- Azərbaycan Respublikasının Füzuli rayonunda Özbəkistan-Azərbaycan dostluq bağının yaradılması. Layihənin dəyəri 3 milyon dollardır.*

* * *

Sonra prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev Azərbaycanda və Özbəkistanda birgə layihələrin başlanmasını bildirən rəmzi düyməni basdılar.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# BİZ MÜTTƏFİQİK

## Daşkənddə Azərbaycan və Özbəkistan incəsənət ustalarının birgə qala konserti olub





**Avqustun 23-də Daşkənddə Azərbaycan və Özbəkistan incəsənət ustalarının birgə qala konserti olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva, qızları Saida Mirziyoyeva konsertdə iştirak ediblər.





## Daşkənddə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilib





Avqustun 23-də Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin və xanımı Ziroatxon Mirziyoyevanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilib.






◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

# BİZ MÜTTƏFİQİK

## Azərbaycanın və Özbəkistanın birinci xanımları Daşkənddə görüşüblər

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva avqustun 23-də Daşkənddə Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşüb.



## Azərbaycanın və Özbəkistanın birinci xanımları Daşkənddəki "Mexrli" məktəbi ilə tanış olublar

**Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva avqustun 23-də Daşkənddə "Mexrli" məktəbi ilə tanış olublar.**



AZƏRTAC xəbər verir ki, birinci xanımlara məktəb barədə məlumat verildi.

Bildirildi ki, Uşaq Hematologiya, Onkologiya və Kliniki İmmunologiya Mərkəzinin nəzdində fəaliyyət göstərən məktəbdə fasiləsiz və keyfiyyətli təhsili təmin etmək məqsədilə uzun müddət xəstəxanada müalicə alan və adi məktəbə və ya uşaq bağçasına gedə bilməyən uşaqlara məktəbəqədər, o cümlədən ümumi orta təhsil verilir. Məktəb həm də valideynlərin bu prosesə cəlb edilməsi ilə uşaqların tam reabilitasiyasına və sosiallaşmasına şərait yaradır. Tədris prosesində sırf rəqəmsallaşdırılmış dərslik və kitablardan istifadə olunur.





Qeyd edildi ki, mərkəzdə müalicə alan 1-11-ci sinif şagirdləri üçün ümumi orta təhsil 12 fənn üzrə həyata keçirilir. Məktəbin yaradıcılıq studiyasında uşaqlara musiqi və təsviri incəsənət fənləri öyrədilir.

Sonra birinci xanımlar uşaqlarla görüşdülər və onların əl işləri ilə tanış oldular.

Sonda xatirə şəkli çəkdirildi.



## Azərbaycanın və Özbəkistanın birinci xanımları və qızları Daşkənddə sərgi ilə tanış olub, Özbəkistan milli geyimlərindən ibarət kolleksiyaya baxıblar









Avqustun 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva və qızı Saida Mirziyoyeva ilə birgə Özbəkistanın Xalq rəssamı Akmal Nurun əsərlərindən ibarət sərgi ilə tanış olub, Özbəkistan milli geyimlərindən ibarət kolleksiyaya baxıblar.

AZƏRTAC xəbər verir ki, "Sevgi bağında" adlı sərgidə Özbəkistanın Xalq rəssamı Akmal Nurun son illərdə çəkdiyi əsərlər nümayiş olunur.



Xalq rəssamı Akmal Nur sərgidə yer alan əsərləri barədə məlumat verdi. Bildirdi ki, əsərlərdə ana sevgisi və kənd həyatının motivləri, ailə və ən əsası, Tanrının insana bəxş etdiyi talelər canlandırılıb.

Sonra birinci xanımlar və qızları naxışçı Mədinə Kasımbayevanın kolleksiyası ilə tanış oldular. Hər bir məmulat ənənəvi özbək naxışvurmasının müxtəlif texnikalarından istifadə olunmaqla əllə yerinə yetirilib.

Qeyd olunub ki, "Süzane" naxışının vurulmasında pambıqdan və ipəkdən yalnız evdə hazırlanmış materiallardan istifadə olunur. Saplar əllə boyanır, sonra dağ kvarsı və duz əlavə olunmaqla qaynadılır ki, bu da saplarda boyanın uzunmüddətli qalmasından ötrüdür.

Birinci xanım Mehriban Əliyevaya Özbəkistan mədəniyyətinin təbliğ olunduğu xatirə hədiyyələri təqdim edildi.

## Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər yola saldılar.



# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 379

QƏRAR

Bakı şəhəri, 23 avqust 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 667 (Cild I) ilə təsdiq edilmiş "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissə üzrə:

1.1.1. 1.1-ci bənddən "dövlət tərəfindən" sözləri çıxarılsın;

1.1.2. aşağıdakı məzmunda 1.3.2-1-ci yarımbənd əlavə edilsin:

"1.3.2-1. sənaye məhəlləsinin operatoru (bundan sonra - operator) - müsabiqə əsasında seçilən və bağlanılan idarəetmə sazişi çərçivəsində sənaye məhəlləsinin idarə olunmasını təmin edən hüquqi şəxs;";

1.2. 3-cü hissə üzrə:

1.2.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.1. Sənaye məhəlləsi dövlət, xüsusi və bələdiyyə mülkiyyətində olan torpaqlarda yaradıla bilər. Sənaye məhəlləsinə dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedici təşkilatın daimi istifadəsinə həmin torpaq sahəsini icarəyə vermək hüququ ilə ayrılır. Xüsusi və bələdiyyə mülkiyyətində olan torpaq sahələri isə Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə uyğun olaraq bağlanılan icarə və ya alqı-satqı müqavilələri əsasında cəlb edilir. Dövlət tərəfindən sənaye məhəlləsinin yaradılması haqqında qərar Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra - səlahiyyətli orqan) təklifi əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən, özəl sənaye məhəlləsinin yaradılması haqqında qərar isə sahibkarlıq subyektləri tərəfindən qəbul edilir.";

1.2.2. aşağıdakı məzmunda 3.3-1-3.3-6-cı bəndlər əlavə edilsin:

"3.3-1. İdarəedici təşkilat sənaye məhəllələrinin və onların rezidentlərinin reyestrini (bundan sonra - reyestr) yaradır, həmin reyestrin aparılmasını və reyestrə daxil edilmiş məlumatların müntəzəm yenilənməsini təmin edir.

3.3-2. Reyestr informasiya ehtiyatıdır. Reyestrə sənaye məhəlləsinin yaradılması barədə aktın tarixi, nömrəsi və növü, yaradılmasının məqsədi, fəaliyyət profili, ərazisinin ölçüsü, yerləşdiyi inzibati ərazi vahidi, qeydiyyat tarixi və nömrəsi barədə məlumatlar daxil edilir.

3.3-3. Sənaye məhəlləsinin yaradılması barədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qərar qəbul edildikdən sonra 10 (on) iş günündən gec olmayaraq bu barədə bu Əsasnamənin 3.3-2-ci bəndində göstərilən məlumatlar idarəedici təşkilat tərəfindən reyestrə daxil edilir.

3.3-4. İdarəedici təşkilat sahibkarlıq subyektinin özəl sənaye məhəlləsinin qeydiyyata alınmasına dair təklifinin kağız daşıyıcıda və ya elektron qaydada təqdim edildiyi gündən 10 (on) iş günü müddətində həmin təklifin bu Əsasnamənin 3.3-cü bəndinin tələblərinə uyğunluğunu yoxladıqdan sonra özəl sənaye məhəlləsini qeydiyyata alır, bu barədə bu Əsasnamənin 3.3-2-ci bəndində göstərilən məlumatları reyestrə daxil edir və sənaye məhəlləsinin reyestrdə qeydiyyata alınmasını təsdiq edən sənədi sahibkarlıq subyektinə elektron qaydada təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

3.3-5. Sahibkarlıq subyektinin təqdim etdiyi təklifdə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, sənədlər təqdim edildiyi tarixdən 5 (beş) iş günündən gec olmayaraq çatışmazlıqların aradan qaldırılması üçün bu barədə təklif göndərən sahibkarlıq subyektinə bildiriş elektron qaydada təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

3.3-6. Təklif təqdim edən sahibkarlıq subyekti bildirişi aldığı tarixdən ən geci 10 (on) iş günü müddətində həmin çatışmazlıqları aradan qaldırmalıdır. Təklifdə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqlar 10 (on) iş günü müddətində aradan qaldırılmadıqda idarəedici təşkilat tərəfindən təklifin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və həmin qərar 2 (iki) iş günü müddətində təklifi təqdim edən sahibkarlıq subyektinə elektron qaydada təqdim olunur və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.";

1.2.3. 3.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.4. Dövlət tərəfindən yaradılan sənaye məhəlləsi üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedici təşkilatın daimi istifadəsinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada həmin torpaq sahəsini icarəyə vermək hüququ ilə ayrılır. Sənaye məhəlləsinin fəaliyyəti üçün ayrılmış torpaq sahəsi yalnız sənaye məhəlləsinin fəaliyyəti məqsədilə istifadə edilir.";

1.3. 4-cü hissə üzrə:

1.3.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Sənaye məhəlləsinin fəaliyyətinin təşkili, idarə olunması və inkişafı idarəedici təşkilat və ya həmin sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti tərəfindən həyata keçirilir. İdarəedici təşkilat və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti həmin sənaye məhəlləsinin fəaliyyətinə görə cavabdehdirlər.";

1.3.2. aşağıdakı məzmunda 4.1-1-ci və 4.1-2-ci bəndlər əlavə edilsin:

"4.1-1. İdarəedici təşkilat və operator sənaye məhəlləsinin rezidenti kimi fəaliyyət göstərə bilməz. Özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti və ona aidiyyəti olan şəxslər həmin sənaye məhəlləsinin rezidenti olduqda, onların sayı sənaye məhəlləsinin digər rezidentlərinin ümumi sayından çox ola bilməz.

4.1-2. Sənaye məhəlləsinin daha səmərəli idarə olunmasını təmin etmək məqsədilə dövlət tərəfindən yaradılan sənaye məhəlləsinə münasibətdə idarəedici təşkilatın, özəl sənaye məhəlləsinə münasibətdə isə onun yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin müsabiqə əsasında operator cəlb etmək hüququ vardır. Operatorun müsabiqə əsasında seçilməsi bu Əsasnamənin 5 nömrəli əlavəsinə uyğun qaydada həyata keçirilir.";

1.3.3. 4.3-cü bənddə "Sənaye məhəlləsinin infrastrukturu və sənaye məhəlləsinin" sözləri "Dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin infrastrukturu və onun" sözləri ilə əvəz edilsin;

1.3.4. 4.4-cü bənddə "Sənaye məhəlləsinin ərazisində sənaye məhəlləsinin rezidentinin" sözləri "Özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin və sənaye məhəlləsinin rezidentinin" sözləri ilə, "rezidentin" sözü isə "müvafiq olaraq həmin sahibkarlıq subyektinin və rezidentin" sözləri ilə əvəz edilsin;

1.4. 5-ci hissə üzrə:

1.4.1. 5.1.1-ci yarımbəndə "sənaye" sözündən əvvəl "dövlət tərəfindən" sözləri əlavə edilsin;

1.4.2. 5.1.2-ci yarımbəndə "təşkilata" sözündən sonra "və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinə və ya operatora" sözləri əlavə edilsin;

1.5. 6-cı hissə üzrə:

1.5.1. 6.1.1-ci, 6.1.9-cu və 6.1.10-cu yarımbəndlərə "sənaye" sözündən əvvəl "dövlət tərəfindən yaradılan" sözləri əlavə edilsin;

1.5.2. 6.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.1.2. sənaye məhəlləsinin rezidenti kimi qeydiyyata alınmaq üçün müraciət edən ərizəçilərin investisiya layihəsini (bundan sonra - layihə) qiymətləndirir və nəticələrinə əsasən onlara sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsini verir, sənaye məhəllələrinin və onların rezidentlərinin qeydiyyatını (reyestrini) aparır;";

1.5.3. 6.1.3-cü yarımbənddə "sənaye məhəlləsinin ərazisində dövlət və bələdiyyə mülkiyyətində" sözləri "dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin fəaliyyəti üçün ayrılmış torpaq sahələrini və orada" sözləri ilə əvəz edilsin;

1.5.4. aşağıdakı məzmunda 6.1.3-1-ci yarımbənd əlavə edilsin:

"6.1.3-1. dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin rezidentlərinin istifadəsində (mülkiyyətində) olan torpaq sahələrinin və digər daşınmaz əmlakların onun yeni rezidentlərinə icarəyə (subicarəyə) verilməsinin sənaye məhəlləsinin fəaliyyətinə uyğunluğunu müəyyən edir;";

1.5.5. 6.1.4-cü yarımbəndə "səlahiyyətli orqana" sözlərindən sonra "və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinə" sözləri əlavə edilsin;

1.5.6. aşağıdakı məzmunda 6.1.4-1-ci yarımbənd əlavə edilsin:

"6.1.4-1. dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin idarə olunması üçün müsabiqə əsasında operatoru seçir, onunla idarəetmə sazişi bağlayır və operator tərəfindən idarəetmə sazişindən irəli gələn vəzifələrin icrasına nəzarət edir;";

1.5.7. 6.1.11-ci yarımbəndə "sahibkarlıq" sözündən əvvəl "sənaye məhəlləsində" sözləri, "keçirilməsi" sözündən sonra "və" sözü əlavə edilsin;

1.5.8. aşağıdakı məzmunda 6.3-cü və 6.4-cü bəndlər əlavə edilsin:

"6.3. Özəl sənaye məhəllələrinə münasibətdə bu Əsasnamənin 6.1.1-ci, 6.1.3-cü, 6.1.3-1-ci, 6.1.4-1-ci, 6.1.5-ci, 6.1.6-cı, 6.1.8-ci, 6.1.9-cu, 6.1.10-cu, 6.2.2-ci və 6.2.3-cü yarımbəndlərində nəzərdə tutulmuş vəzifə və hüquqlar həmin sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti tərəfindən həyata keçirilir. Özəl sənaye məhəlləsinin fəaliyyəti barədə illik hesabat onun yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti tərəfindən idarəedici təşkilata təqdim olunur.

6.4. Sənaye məhəlləsinin idarə olunması üçün müsabiqə əsasında operator seçilə və idarəetmə sazişinə əsasən sənaye məhəlləsinin idarəetmə və təsərrüfat fəaliyyətinin icrası ilə bağlı bu Əsasnamənin 6.1.1-ci, 6.1.4-cü (dövlət tərəfindən yaradılan sənaye məhəllələrinə münasibətdə), 6.1.6-cı, 6.1.9-cu, 6.1.11-ci, 6.2.2-ci və 6.2.3-cü yarımbəndlərində nəzərdə tutulmuş funksiyaların həyata keçirilməsi ona həvalə edilə bilər. Operator seçildiyi halda onunla idarəetmə sazişinin imzalanması və operator tərəfindən idarəetmə sazişindən irəli gələn vəzifələrin icrasına nəzarəti dövlət tərəfindən yaradılan sənaye məhəllələrinə münasibətdə idarəedici təşkilat, özəl sənaye məhəllələrinə münasibətdə isə həmin sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti həyata keçirir.";

1.6. aşağıdakı məzmunda 7.1.1-1-ci yarımbənd əlavə edilsin:

"7.1.1-1. sənaye məhəlləsinin idarə edilməsinə (onun infrastrukturdan və istehsal sahələrindən istifadəyə), həmçinin göstərilən xidmətlərə görə alınan haqlardan;";

1.7. 8.8-ci bəndin ikinci cümləsinə "məhəlləsinin" sözündən sonra "və onun" sözləri əlavə edilsin;

1.8. 9-cu hissə üzrə:

1.8.1. 9.1-ci bənddə (birinci halda) "Sənaye" sözü "Dövlət tərəfindən yaradılan sənaye" sözləri ilə, "İcarə müqaviləsini" sözləri "icarə (subicarə) müqaviləsini (bu Əsasnamənin 9.1-1-ci bəndinə əsasən torpaq sahəsini və digər daşınmaz əmlakı icarəyə (subicarəyə) götürmüş hüquqi və fiziki şəxslər istisna olmaqla)" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Özəl sənaye məhəlləsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilə, tikilinin və (və ya) torpaq sahəsinin icarə (subicarə) müqaviləsi həmin sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti ilə bağlanılır və onların surəti 10 (on) iş günü müddətində idarəedici təşkilata təqdim olunur.";

1.8.2. aşağıdakı məzmunda 9.1-1-ci bənd əlavə edilsin:

"9.1-1. Bu Əsasnamənin 6.1.3-1-ci yarımbəndi nəzərə alınmaqla onun rezidentinin istifadəsində (mülkiyyətində) olan torpaq sahəsini və digər daşınmaz əmlakları icarəyə (subicarəyə) götürmüş hüquqi və fiziki şəxslər bu Əsasnamənin 8-ci hissəsi ilə müəyyən olunmuş qaydada sənaye məhəlləsinin rezidenti kimi qeydiyyatdan keçməlidirlər.";

1.8.3. 9.3-cü bəndin ikinci cümləsinə "təşkilat" sözündən sonra "və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti" sözləri əlavə edilsin;

1.8.4. 11.1-ci bənddə "ərazisində dövlət və bələdiyyə mülkiyyətində olan" sözləri "fəaliyyəti üçün ayrılmış" sözləri ilə, "idarəedici təşkilat" sözləri isə "müvafiq olaraq idarəedici təşkilat və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti" sözləri ilə əvəz edilsin;

1.9. 12.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"12.1. Sənaye məhəlləsinin yaradılması və fəaliyyətinin təşkili dövlət tərəfindən yaradılan sənaye məhəllələrinə münasibətdə dövlət büdcəsinin vəsaiti, idarəedici təşkilatın əldə etdiyi gəlirlər və qanunla qadağan olunmayan digər mənbələr, özəl sənaye məhəllələrinə münasibətdə isə onun yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin gəlirləri və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.";

1.10. 13.3-cü bəndin birinci cümləsində "onun idarəedici təşkilatının" sözləri "idarəedici təşkilatın və özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin" sözləri ilə əvəz edilsin;

1.11. 2 nömrəli əlavə - "Qeydiyyat şəhadətnaməsinin forması" üzrə:

1.11.1. adında "Qeydiyyat" sözü "Rezidentin qeydiyyat" sözləri ilə əvəz edilsin;

1.11.2. "QEYDİYYAT ŞƏHADƏTNAMƏSİ" sözlərindən əvvəl "REZİDENTİNİN" sözü əlavə edilsin;

1.12. 3 nömrəli əlavə - "Sənaye məhəlləsinin rezidentlərinin reyestrinin aparılması Qaydası" üzrə:

1.12.1. adına, 1.1-ci və 1.2-ci bəndlərə "məhəlləsinin" sözündən sonra "və onun" sözləri əlavə edilsin;

1.12.2. 2-ci hissə üzrə:

1.12.2.1. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. Özəl sənaye məhəlləsi barədə məlumatlar onun yaradılması ilə bağlı qərar qəbul etmiş sahibkarlıq subyektinin təklifinə, dövlət tərəfindən yaradılan sənaye məhəlləsi haqqında məlumatlar isə Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun yaradılmasına dair qəbul edilmiş qərara əsasən Reyestrə daxil edilir.";

1.12.2.2. 2.5.1-ci yarımbənddə "rezident olan hüquqi şəxslər" sözləri "sənaye məhəllələri" sözləri ilə əvəz edilsin;

1.12.2.3. 2.5.2-ci yarımbəndə "olan" sözündən sonra "hüquqi şəxslər və" sözləri əlavə edilsin;

1.12.2.4. 2.5.3-cü yarımbənddə "rezidentin" sözü "sənaye məhəlləsinin və onun rezidentinin" sözləri ilə əvəz edilsin;

1.12.2.5. 2.5.5-ci yarımbənddə "məhəlləsində" sözü "məhəlləsinin və onun rezidenti kimi" sözləri ilə əvəz edilsin;

1.12.2.6. aşağıdakı məzmunda 2.5-1-ci, 2.6-1-ci və 2.7-1-ci bəndlər əlavə edilsin:

"2.5-1. Reyestrə sənaye məhəlləsinə dair aşağıdakı məlumatlar daxil edilir:

2.5-1.1. yaradılması barədə aktın tarixi, nömrəsi və növü;

2.5-1.2. adı, yaradılmasının məqsədi və fəaliyyət profili;

2.5-1.3. ərazisinin ölçüsü və yerləşdiyi inzibati ərazi vahidi;

2.5-1.5. məlumatın reyestrdə qeydiyyat tarixi və nömrəsi;

2.5-1.6. reyestrə daxil edilmiş məlumatlarda dəyişikliklər barədə qeyd.";

"2.6-1. Dövlət sənaye məhəlləsinin yaradılması barədə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qərar qəbul edildikdən, özəl sənaye məhəlləsi isə idarəedici təşkilat tərəfindən qeydiyyata alındıqdan sonrakı 10 (on) iş günündən gec olmayaraq, bu barədə məlumatlar reyestrə daxil edilir.";

"2.7-1. Sənaye məhəlləsinə vahid və təkrarolunmaz 5 (beş) rəqəmdən ibarət qeydiyyat nömrəsi verilir. Qeydiyyat nömrəsindəki ilk 3 (üç) rəqəm sənaye məhəlləsinin reyestrdəki sıra nömrəsini, növbəti iki rəqəm qeydiyyata alındığı ilin son iki rəqəmini göstərir. Qeydiyyat nömrəsi reyestrdə və reyestrdən çıxarışda əks olunur.";

1.12.2.7. 2.9-cu bəndə "məhəlləsinin" sözündən sonra "və onun" sözləri əlavə edilsin və həmin bənddə "onun" sözü "onların" sözü ilə əvəz edilsin;

1.12.2.8. 2.10-cu bəndin birinci cümləsinə "baş verdikdə," sözlərindən sonra "özəl sənaye məhəlləsinin qeydiyyatı ilə bağlı təklif təqdim edən sahibkarlıq subyekti, habelə" sözləri əlavə edilsin;

1.12.2.9. 2.12-ci bəndə "o cümlədən" sözlərindən sonra "özəl sənaye məhəlləsinin qeydiyyatı ilə bağlı təklif təqdim edən və" sözləri əlavə edilsin;

1.12.2.10. 2.13-cü bənddə "və rezidentin sənaye məhəlləsində" sözləri ", sənaye məhəlləsinin və onun rezidentinin" sözləri ilə əvəz edilsin;

1.12.2.11. 2.14-cü bənddə "məhəlləsində rezident" sözləri "məhəlləsinin və onun rezidenti" sözləri ilə əvəz edilsin;

1.12.3. 3-cü hissə üzrə:

1.12.3.1. 3.1-ci bənddə "Sənaye" sözü "Özəl sənaye məhəlləsinin qeydiyyatı ilə bağlı təklif təqdim edən sahibkarlıq subyekti və sənaye" sözləri ilə, "məhəlləsində" sözü isə "məhəlləsinin və onun rezidenti kimi" sözləri ilə əvəz edilsin;

1.12.3.2. 3.3-cü bəndin ikinci cümləsinə "rezident olan" sözlərindən əvvəl "özəl sənaye məhəlləsinin qeydiyyatı ilə bağlı təklif təqdim edən sahibkarlıq subyekti və" sözləri əlavə edilsin;

1.12.4. 4.1-ci bənddə "və sənaye məhəlləsində" sözləri", həmçinin sənaye məhəlləsinin və onun rezidenti kimi" sözləri ilə, "saxlanılmaq" sözü "mühafizə edilmək" sözləri ilə əvəz edilsin;

1.13. 4 nömrəli əlavə - "Sənaye məhəlləsinin idarəedici təşkilatı ilə rezidenti arasında bağlanılan sənaye məhəlləsinin ərazisində dövlət mülkiyyətində olan tikilinin və (və ya) torpaq sahəsinin İcarə Müqaviləsi" üzrə:

1.13.1. adı aşağıdakı redaksiyada verilsin:

"Sənaye məhəlləsinin ərazisində olan tikilinin və (və ya) torpaq sahəsinin rezidentə icarəyə (subicarəyə) verilməsinə dair İcarə (Subicarə) Müqaviləsinin NÜMUNƏVİ FORMASI";

1.13.2. preambula hissəsində "sənaye məhəlləsinin idarəedici təşkilatının" sözləri "dövlət tərəfindən yaradılan sənaye məhəlləsinin idarəedici təşkilatının və ya özəl sənaye məhəlləsinin yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyektinin" sözləri ilə əvəz edilsin;

1.13.3. 1-ci hissə üzrə:

1.13.3.1. 1.1.2-ci yarımbəndə "Prezidenti" sözündən sonra "və ya sahibkarlıq subyekti" sözləri əlavə edilsin;

1.13.3.2. 1.1.4-cü yarımbəndə "idarəedici təşkilatı" sözlərindən sonra "və ya yaradılması barədə qərar qəbul etmiş sahibkarlıq subyekti" sözləri əlavə edilsin;

1.13.3.3. 1.1.5-ci və 1.1.6-cı yarımbəndlərdə "dövlət mülkiyyətində" sözləri ", sənaye məhəlləsində" sözləri ilə əvəz edilsin;

1.14. 2-ci hissə üzrə:

1.14.1. 2.1-ci bənddə "dövlət mülkiyyətində" sözləri "sənaye məhəlləsində" sözləri ilə əvəz edilsin;

1.14.2. 2.2-ci bəndin ikinci cümləsində "razılığı olmadan" sözləri "yazılı razılığı olmadan digər şəxslərə subicarəyə verilməsinə," sözləri ilə əvəz edilsin;

1.15. "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"yə 5 nömrəli əlavə - "Sənaye məhəlləsinin operatorunun müsabiqə əsasında seçilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşları peşə bayramlarını qeyd ediblər

**Avqustun 23-də Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşları peşə bayramlarını qeyd ediblər.**





Agentlikdən AZƏRTAC-a bildirilib ki, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi general-mayor İlqar Abbasov, agentliyin kollegiya üzvləri və rəhbər heyəti xüsusi dövlət mühafizə xidməti əməkdaşlarının peşə bayramı ilə əlaqədar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, dahi rəhbərin əziz xatirəsini dərin ehtiramla anaraq, məzarı önünə əklil qoyublar.

Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

Şəhidlər xiyabanında Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş oğul və qızlarımızın unudulmaz xatirəsi yad edilərək məzarları üstünə güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Peşə bayramı münasibətilə tədbir Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin akt zalında davam etdirilib.

Tədbirdə çıxış edən agentliyin rəisi general-mayor İlqar Abbasov əvvəlcə şəxsi heyəti peşə bayramı münasibətilə təbrik edərək, xüsusi dövlət mühafizə orqanlarının yaranma tarixi və zəruri bir qurum kimi öz inkişafını davam etdirməyindən söz açıb. Ulu Öndər Heydər Əliyevin xüsusi dövlət mühafizə xidmətinin fəaliyyətinə verdiyi əvəzolunmaz töhfələrdən danışan agentlik rəisi qeyd edib ki, Mühafizə Xidmətinin müasir tarixinin ən unudulmaz səhifələri Ümummilli Liderin adı ilə bağlıdır. 1993-cü il avqustun 23-də Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi yaradılıb, 2002-ci il mayın 6-da Baş Mühafizə İdarəsi Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti adlandırılıb. Ölkəmizdə həyata keçirilən irimiqyaslı enerji layihələrinin təhlükəsizliyinin təmin edilməsi zərurəti ilə əlaqədar 2003-cü il mayın 31-də Xüsusi Dövlət Mühafizə Xidmətinin nəzdində İxrac Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsi yaradılıb.

Qeyd edilib ki, 31 illik dövr ərzində xüsusi dövlət mühafizə xidməti orqanlarının əməkdaşları üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetiriblər. Həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə xüsusi dövlət mühafizə xidmətinin hərbi qulluqçuları şərəflə iştirak edib, qəhrəmanlıqlar göstəriblər. Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, baş verə biləcək terror-təxribat aktlarının qarşısının qətiyyətlə alınması kimi ən mühüm sahələrdə Xidmətin hərbi qulluqçularının daim nümunəvi fəaliyyəti və fədakarlığı diqqəti cəlb edib.

Xüsusi mühafizə sahəsində dövlət siyasətinin daha da təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 16 mart tarixli fərmanı ilə Xüsusi Dövlət Mühafizə Xidməti ləğv edilib və yeni 3 qurum yaradılıb. Həmin qurumlardan biri kimi Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi neft və qaz ixrac boru kəmərlərinin mühafizəsini, o cümlədən mühafizə olunan şəxslərin və əksər strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi, mühafizə olunan şəxslər və obyektlərə qarşı yönələ biləcək təhlükələrin qarşısının alınması sahəsində qanunamüvafiq qaydada fəaliyyət göstərir. Beynəlxalq terrorizmin və sui-qəsdlərin geniş vüsət aldığı bir vaxtda mühafizə işinin təkmilləşdirilməsi, elm və texnikanın nailiyyətlərindən istifadə olunması, yüksək peşəkarlığa malik kadrların hazırlanması agentliyin qarşısında duran əsas vəzifələrdir.

Milli dövlətçiliyimizin qorunması işində mühüm yer tutan agentliyin hərbi qulluqçularının fədakar və nümunəvi fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib.

Belə ki, agentliyin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə yeni inzibati bina agentliyin balansına verilib. Agentliyin strukturunda dəyişiklik edilərək müstəqil idarə və şöbələrin, həmçinin ali zabitlərin sayı artırılıb. Hərbi qulluqçuların əməkhaqqına həvəsləndirmə sistemi tətbiq edilərək əməkdaşların sosial rifahı yaxşılaşdırılıb. Agentliyə neft və qaz boru kəmərlərinin mühafizə və məsləhətləşmə zonasında müvafiq işlərin aparılmasına, o cümlədən pilotsuz uçuş aparatlarının idxalı və istifadəsinə icazə verilməsi kimi mühüm səlahiyyətlər verilib. Ali zabit heyəti vəzifələrinə yeni idarə rəisləri təyin edilib, agentliyin kollegiyasının tərkibi təsdiq olunub.

Keçən il yubiley medalının təsis edilməsi, hər il əməkdaşların dövlət mükafatları ilə təltif olunması dövlət tərəfindən göstərilən diqqət və qayğının bariz nümunəsidir. Həmin diqqət və qayğının davamı kimi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 avqust tarixli sərəncamı ilə agentliyin 12 hərbi qulluqçusu dövlət təltifləri ilə mükafatlandırılıb, ali zabit heyəti vəzifəsinə yeni təyinat edilib.

Agentliyin rəisi çıxışının sonunda vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən islahatların və əldə olunan sabitliyin qorunub saxlanılmasının mühafizəsi sahəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin şəxsi heyəti döyüş tapşırıqlarının icrasında daha fəal mövqe tutmalı, dövlətə və dövlətçilik ideyalarına daha sədaqətlə xidmət göstərməlidir.

Tədbirin sonunda agentliyin xidmətdə fərqlənən və öz vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuları medal və digər mükafatlarla təltif ediliblər.

# DİN işğaldan azad olunmuş ərazilərə buraxılan şəxslərə müraciət edib

Daxili İşlər Nazirliyi (DİN) işğaldan azad edilmiş ərazilərə buraxılan şəxslər üçün yaddaş hazırlayıb.

Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən bildirilib. Qeyd olunub ki, həmin bölgəyə buraxılanlar göstərilən tələblərə riayət etməlidirlər:

- şəxsiyyəti təsdiq edən sənəd daim üzərində olmalı;
- sənədlərin, şəxsi əşyaların və avtomobilin baxış üçün təqdim olunması və s. haqda polis əməkdaşının qanuni göstərişləri yerinə yetirilməli;
- avtomobildə yaranmış texniki nasazlıq, üzləşdiyi qəza, yanğın, partlayış və digər hadisələr, tapılan silah, sursat, partlayıcı maddə və başqa əşyalar barədə dərhal DİN-in "102" Xidmətinə məlumat verilməli;
- əvvəlcədən müəyyən olunmuş marşrutdan yayınmamalı və alternativ yollarla hərəkət etməməli;
- mənşəyi məlum olmayan əşyalara toxunmamalı;
- hərbi texnikanın və hərbi obyektlərin video və foto çəkilişini aparmamalı;
- hər hansı şəxsdən bağlama, çanta və mənşəyi məlum olmayan əşya qəbul etməməli, aidiyyəti orqanların razılığı olmadığı halda çadır qurmamalı, tonqal qalamamalı, su hövzəsinə daxil olmamalı;
- hərəkət marşrutu üzrə və olduğu ərazilərdə təmizliyə riayət etməli, məişət tullantılarını urnalardan kənara atmamalı;
- gəldiyi ərazidə icazə verilmiş vaxtdan artıq qalmamalı (gecələməməli);
- əraziyə spirtli içki, psixotrop, tezalışan və partlayıcı maddələr, hər hansı növ silah aparmamalı;
- müvafiq icazəsi olmayan şəxslərin əraziyə keçməsinə kömək etməməli və yaxud digər formada şərait yaratmamalı.

Tələbləri pozan şəxslər dərhal ərazidən çıxarılır, portal sistemindəki icazələri ləğv edilir, həmçinin qanunvericilikdə müəyyən edilmiş qaydada inzibati və cinayət məsuliyyətinə cəlb olunurlar.

## Azərbaycana şərəfli xidmət nümunəsi

# “Mehriban xanım ürəyimizdə

## Zabux sakinləri doğum gününü onlarla birgə



**◆ Şərqi Zəngəzurdan reportaj**

*Səhər yenicə açılır, gecənin qaranlığı yerini işıqlı sabaha təhvil verir...*

*Havada qatı duman olduğundan ətraf o qədər də aydın görünmür...*

*Avtomobilimiz dağların arası ilə irəlilədikcə duman çəkilir və yamyaşıl örpəyə bürünən əsrarəngiz mənzərəyə şahidlik edirik...*

*Gözəlliklər diyarı, həsrətin bitdiyi, xoşbəxtliyin ünvanı, yurda qayıdışın möhtəşəmlik simvolu Zabux kəndindəyik....*

*Uca dağların yaşıl yamaclarında məskən salan Zabuxu möcüzələr adasına da bənzətmək olar, xoşbəxtlik diyarına da... Hətta insan əli ilə yaranan cənnətə də...*

*Bir sözlə, ruhun cismə qovuşduğu, nəyin möcüzə, nəyin gerçək olduğu bilinməyən bir məkanda, Zabuxdayıq...*

### Qəribə taleli Qəribə nənə...

Zabuxun ən yaşlı sakininin evinin qapısını döyürük. Qapını üzümüzə nur üzlü Qəribə nənənin özü açır. Kimliyimizi soruşmadan, sorğu-sualsız bizi evə dəvət edir. Təəccübümüzü görüb tez də izahat verir:

- Ay başınıza dönüm, keçin içəri, qapıda durmayın, bir "istəkan" çay için.

Mənzilə daxil oluruq və Qəribə nənə ilə söhbətləşməyə başlayırıq.

- Qurban olum İlham oğluma, əsgərlərimizə... Torpaqlarımızı düşməndən yaxşı təmizlədilər. Qapı döyüləndə də narahat olmuruq, bu torpaqlarda düşmən yaşamır, bilirik ki, qapını döyən dost olacaq.

Qəribə Həsənova yaşlı olmasına baxmayaraq, çox gümrah görünür. Bizə yer göstərib tez də mətbəxə keçir. Qısa zamanda süfrələrin bəzəyi olan çay və gilas mürəbbəsi ilə geri dönür:

- Qadan alım, çay için, yorğunluğunuz çıxsın. 84 yaşım var, dünyanın hər üzünü görmüşəm. Bala, qaçqınlıq həyatı bizə çox şey öyrətdi...

Sözünün ardını gətirə bilmir. Kövrəlir... Yaylığının ucu ilə göz yaşlarını silir. Gözləri yol çəkir...

Xəyalı onu 1992-ci il mayın 18-nə aparır:

- Getsin o günlər bir də geri dönməsin. Biz Zabuxdan çıxanda hər tərəf od tutub yanırdı. Göy üzünü tüstü örtmüşdü. Elə bilirdim ki, tüstü yanan Zabuxdan yox, mənim başımdan çıxırdı. Bir də bu cənnət yurdumuza qayıdacağımıza heç gümanımız yox idi. Sahibsiz idik. Yiyəmiz, başçımız yox idi...

Başımıza gələnlər də yiyəsizlikdən oldu...

Amma Vətən müharibəsindən sonra ümidim artdı. Dedim, vallah, deyəsən, mən Laçını görməmiş bu dünyadan getməyəcəyəm. 2022-ci il sentyabrın 21-də televizorda İlham oğlumun Laçında bayrağımızı qaldırmasını gördüm. Sevincimdən hönkürüb ağladım. Dedim ki, bala, sənin o bayraq qaldıran əlin heç zaval görməsin. Nəvələrimi başıma yığıb dedim ki, Prezidentimiz bizi Laçına qaytaracaq.

Çox intizarın çəkmişdim yurdumun, yuvamın... Üstündən nə keçdi ki? Bir də gördüm dedilər, yığış gedirik Zabuxa...

### "İlham oğlum göstəriş verdi, o dəqiqə xahişim yerinə yetirildi"

Qəribə nənə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşlərini də sevə-sevə xatırlayır. Öz şirin şivəsində, ləhcəsində ağızdolusu danışır.

- Bizə dedilər ki, Prezident Mehriban xanımla Zabuxa gəlib, evlərinizin açarını özləri verəcək. Çayın kənarına "Ceyran"ın yanına yığışmışdıq. Vallah, baxırdım ki, dağlar o dağlardı, amma Zabux o Zabux deyildi. Toba, Allaha and olsun, buraları tanımadım. Dedim başımı xarab etməyin, bura Zabux deyil, bura cənnətdir. Biz ömrümüzdə belə ev-eşik, küçə görməmişdik. Belə səliqə-sahmanı, belə yaraşığı ağlımızdan keçirməmişik. Baxın, adam doqqaza çıxanda gözəlliyi görüb evə qayıtmaq istəmir. Evdəki rahatlığı da görüb küçəyə çıxmaq istəmirsən...

Prezidenti, Mehriban xanımı görəndə həyəcanlandım. Həyəcandan tir-tir əsirdim. Ömrümdə ağlımdan keçməzdi ki, Prezidentlə, Mehriban xanımla belə yaxın duracam, söhbət edəcəm.

Başına dönüm, bala, bunlar nə qədər sadə insanlarmış...

Allaha and olsun, nəvələrimlə belə ərklə danışa bilmirdim. Mehriban qızım məni dəfən-dəfən öpüb bağrına basdı. Arzularımı öyrəndi. Ay Toba, fürsətcil deyiləm. Dedim başınıza dönərəm, elə edin ki, rəhmətə gedən oğlumun balaları da yaxınıma düşsünlər. İlham oğlum göstəriş verdi, o dəqiqə xahişim yerinə yetirildi.

Öz-özümə dedim, Qəribə, Allah səni bekara yaşatmırmış. Sənin taleyində qaçqınlıq, köçkünlük zülümün çəkmək də varmış, Prezidentlə söhbət etmək də...

Bala, öyrəndim ki, biz evimizə köçdüyümüz gün Mehriban xanımın anadan olduğu gün imiş. Belə bir gündə doğum gününü gəlib bizimlə keçirib.

Mehriban xanıma canımı da qurban edərəm. Qəzetiniz vasitəsilə dualarımı ona çatdırmağınızı xahiş edirəm. Qəribənin evi də, malı da, canı da Mehriban xanıma qurban olsun. Allah onu yaşatsın ki, kimsəsizə, kasıba, evsizə arxa, dayaq olsun. Mehriban, qızım, Allah ömrünü uzun, canını sağ eləsin!

Yəqin ki, çoxlarınız Qəribə nənənin Prezident və Mehriban xanımla dialoquna şahildik etmisiniz. Gəlin, bir daha həmin anı xatırlayaq:

*Qəribə nənə: Allah canınızı sağ eləsin. Sizdən bircə xahişim var. Mənim oğlum rəhmətə gedib, mənim olduğum otağı verirəm ölən oğlumun yoldaşına, təşkil edəsiniz.*

*Prezident İlham Əliyev: Mehriban xanım nə lazımdırsa, onu həll edər.*

*Sakin: Oğlu rəhmətə gedib. İstəyir ki, onun oğlu, uşağı, ailəsi buna yaxın olsun.*

*Prezident İlham Əliyev: Gəlsinlər buraya?*

*Sakin: Hə, gəlsinlər buraya yaxın olsun.*

*Prezident İlham Əliyev: Gəlsinlər, əlbəttə.*

*Mehriban xanım Əliyeva: Onlar indi haradadırlar?*

*Qəribə nənə: Xırdalanda.*

*Prezident İlham Əliyev: Onlar, əlbəttə, gələcəklər. Yəni bütün zabuxlular gələcək. Eviniz necədir, rahatdır?*

*Sakinlər: Rahatdır. Hər şey yaxşıdır.*

*Prezident İlham Əliyev: Nənənin yaxın qohumları da gələcək yəqin ki, bir müddətdən sonra. Xahişi odur ki, onların da yeri ona yaxın olsun. Onu təşkil edərsiniz.*





**Qəribə Həsənova:**

***- Prezidenti, Mehriban xanımı görəndə həyəcanlandım.***

***Bunlar nə qədər sadə insanlarmış... Allaha and olsun, nəvələrimlə belə ərklə danışa bilmirdim. Mehriban qızım məni dəfən-dəfən öpüb bağrına basdı. Arzularımı öyrəndi. Ay Toba, fürsətcil deyiləm. Dedim başınıza dönərəm, elə edin ki, rəhmətə gedən oğlumun balaları da yaxınıma düşsünlər. İlham oğlum göstəriş verdi, o dəqiqə xahişim yerinə yetirildi.***

***Öz-özümə dedim, Qəribə, Allah səni bekara yaşatmırmış. Sənin taleyində qaçqınlıq, köçkünlük zülümün çəkmək də varmış, Prezidentlə söhbət etmək də...***

***Bala, öyrəndim ki, biz evimizə köçdüyümüz gün Mehriban xanımın anadan olduğu gün imiş. Belə bir gündə doğum gününü gəlib bizimlə keçirib. Mehriban xanıma canımı da qurban edərəm. Qəzetiniz vasitəsilə dualarımı ona çatdırmağınızı xahiş edirəm. Qəribənin evi də, malı da, canı da Mehriban xanıma qurban olsun. Allah onu yaşatsın ki, kimsəsizə, kasıba, evsizə arxa, dayaq olsun. Mehriban, qızım, Allah ömrünü uzun, canını sağ eləsin!***

### "Gözləmirdim ki, Prezidentlə Mehriban xanım evimizə gələrlər..."

Prezidentin qonaq getdiyi digər bir evdə də oluruq. Doğum günündə Mehriban xanım Əliyeva ilə səmimi söhbət edən 65 yaşlı Zabux kənd sakini Rahilə Əliyeva ötən il yaşananları həyatının ən xoş anları kimi xatırlayır:

- Qaçqınlıq həyatında çox sıxıntılar görmüşük. Kim torpağını, evini kefindən qoyub qaçar? Canımızı götürüb çıxmışdıq Zabuxdan. Ötən günləri yaddaşımdan silməyə, xatırlamamağa çalışıram. O qədər qulağımız eşidə-eşidə deyiblər ki, atalarınızın qəbrini qoyub qaçmazdınız, qalıb öz torpağınızda ölərdiniz...

Prezidentimiz torpaqlarımızı azad etməklə üzümüzü ağ etdi. Bizləri də tənədən qurtardı... Başımıza gələnlər yiyəsizlikdən olmuşdu... Şükür Allaha... Artıq onlar acı da olsa, uzaq keçmişdə qaldı. İndi biz Zabuxda, doğma torpağımızda, öz evimizdəyik.

Hesab edin ki, 26 avqust, doğma yurda qayıtdığımız gün biz zabuxluların yeni doğum tarixidir. Səmimi danışacağam, görmədiklərimizi, hətta xəyal etmədiklərimizi də Zabuxda gördük. Bura əsl möcüzələr adasına bənzəyir. İnanmaq olmurdu ki, bu gözəlliklər, bu rahatçılıq cəmi bir ildən də az müddətdə yaradılıb. Bundan gözəl insan nə istəyə bilər ki? Belə şeyləri yalnız nağıllar aləmində görmək olardı. Başını salmağa yeri olmayan Rahilə bir gün gözün açır ki, Zabuxda gözəl təmirli 5 otaqlı, güllə, çiçəklə əhatələnmiş bir malikanədə yaşayır. Vallah, adam sevincdən, fərəhdən az qalır ki, dəli olsun.

Hələ bu azmış kimi, bir də görürsən ki, qapın döyülür, Prezidentlə Birinci vitse-prezident sənin evinə qonaq gəlib. Öz-özümə dedim, Rahilə möhkəm dur, sevincdən ürəyin partlamasın. Düzünü deyəcəm, çox həyəcanlı idim. Qəti gözləmirdim ki, Prezidentlə Mehriban xanım evimizə gələlər...

Çox şükür, gəldi, çox doğma adam kimi söhbət etdik. Mehriban xanım elə mühit yaratdı ki, beş dəqiqədən sonra ağlımıza elə gəldi ki, illərin yaxın rəfiqələri olmuşuq.

Özümü çox xoşbəxt sanıram. Belə bir cənnətməkan yerdə gözəl evimiz var. Dərd-sər bizdən uzaqdır.

Bizə bu şəraiti yaradan Prezidentimizə, Mehriban xanıma minnətdarıq. Baxın, evimizin baş köşəsinə İlham Əliyevlə Mehriban xanımın portretini asmışıq. Ən əsası da odur ki, onlar ürəyimizdə məskən salıblar.

Hərdən oturub düşünürəm, qısa müddətdə insan ağlına gəlməyən hadisələr baş verdi. 44 gün müddətinə torpaqlar işğaldan azad edildi. Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Qaçqınların yurda qayıdışı başlandı. Üstəlik xarabalığa dönmüş yurdumuz cənnətə döndü. Məndən soruşan olsa ki, harada yaşayırsan, heç çəkinmədən "cənnət"də yaşayıram" cavabını verərəm.

Bu torpaqları xilas edən Prezidentə alqış deyirik. Bu gözəlliyi yaradanlara dua edirik...

### "Mehriban xanım hər zaman ürəyimizdədir"

Rahilə Əliyeva deyir ki, əvvəllər televizorda görüb Birinci vitse-prezidenti, çox səmimi insan olduğuna qəlbən inanıb. Zabuxda Mehriban xanımla görüşəndə isə buna bir daha canlı şahidlik edib.

- Fikir verin, Mehriban xanım öz doğum gününü bizim evdə keçirdi. İndi bu ev bizim doğma evimiz olmaqdan başqa, həm də Mehriban xanımın ad gününü keçirdiyi bir məkan kimi gözümüzdə daha qiymətli, tarixi ünvandır. Bütün zabuxlular qürur duyurlar ki, Mehriban xanım üçün qiymətli olan bir gündə - doğum günündə Prezidentimiz bizim qaçqınlıq həyatımıza son qoydu, doğma yurdumuzu qaytarıb evlə təmin etdi.

Bu əziz gündə biz də birinci xanımı təbrik edirik. 26 avqust bütün zabuxluların ən əziz günü, doğma yurda qayıtdığı gündür. Bu gün bizə həm də ona görə əzizdir ki, 26 avqust bizim sevimli Birinci vitse-prezidentin, Mehriban xanımın doğum günüdür. Həmin gün evimizdə qazanlar qaynayacaq. Əmin edirəm ki, o gün bütün zabuxlular Mehiban xanımın doğum gününü qeyd edib ona, ailəsinə dualar edəcəklər. Mehriban xanım hər zaman ürəyimizdədir...





**Rahilə Əliyeva:**

***- Bir də görürsən ki, qapın döyülür, Prezidentlə Birinci vitse-prezident sənin evinə qonaq gəlib. Öz-özümə dedim, Rahilə möhkəm dur, sevincdən ürəyin partlamasın. Düzünü deyəcəm, çox həyəcanlı idim. Qəti gözləmirdim ki, Prezidentlə Mehriban xanım evimizə gələlər...***

***Çox şükür, gəldi, çox doğma adam kimi söhbət etdik. Mehriban xanım elə mühit yaratdı ki, beş dəqiqədən sonra ağlımıza elə gəldi ki, illərin yaxın rəfiqələri olmuşuq.***

***Mehriban xanım öz doğum gününü bizim evdə keçirdi. İndi bu ev bizim doğma evimiz olmaqdan başqa, həm də Mehriban xanımın ad gününü keçirdiyi bir məkan kimi gözümüzdə daha qiymətli, tarixi ünvandır. Bütün zabuxlular qürur duyurlar ki, Mehriban xanım üçün qiymətli olan bir gündə - doğum günündə Prezidentimiz bizim qaçqınlıq həyatımıza son qoydu, doğma yurdumuzu qaytarıb evlə təmin etdi.***

***26 avqust bizim sevimli Birinci vitse-prezidentin, Mehriban xanımın doğum günüdür. Həmin gün evimizdə qazanlar qaynayacaq. Əmin edirəm ki, o gün bütün zabuxlular Mehiban xanımın doğum gününü qeyd edib ona, ailəsinə dualar edəcəklər. Mehriban xanım hər zaman ürəyimizdədir...***

### "Bir həyat dərsini də Mehriban xanımdan aldım"

Söhbəti Rahilə xanımın gəlini Günel Əliyeva ilə davam etdiririk. O da həmin günü Mehriban xanım Əliyeva ilə ünsiyyətdə olub.





**Qərənfil Məmmədova:**

***- Biz gerçəkdən əsl cənnətin sakinləriyik. Bizə bu gözəlliyi bəxş edən dövlətə, bu dövləti qüdrətləndirib bu vəziyyətə gətirən, müharibədə qələbəni təmin edib yurdumuza qaytaran Prezidentimizə minnətdarıq.***

***Keçən il Prezidentimiz, Birinci vitse-prezident Mehriban xanım bu evdə olanda da mən onlara dedim ki, bizi xoşbəxt, qalib xalqın nümayəndəsi etdiyiniz üçün sizə ömür boyu minnətdarıq.***

***Xalqın gözü tərəzidir. Hər şeyi görür, qiymətləndirir. Prezidentimiz də, Mehriban xanım da həmişə öz doğum günlərini sadə adamlarla, kasıblarla birlikdə keçirirlər. Xalqdan güc alıb, xalqa dəstək olurlar. Özlərini bizlərdən biri hesab edib, bizim kimi sadə həyat yaşayırlar. Allah da mükafatlarını verir.***

***Mehriban xanım keçən il ad gününü mənim evimdə, şəhid ailəsinin evində qeyd etdi. Allah bütün muradına çatdırsın onu...***

***Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım xalqın ürəyində elə bir saray tikib, elə möhtəşəm dövlət qurublar ki, min il də bundan sonra tarixdə yaşayacaqlar. Mən Mehriban xanıma bu gözəl gündə uzun ömür, cansağlığı arzulayıram...***

## Azərbaycana şərəfli xidmət nümunəsi

# elə bir saray qurub ki...”

## qeyd edən Birinci vitse-prezidentə alqış edirlər




- Əlimiz hər şeydən üzülmüşdü. Artıq ümidimiz də itmək üzrə idi. Belə bir məqamda Vətən müharibəsi başladı. Adətən müharibə ölüm, fəlakət, ayrılıq gətirsə də, bu dəfə bizim ümidimizi qaytardı. Cənab Prezidentin sentyabrın 26-da xalqa müraciətini eşidəndə səsindəki qətiyyəti duyduq. Ölmək üzrə olan ümidimiz birdən-birə qələbə ruhuna kökləndi. İçimizdə qəribə bir inam yarandı. Əmin olduq ki, bu yumruq elə belə düyünlənməyib. Bu bizi Zəfərə aparacaq. Biz torpaqlarımıza qayıdacağıq...

İnanın öz doğma torpağımızda çadırda yaşamağa belə razı idik. Bizi əsl cənnətə qaytardılar. Səhər yuxudan durub Zabuxun bu gözəl mənzərəsini seyr edəndə fərəhdən, qürurdan gözlərim yaşarır. Axşamlar parkdan qəhqəhə, musiqi səsi kəsilmir. Bəlkə də dünyanın hər yerindən bura turistlər axışıb gəlir. Övladlarım Tuncayla Tunay soruşurlar ki, "bura haradır?" Cavab verirəm ki, bura cənnədir. Təkrar soruşurlar ki, "biz niyə indiyə kimi cənnətdə yaşamamışıq". Deyirəm ki, Allaha şükür edin ki, Prezidentimiz bizi cənnətlə mükafatlandırdı.

26 avqust həyatımızın ən gözəl günüdür. Bu, təkcə bu gözəl evə, Zabuxa qayıtdığımıza görə bizim üçün tarix deyil. 26 avqust yaddaşımızda Birinci vitse-prezident Mehriban xanımın öz doğum gününü Zabuxda qeyd etdiyi gün kimi tarixləşdi. Ali təhsilliyəm. Çox insanlar görmüşəm. Alimlərdən, professorlardan dərs almışam. Bir həyat dərsini də Mehriban xanımdan aldım. İnsan nə qədər sadə, səmimi olarmış. Anladım ki, səmimi insanlar Allahın dostları ola bilirlər...

Bir yetimin, kasıbın başını sığallamaqdan, qəlbini sevindirməkdən gözəl iş yoxdur. Mehriban xanım uşaqların başını sığallayıb, üzlərindən öpür, qayğılarını çəkirdi.

Bir də baxıb gördük ki, Mehriban xanım yanımızdadır. İllərin yaxın adamı kimi bizi qucaqlayır, təbrik edir, şəkil çəkdirir...

Gördüm ki, insan yalnız vəzifənin zirvəsinə yox, insanlığın, sadəliyin zirvəsinə ucala bilir.

Prezidentin evimizə gələcəyini bilmirdik. İnanın, Prezidenti, Mehriban xanımı həyətimizdə görəndə həm sevindik, həm də çox təəccübləndik. Öz münasibətləri, səmimi söhbətləri ilə illərdir çəkilən əzabları bizə unutdurdular. Həyatımızda yeni, gözəl, xoşbəxt səhifənin başlandığını hiss etdik.

İndi məndən soruşan olur ki, Zabux necə yerdir? Çəkinmədən deyirəm, bura xoşbəxtlik adasıdır. Bura cənnətdir. Bura böyük qələbənin rəmzidir. Qarşı tərəf erməni kəndləridir. Yəqin ki, indi onlar da burada yaradılan gözəllikləri görürlər. Əgər azacıq vicdanları olsa, 30 il viranə qoyduqları torpaqlarda yaradılan gözəllikləri, şəraiti görüb utanarlar...

Avqustun 26-sı Mehriban xanımın doğum günüdür. Bu, keçən il evimizə köçdüyümüz gün idi. Hazırlığımız yox idi. Bu il gəlsə, ayağının altında qurbanlar kəsərik. Sevgimizi göstərərik...

Deyərik ki, Mehriban xanım, biz sizi çox sevir, gördüyünüz işlərlə qürur duyuruq!

### "Mehriban xanım ad gününü mənim evimdə, şəhid ailəsinin evində qeyd etdi"

Zabuxda olarkən kənd sakini Qərənfil Məmmədovanın da qonağı olduq. Qərənfil xanımın ömür-gün yoldaşı Ədalət Məmmədov Birinci Qarabağ savaşında Qoçaz dağında gedən döyüşlərdə şəhid olub. Bu fədakar xanım Vətənə yadigar iki övladı - Ziyadxan və Gülnarəni qaçqınçılıq həyatı yaşayaraq tək böyüdüb. Qərənfil xanım bizimlə söhbətdə dedi:

- 31 illik qaçqınlıq həyatında çəkmədiyim zülm, görmədiyimiz çətinlik qalmadı. Bunlar artıq tarixdir. Keçmişdə qalıb. İndi həyatımın ən gözəl günlərini yaşayıram. Laçında, doğma kəndimdə, öz evimdəyəm. Mən sizə bir həqiqəti deyim, nə qədər çətin həyat yaşasaq da, ümidsiz olmadıq. Prezidentimizə olan inamımız bizi yaşatdı. Torpaqlarımıza qayıdacağımıza inanırdım. Düşünürdüm ki, İlham Əliyev kimi bir şəxsiyyət, sözübütöv bir insan bizə elə belə söz verməz. Şükür ki, düşmənə layiq olduğu cavabı verdi. Şəhidlərimizin qanı yerdə qalmadı... Üstümüzdən ləkə götürüldü.

Özümü əvvəllər dünyanın ən dərdli insanı sanırdım. İndi çəkinmədən deyə bilərəm ki, "dünyanın xoşbəxti mənəm dünyada". Evimiz, cənnətə bənzər kəndimiz, qüdrətli dövlətimiz var. Elə bir məkanda yaşayırıq ki, dünyanın hər yerindən insanlar axışıb Zabuxu görməyə gəlir.

Biz gerçəkdən əsl cənnətin sakinləriyik. Bizə bu gözəlliyi bəxş edən dövlətə, bu dövləti qüdrətləndirib bu vəziyyətə gətirən, müharibədə qələbəni təmin edib yurdumuza qaytaran Prezidentimizə minnətdarıq.

Artıq bir ildir ki, evli-eşikli olmuşuq. Düşünürəm ki, bu gözəlliklər 31 illik əzabımızın mükafatıdır. İndi bizim bu vəziyyətimizi, xoşbəxt həyatımızı görən Ədalətin də ruhu şaddır.

Keçən il Prezidentimiz, Birinci vitse-prezident Mehriban xanım bu evdə olanda da mən onlara dedim ki, bizi xoşbəxt, qalib xalqın nümayəndəsi etdiyiniz üçün sizə ömür boyu minnətdarıq.

Xalqın gözü tərəzidir. Hər şeyi görür, qiymətləndirir. Prezidentimiz də, Mehriban xanım da həmişə öz doğum günlərini sadə adamlarla, kasıblarla birlikdə keçirirlər. Xalqdan güc alıb, xalqa dəstək olurlar. Özlərini bizlərdən biri hesab edib, bizim kimi sadə həyat yaşayırlar. Allah da mükafatlarını verir.

Mehriban xanım keçən il ad gününü mənim evimdə, şəhid ailəsinin evində qeyd etdi. Allah bütün muradına çatdırsın onu...

Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım xalqın ürəyində elə bir saray tikib, elə möhtəşəm dövlət qurublar ki, min il də bundan sonra tarixdə yaşayacaqlar. Mən Mehriban xanıma bu gözəl gündə uzun ömür, cansağlığı arzulayıram...

### "Bəxtəvərik ki, Mehriban xanım doğum gününü bizimlə Zabuxda keçirib"

Zabux sakini Lalə Əliyeva ilə də həmsöhbət oluruq. O da Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva ilə səmimi söhbət edənlərdən biridir. Və bu hadisəni həyatının ən mənalı günü kimi xatırlayır:

Atalar "pis günün ömrü az olar" deyiblər. Bizim pis günümüz uzunömürlü oldu. Elə bilirdik ki, daha hər şey bitib. Çox şükür ki, bu günü yaşamağı da Allah bizə nəsib etdi. Bu günü də gördük. Yaxşı gün pisi unutdurarmış. İnanın, keçmişi heç xatırlamaq belə istəmirəm.

Mənim həyatım keçən ilin 26 avqustundan, Zabuxa yenidən qayıtdığımız gündən başlayıb. Bura gələndən yalnız şad xəbərlər alırıq. Sevincimiz birə min olub. Oğlum Sənanın Alin adlı ay parçası kimi gözəl bir qızı dünyaya gəlib. 3 otaqlı, belə gözəl şəraitli evdə yaşayırıq. Qaçqınlıq həyatı elə idi ki, bəzən qapını üzümüzə açmırdılar.

Xoşbəxtəm ki, evimizin ilk qonağı Prezidentimiz və Birinci xanım Mehriban Əliyeva olub. İnanclarımıza görə, rəhbəri yuxuda görənin ruzisi, bərəkəti artar, həyatında dəyişiklik olar. Zabuxlular hamılıqla ona görə xoşbəxtdirlər ki, evlərini də, evlərin açarlarını da Prezidentimiz verib. Gör nə qədər bəxtli insanlarıq ki, Prezidentimiz öz ailəsi ilə evimizin qonağı olub. Mehriban xanım doğum gününü burada, Zabuxda keçirib.

Biz "Ceyran" bulağının yanında toplaşmışdıq. Qəti gözləmirdik, ağlımızdan keçirmirdik ki, Mehriban xanım bizə yaxın gələcək, bizimlə görüşəcək. Bir də gördük ki, yanımızdadır. Hamı ilə fərdi qaydada görüşüb, problemlərimizlə maraqlanır. Hər birimizə diqqət ayırır. Düzünü desəm, özümüzü qınadım da... Bizə yaradılan bu şərait bir yana, bu boyda işlə bizə vaxt ayırsın, bu qədər səmimi davransın...

Bu, hər adamın bacardığı iş deyil. Mehriban xanım o qədər sadə insandır ki, mənə elə gəldi biz illərdir yaxın münasibətdə olan rəfiqələrik. Ürəyimi açıb hər sözümü danışmaq istəyirdim.

Bu gün imkandan istifadə edib deyirəm, Mehriban xanım, sizlər bizi yenidən vətənli, evli-eşikli, isti yuvalı, laçınlı, zabuxlu etdiniz. Allah da Sizi qorusun. Var olun!

### "26 avqust cənnətin sahibi olduğumuz gündür"

Digər həmsöhbətimiz isə 64 yaşlı Zabux kənd sakini Zeynəb Hüseynovadır. Zeynəb xanım uzun illər bağça müəllimi işləyib. Zabuxa qayıdan ilk ailələrdən biri də onlar olub. Nəvəsi Ayan da onlarla birlikdə Zabuxda yaşayır. Zeynəb müəllimə söhbət zamanı deyir:

- Ataların belə bir sözü var: "Kiminin əvvəli, kiminin də axırı gətirər". Çox şükür ki, bizə də ömrümüzün ahıl çağını xoşbəxt yaşamaq nəsib oldu. Allah dövlətimizi var etsin. Bu dövləti belə qüdrətli edən Prezidentimizə ömür versin. Elə bilirdim ki, həyatımızı zülm, zillət içində başa vuracağıq. Düz-əməlli məzarlığımız da olmayacaq. Gör nələr düşünürdük, nələr gördük?

Sizdən xahiş edirəm deməyin ki, gedib Laçın rayonunun Zabux kəndini görüb, zabuxlularla söhbət etdik. Yazın ki, cənnətin xoşbəxt, bəxtəvər sakinləri ilə görüşdük. Cənnəti görüb gəldik...

Bu torpağı bir güllə atmadan azad edənə, bu torpağı cənnətə döndərib bizə verənlərə min alqış. Bundan sonra ölsəm, vəsiyyət edəcəm: başdaşıma yazsınlar ki, burada uyuyan Zabuxun ən xoşbəxt sakini Zeynəbdir...

Biz buradan çıxanda ermənilər Zabuxu oda qalamışdılar. Əslinə qalsa, burada bu yaraşıqlıqda ev, bu gözəllikdə kənd qoyub çıxmamışdıq. Qayıdıb gələndə bu gözəlliyi görəndə gözlərimə inanmadım. Özözümə deyirdim ki, belə gözəl evi, bu gözəllikdə kəndi bizə verməzlər. Amma Prezidentimiz öz əli ilə açarları verəndə inandım ki, bundan sonra biz də gün görüb, xoşbəxt yaşayacağıq...

Xoşbəxtəm. Vətənim düşməndən azad olduğuna görə. Həm də bu torpaqlar qan tökülmədən, şəhid verilmədən azad olduğuna görə...

Düşmənlə sərhəddə bu gözəlliklər yaradıldığına görə...

Evlərin yox, bu cənnət mülkün açarını bizə dövlətimizin başçısı təqdim etdiyinə görə...

Açığını deyim ki, ömrümü bağça müəllimi işləməklə keçirmişəm. Özümüzdən vəzifəcə bir pillə yuxarı olan kiminsə yanına sıxıla-sıxıla getmişik. Utanmışıq, hətta qorxumuşuq da...

Ötən il Prezidentimiz evlərimizin açarını bizə Mehriban xanımla birgə verdi. Mənimlə də şəkil çəkdirdi. Söhbət etdik. Vallah elə bildim ən əziz, ən doğma bacımla söhbət etdim. İnsan adama nə qədər qayğı göstərər, bizim sevincimizə bizdən çox sevinirdi. Bizə yurdumuzda, evimizdə xoşbəxtlik arzuladı...

Bu il mən də bacardığımı edəcəm. Geniş bir süfrə açıb, bu gözəl evimdə Mehriban xanımın doğum gününü qeyd edəcəyik. Bu dəqiqə turistlərin ən çox gəldiyi yer Zabuxdur. Küçəyə çıxıb turistlərdən də evimə dəvət edəcəm, qoy bizim rəhbərimizə olan sevgimizə şahid olsunlar...

Fürsətdən istifadə edib, "Azərbaycan" qəzeti vasitəsilə əzizimiz Mehriban xanımı təbrik edib, uzun ömür arzulayıram. Qoy bilsin ki, bütün zabuxlular onun doğum gününü öz evlərində qeyd edəcəklər. 26 avqust həm də bizim təkcə yenidən dünyaya gəldiyimiz yox, cənnətin sahibi olduğumuz gündür. Bizi bu cənnət diyara qaytaranlar sağ olsunlar.

Zabux sakinlərinin arzularını, diləklərini eşitmək bizdə də xoş təəssürat yaradır. Zabuxun bugünkü mənzərəsi isə tam başqa aləmdir. Bura gələn geri dönmək istəmir. Cənnətməkandan daha bir reportajımızı yekunlaşdırıb geri qayıdırıq...

***Rəşad BAXŞƏLİYEV,***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

*Bakı-Laçın-Bakı*




**Günel Əliyeva:**

***- Bir həyat dərsini də Mehriban xanımdan aldım. İnsan nə qədər sadə, səmimi olarmış. Anladım ki, səmimi insanlar Allahın dostları ola bilirlər...***

***Bir yetimin, kasıbın başını sığallamaqdan, qəlbini sevindirməkdən gözəl iş yoxdur. Mehriban xanım uşaqların başını sığallayıb, üzlərindən öpür, qayğılarını çəkirdi.***

***Bir də baxıb gördük ki, Mehriban xanım yanımızdadır. İllərin yaxın adamı kimi bizi qucaqlayır, təbrik edir, şəkil çəkdirir...***

***Gördüm ki, insan təkcə vəzifənin zirvəsinə yox, insanlığın, sadəliyin zirvəsinə ucala bilir.***

***Prezidentin evimizə gələcəyini bilmirdik. İnanın, Prezidenti, Mehriban xanımı həyətimizdə görəndə həm sevindik, həm də çox təəccübləndik. Öz münasibətləri, səmimi söhbətləri ilə illərdir çəkilən əzabları bizə unutdurdular. Həyatımızda yeni, gözəl xoşbəxt səhifənin başlandığını hiss etdik.***

***Avqustun 26-sı Mehriban xanımın doğum günüdür. Bu, keçən il evimizə köçdüyümüz gün idi. Hazırlığımız yox idi. Bu il gəlsə, ayağının altında qurbanlar kəsərik. Sevgimizi göstərərik... Deyərik ki, Mehriban xanım biz sizi çox sevir, gördüyünüz işlərlə qürur duyuruq!***





**Zeynəb Hüseynova:**

***- Açığını deyim ki, ömrümü bağça müəllimi işləməklə keçirmişəm. Özümüzdən vəzifəcə bir pillə yuxarı olan kiminsə yanına sıxıla-sıxıla getmişik. Utanmışıq, hətta qorxumuşuq da...***

***Ötən il Prezidentimiz evlərimizin açarını bizə Mehriban xanımla birgə verdi. Mənimlə də şəkil çəkdirdi. Söhbət etdik. Vallah elə bildim ən əziz, ən doğma bacımla söhbət etdim. İnsan adama nə qədər qayğı göstərər, bizim sevincimizə bizdən çox sevinirdi. Bizə yurdumuzda, evimizdə xoşbəxtlik arzuladı...***

***Bu il mən də bacardığımı edəcəm. Geniş bir süfrə açıb, bu gözəl evimdə Mehriban xanımın doğum gününü qeyd edəcəyik. Bu dəqiqə turistlərin ən çox gəldiyi yer Zabuxdur. Küçəyə çıxıb turistlərdən də evimə dəvət edəcəm, qoy bizim rəhbərimizə olan sevgimizə şahid olsunlar...***

***Fürsətdən istifadə edib, "Azərbaycan" qəzeti vasitəsilə əzizimiz Mehriban xanımı təbrik edib, uzun ömür arzulayıram. Qoy bilsin ki, bütün zabuxlular onun doğum gününü öz evlərində qeyd edəcəklər. 26 avqust həm də bizim təkcə yenidən dünyaya gəldiyimiz yox, cənnətin sahibi olduğumuz gündür. Bizi bu cənnət diyara qaytaranlar sağ olsunlar.***





**Lalə Əliyeva:**

***- Atalar "pis günün ömrü az olar" deyiblər. Bizim pis günümüz uzunömürlü oldu. Elə bilirdik ki, daha hər şey bitib. Çox şükür ki, bu günü yaşamağı da Allah bizə nəsib etdi. Bu günü də gördik. Yaxşı gün pisi unutdurarmış. İnanın, keçmişi heç xatırlamaq belə istəmirəm.***

***Mənim həyatım keçən ilin 26 avqustundan, Zabuxa yenidən qayıtdığımız gündən başlayıb. Bura gələndən yalnız şad xəbərlər alırıq. Sevincimiz birə min olub. Oğlum Sənanın Alin adlı ay parçası kimi gözəl bir qızı dünyaya gəlib. 3 otaqlı, belə gözəl şəraitli evdə yaşayırıq. Qaçqınlıq həyatı elə idi ki, bəzən qapını üzümüzə açmırdılar.***

***Xoşbəxtəm ki, evimizin ilk qonağı Prezidentimiz və birinci xanım Mehriban Əliyeva olub. İnanclarımıza görə, rəhbəri yuxuda görənin ruzisi, bərəkəti artar, həyatında dəyişiklik olar. Zabuxlular hamılıqla ona görə xoşbəxtdirlər ki, evlərini də, evlərin açarlarını da Prezidentimiz verib. Gör nə qədər bəxtli insanlarıq ki, Prezidentimiz öz ailəsi ilə evimizin qonağı olub. Mehriban xanım doğum gününü burada, Zabuxda keçirib.***

***Biz "Ceyran" bulağının yanında toplaşmışdıq. Qəti gözləmirdik, ağlımızdan keçirmirdik ki, Mehriban xanım bizə yaxın gələcək, bizimlə görüşəcək. Bir də gördük ki, yanımızdadır. Hamı ilə fərdi qaydada görüşüb, problemlərimizlə maraqlanır. Hər birimizə diqqət ayırır. Düzünü desəm, özümüzü qınadım da... Bizə yaradılan bu şərait bir yana, bu boyda işlə bizə vaxt ayırsın, bu qədər səmimi davransın...***

***Bu, hər adamın bacardığı iş deyil. Mehriban xanım o qədər sadə insandır ki, mənə elə gəldi biz illərdir yaxın münasibətdə olan rəfiqələrik. Ürəyimi açıb hər sözümü danışmaq istəyirdim.***

***Bu gün imkandan istifadə edib deyirəm: Mehriban xanım, sizlər bizi yenidən vətənli, evli-eşikli, isti yuvalı, laçınlı, zabuxlu etdiniz. Allah da Sizi qorusun. Var olun!***

# Azərbaycana şərəfli xidmət nümunəsi



## Sevgi, inam, etimad...

**Sərhədsiz xeyirxahlıq, tükənməz mərhəmət və sonu görünməyən milli təəssübkeşlik ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsas qayəsini təşkil edir. İllərdir ki, ölkəmizdə təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına dəyərli töhfələr verən Mehriban xanım milli maraqların beynəlxalq aləmdə müdafiəsi, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində də yorulmadan çalışır. Xalqımızın sosial rifahına hesablanan bir çox layihənin müəllifi olan Mehriban xanım Əliyeva dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir.**

O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu və irsi özəlliklərini dünyanın ən mötəbər paytaxtlarında böyük fədakarlıqla, uğurla təbliğ edir. Sadəliyi, səmimiliyi, mehribanlığı, nəcibliyi, gözəl aurası ilə ətrafında xoş atmosfer yaradan Mehriban xanım haqqında "Washington Times" qəzeti belə yazır: "Azərbaycanın birinci xanımı: Müsəlman qadınlar üçün nümunəvi qadın obrazıdır".

Bu gün Mehriban xanım Əliyeva Azərbaycan qadın hərəkatının önündə gedərək beynəlxalq təşkilatlarda xanımlarımızı ləyaqətlə təmsil edir. Birinci xanımın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, "Qızıl ürək" beynəlxalq mükafatı, Avropa Olimpiya komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı...

Bu, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır. Onun dediyi kimi: "illər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca, məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır".

2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilir. "Mən işimi sosial məsələlərin, əhalinin aztəminatlı hissəsinin problemlərinin həlli üzərində qurmaq niyyətindəyəm. Mərhəmətsizlik və laqeydlik qorxulu anlayışlardır. İstər ictimai xadim, istərsə də dövlət məmuru üçün humanizmi qorumaq vacibdir" söyləyən Birinci vitse-prezident Mehriban Əliyevanın gördüyü işlərin miqyasının nə qədər böyük olduğu göz önündədir. Mehriban xanımın fəaliyyətində ənənəviliklə müasirlik, tarixi köklərə bağlılıqla dünyəvilik əsas prinsiplərdəndir. "Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfü deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır", - Prezident İlham Əliyevin söylədiyi bu fikirlər Mehriban xanımın işgüzar və insani keyfiyyətlərini çox dəqiqliklə əks etdirir.

Birinci vitse-prezident təyin olunarkən Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və yeni öhdəliklər götürən Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən keçmiş məcburi köçkünlərin, şəhid ailələrinin, qazilərin problemlərinin həlli xüsusi yer tutur. Təsadüfi deyil ki, yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni qaçqın və məcburi köçkün ailələrin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlandı və real işlərə başlandı. Qısa müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırıldı.

Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrini və qazilərimizi də daim diqqətdə saxlayır, onların qayğısına qalır. Döyüşlərdə yaralanan hərbçilərimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib, həmçinin sağlamlıqlarını itirmiş bir qrup əsgər və zabit yüksək texnologiyalı protezlərlə təmin edilib. Torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstək, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı ordumuzu qələbəyə ruhlandıran müraciət və çağırışlar, postmüharibə dövründə isə dövlətimizin başçısı ilə birlikdə Qarabağa çoxsaylı səfərlər, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı tikinti-bərpa işləri, Şuşada dünyaya səs salan möhtəşəm "Xarıbülbül" Musiqi Festivalının təşkili birinci xanımın xidmətləri sırasında xüsusi yer tutur. Hazırda Heydər Əliyev Fondu Qarabağ ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpası üzrə layihəni uğurla davam etdirir.

Bu gün muğamımızın səsi Qarabağın tacı, mədəniyyət paytaxtımız Şuşadan dünyaya yayılır. Belə bir sevinci yaşamağımız isə təbii ki, dövlətimizin qətiyyəti, ordumuzun qüdrəti sayəsində imza atdığımız tarixi Zəfərimizlə bağlıdır. Bu qələbə Azərbaycanın həm döyüş meydanında, həm də informasiya cəbhəsində üstünlüyünü dünyaya çatdırdı. İnformasiya cəbhəsində əldə olunan uğurlarda da Heydər Əliyev Fondunun əməyi danılmazdır. İkinci Qarabağ müharibəsinə qədər fondun müxtəlif ölkələrdə keçirdiyi təbliğat xarakterli tədbirlər, müxtəlif dillərdə çap etdirdiyi kitablar, digər əyani vəsaitlər məqsədə çatmaqda əsas rol oynadı.

Mehriban xanım Əliyevanın genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, maddi və qeyri-maddi mədəni irsini, milli mətbəximizi, musiqi mədəniyyətimizi dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün meqa layihələr təşkil edir, ölkəmizi uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Mehriban xanım Əliyeva özünəxas olan yüksək işgüzar və mənəvi keyfiyyətlər, dərin təşkilatçılıq və idarəçilik qabiliyyəti ilə üzərinə düşən hər bir vəzifənin öhdəsindən layiqincə gəlir, ölkədə həyata keçirilən siyasi kursun uğur qazanmasına mühüm töhfələr verir.

***Kamran BAYRAMOV,***
***Milli Məclisin deputatı***

## Xeyirxahlıq ünvanı, mərhəmət mücəssəməsi

**Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı məkana çevrilir. Bu işdə ölkə Prezidentinin ən yaxın silahdaşı isə bütün fəaliyyətində Ulu Öndər irsinə sədaqət nümaiş etdirən, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır.**

Azərbaycanın şanlı tarixinin müəyyən dövrlərində dövlətçiliyin inkişafında, xalqın mənəvi dəyərlərinin formalaşmasında tale zaman-zaman bizə bacarıqlı, ağıllı, müdrik, qəhrəman qadınlar bəxş edib. Onların hər biri dövlətlərin, cəmiyyətlərin həyatında mühüm rol oynayıb, bir çoxunun adları isə tarixin səhifələrinə qızıl hərflərlə yazılıb. Bu gün yüksək mənəvi məsuliyyət hissi ilə bu tarixi missiyanı öz zərif çiyinlərində daşımaqla şərəflə, əzmlə dövlətə, dövlətçiliyə və xalqa xidmət mücəssəməsi isə məhz Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Müstəqil Azərbaycanın daha da inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi istiqamətində, cəmiyyətin ictimai-siyasi, mədəni həyatında və idarəetmə sistemində fəal mövqeyi ilə fərqlənən Mehriban xanım Əliyevanın fəaliyyəti müasir tariximizdə Azərbaycan qadınının daha fərqli, daha mükəmməl obrazını gələcək nəsillərə ötürür. Bu gün Mehriban xanım Əliyeva müasir Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edərək, ölkənin müstəqilliyi və tərəqqisinə müstəsna töhfələr vermək kimi tarixi missiyanı uğurla həyata keçirir.

Ölkəmizin birinci xanımı xeyirxahlığı və nəcibliyi, humanizmi və bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibidir. Vətən və xalq naminə fədakarlıq, müasir Azərbaycanın dinamik inkişafında, sosial məsələlərin həllində fəallıq, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan mərhəmət və şəfqət Mehriban xanım Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. Birinci xanımın çoxşaxəli fəaliyyəti Azərbaycanın yüksəlişinə, mədəniyyətimizin qorunmasına və təbliğinə, dövlətimizin sosial siyasətinin daha böyük uğurlar qazanmasına layiqli töhfələrini verir.

Tam əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ulu Öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. 2004-cü ilin mayından Ulu Öndər Heydər Əliyevin xatirəsinə ehtiram, ideyalarını yaşatmaq arzusu ilə yaradılan, onun adını daşıyan fonda rəhbərlik edən Mehriban xanım Əliyevanın təəssübkeşliyi, xeyir-duası, dəstəyi ilə həyata keçirilən irimiqyaslı layihələr, saysız-hesabsız xeyriyyəçilik tədbirləri həm ölkə daxilində, həm də ondan kənarda böyük əks-səda yaradır. Fond yarandığı gündən ictimai-siyasi həyatın bütün sahələrinə dərindən nüfuz etdi, çoxşaxəli layihələri ilə dövlət və vətəndaş həmrəyliyinin bariz nümunəsinə, əsl mərhəmət, şəfqət ünvanına çevrildi, ölkəmizdə xeyriyyəçilik hərəkatına böyük təkan verdi. Onun təhsil, səhiyyə, mədəniyyətlə bağlı layihələri isə mənəvi, tarixi, mədəni irsimizin qorunması işində müstəsna xidmətə malikdir. Təhsilin inkişafı sahəsində Mehriban xanımın vətənpərvərlik xidmətləri misilsizdir. Onun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələri ilə yüzlərlə orta məktəb binası tikilmişdir.

Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunub saxlanmasıdır. Ulu Öndərin ölməz ideyaları və onların Prezident İlham Əliyev tərəfindən həyata keçirilməsi ölkəmizin mədəni həyatında baş verən köklü dəyişikliklərin, böyük yüksəlişin əsasını təşkil edib.

Azərbaycan mədəniyyəti hazırda yeni islahatlar dövrünü yaşayır. Bu sırada Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən proqram və layihələr Azərbaycan mədəniyyətinin qorunmasına və dünyada təbliğ olunmasına layiqli töhfələr verir. Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə fond tərəfindən Azərbaycanın zəngin və tolerant tarixi irsinin, tarix və mədəniyyət abidələrinin tədqiqi, qorunması və təbliği üçün ölkədə sistemli fəaliyyət təmin olunub. Bu baxımdan çox haqlı olaraq Heydər Əliyev Fondunun mədəniyyət sahəsində fəaliyyəti ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir və Mehriban xanım həm də Azərbaycan mədəniyyətinin hamisi kimi qəbul olunur.

Mehriban xanım Vətən yolunda qəhrəmanlıq göstərən, Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyi, daha qüdrətli olması yolunda şəhid olan qəhrəmanlarımızın ailələrinə, sağlamlığını itirən zabit və əsgərlərə, Vətən müharibəsi iştirakçılarına yüksək diqqət və qayğını özünün həyat amalı kimi qəbul edib.

Onun genişmiqyaslı fəaliyyəti ölkəmizin ictimai-sosial, mədəni həyatını əhatə etməklə tükənmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, özünəməxsusluğunu, özəlliklərini dünyada böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı xarici ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Azərbaycan ictimaiyyətinin dərin rəğbətini qazanan, köməyə, yardıma ehtiyacı olanların hər zaman yanında olan Heydər Əliyev Fondu Ulu Öndərin amallarını rəhbər tutaraq ölkəmizin həyatı ilə bağlı ən mühüm layihələrə imza atmış və atmaqdadır. Bunların nəticəsidir ki, fond Ümummilli Liderin arzu və istəklərinin, onun ideyalarının həmişəyaşarlığını əks etdirən əsas mərkəzə çevrilib.

İşğaldan azad olunan torpaqlarımızda erməni terrorçuları tərəfindən darmadağın edilmiş mədəni-dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası Mehriban xanımın gündəlik diqqətdə saxladığı proritet vəzifədir. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi və Zəngilan şəhər məscidinin bərpası, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi, Şuşada görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışı, Şuşa şəhərindəki Xalçaçılıq Qalereyası, "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günlərinin keçirilməsi və bu çərçivədə "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir", "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" və "Yaddaş, Fotoqrafik tarix" sərgiləri və qısa zaman çərçivəsində reallaşan digər layihələr birinci xanımın rəhbərliyində Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti yüksək töhfəsidir.

Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyəti ilə ölkəmizin həyatında böyük işlərə imza atıb, dövlətinə şərəflə xidmət edib, xalqının böyük rəğbət və sevgisi ilə ucalıb. Onun humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət məramı dayanır. Bu ali məramın nəticəsi idi ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin fevralında Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olundu. Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi cəmiyyətin sosial sifarişinə əsaslanan tarixi qərar kimi qarşılanmışdır. 2016-cı il 26 sentyabr tarixli ümumxalq referendumunun nəticəsi kimi təsis edilmiş bu vəzifəyə milyonların sevgisini qazanmış bir şəxsiyyətin təyin olunması haqlı olaraq Azərbaycanın dövlət idarəçiliyi sistemində keyfiyyətcə yeni və uğurlu mərhələnin başlanğıcı kimi dəyərləndirilmişdir. Yeni vəzifəsində cəmiyyətə ilk mesajlarını vermiş Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva demişdir: *"Mən əminəm ki, vəzifədən asılı olmayaraq insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində birgə olmalıdır... Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik, infrastruktur layihələri icra edirik. Eyni zamanda biz heç zaman insanların problemlərinə biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir və hesab edirəm ki, bu, bütün dövlət qurumlarında çalışan insanların əsas borcudur və vəzifəsidir"*.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın qlobal bəşəri dəyərlərin, sülh və tolerantlığın təbliğində, fərqli mədəniyyətlər və dinlər arasında dialoq və əməkdaşlıq formatının yaranmasında da rolu böyükdür. Onun təşəbbüsü və dəstəyi ilə elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə həyata keçirilən irimiqyaslı humanitar layihələr, xeyriyyəçilik tədbirləri bir sıra ölkələri də əhatə edir, müxtəlif qitələrdə əks-səda doğurur. Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də Pakistanın digər əyalətlərində silsilə humanitar aksiyaların keçirilməsi bu sıradandır. Fondun onlarca ölkənin maddi-mədəni dəyəri sayılan tarixi abidələrin təmirində yaxından iştirakı da xüsusi əhəmiyyət kəsb edir. Humanizm, həmrəylik və dözümlülük dəyərlərinə sadiqlik nümayiş etdirən Heydər Əliyev Fondu Azərbaycanın dünyada tolerantlığın mərkəzinə çevrilməsində əvəzsiz rol oynayır. Fondun xətti ilə Versal sarayının bir hissəsi və Strasburqda Orta əsrlərə aid kilsə, Luvr muzeyi qalereyalarından biri, Roma katakombaları bərpa edilib, Berlin qəsrində, Kapitoli Muzeyində mühüm yenidənqurma işləri görülüb. Vatikan arxivlərində Azərbaycan Orta əsrlər əlyazmalarının bərpası və onların rəqəmsallaşdırılması tədbirləri uğurla davam etdirilir. Fond Hollandiya, Gürcüstan, Misir, Rumıniya, Rusiya və digər ölkələrdə də məktəblərin tikintisi və bərpasında yaxından iştirak edir. Mehriban xanımın rəhbərliyində fond uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib.

Bu gün tam əminliklə söyləmək olar ki, yüksək dövlət vəzifəsində fəaliyyət göstərən Mehriban xanım Prezidentin də, ona inanan, ümid bəsləyən insanların da etimadını layiqincə doğruldub. Gündəlik fəaliyyətində insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq meyarlarını əsas götürür, fəaliyyətini məhz bu prinsiplər üzərində qurur, milli-mənəvi dəyərləri daim uca tutur.

Mehriban xanımın hər bir vətəndaşımızın yüksəlişinə xidmət edən qlobal layihələri Heydər Əliyev ideyalarına sədaqətin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstəyin real nümunələridir. Bütün sahələrdə fəaliyyətini uğurla davam etdirən Mehriban xanım Ulu Öndər Heydər Əliyevin ölməz ideyalarına söykənərək milli tərəqqi və intibah prosesinə hər gün öz layiqli töhfələrini verməkdədir.

Deyilənlərin və bütün bu keyfiyyətlərin cəmini xarakterizə edən əsas cəhət isə, əlbəttə ki, Mehriban xanım Əliyevanın müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında əzmlə çalışması, sadiqliyi, cənab Prezident İlham Əliyevin ictimai dəstəkçisi və ən yaxın silahdaşı olmasıdır.

Bir sözlə, Azərbaycanın Birinci vitse-prezidenti kimi göstərdiyi uğurlu fəaliyyət, gördüyü işlər, ömür yolu, sözün tam mənasında, Vətənə xidmət nümunəsidir. Mehriban xanımın vaxtilə dediyi: *"Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam"* sözləri bu gün real nəticələrlə öz təsdiqini tapıb.

Birinci vitse-prezident kimi Mehriban xanım Əliyeva qısa müddətdə özünün peşəkarlığı, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxışı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini açmışdır.

Bütün bu illər ərzində gərgin əmək sayəsində görülən işlər, həyata keçirilən çoxsaylı layihələr, əldə edilən uğur və nailiyyətlər, ən əsası da milli dəyərlərə sadiqlik Mehriban xanım Əliyevaya xalqın rəğbət və sevgisini qazandırıb. Mehriban xanım Əliyeva özünün çoxşaxəli fəaliyyətini bu amillər üzərində qurmuşdur. Bütün varlığı və əzmkar fəaliyyəti ilə azərbaycançılıq ideologiyasına, xalqın rifahına, keçmişimizdən bu günümüzə işıq salan mədəniyyətimizin, dövlətçiliyimizin qorunmasına, yaşadılmasına xidmət edən Mehriban xanım Əliyeva bu gün hər bir Azərbaycan vətəndaşının qəlbində özünə əbədi yer tapıb.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent***

# Azərbaycana şərəfli xidmət nümunəsi




# Humanizm, mərhəmət və insanpərvərlik örnəyi

**Müstəqil Azərbaycanın humanist dəyərlərə sadiq dövlət imicinin, beynəlxalq nüfuz və mövqelərinin daha da möhkəmləndirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı layihələr təkcə rəsmi səviyyəli fəaliyyətlə məhdudlaşmır və bu prizmadan Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi vurğulamaq lazım gəlir. Bu il yaranmasının 20-ci ildönümünü qeyd edən fond beynəlxalq miqyasda təkcə Azərbaycanın dünyaya dolğun təqdimatçısı kimi deyil, həm də sivil bəşəri dəyərlərin hamisi, insanpərvərlik və humanizm prinsiplərinin qlobal miqyasda daha möhkəm əsaslarla bərqərar olmasına xidmət edən mühüm təşəbbüslərin müəllifi kimi tanınır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə imzaladığı 10 mart 2004-cü il tarixli fərmanı ilə yaradılan fond Azərbaycan mədəniyyəti, incəsənəti, musiqisi, həmçinin milli həqiqətlərlə bağlı dünya ictimaiyyətinin daha geniş məlumatlandırılması sahəsində fundamental nailiyyətlər qazanıb. Yaranması böyük hədəflərdən, nəcib məqsədlərdən qaynaqlanan, milli dövlətçilik ideyalarını yeni nəsillərə çatdırmaq və aşılamaq kimi müqəddəs amallara, ideyalara xidmət edən fond ötən 20 ildə yardıma ehtiyacı olan insanların ümid ünvanına, məbədgahına çevrilib.

Hələ 2004-cü il 10 may tarixdə Prezident İlham Əliyev fondun fəaliyyətə başlaması ilə əlaqədar fəxri qonaqlar kitabında ürək sözlərini belə ifadə etmişdi: *"Bu gün Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin doğum günüdür. Bu bayram günündə onun adını daşıyan fondun təqdimat mərasimi keçirilmişdir. Heydər Əliyev Fondu xalqımızın Ümummilli Lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi irsini öyrənəcək, təhlil, tədqiq və təbliğ edəcəkdir. Heydər Əliyev Fondu ictimai təşkilatlar və Azərbaycanın ictimai həyatında mühüm rol oynayacaqdır. Heydər Əliyevin ideyaları, fikirləri yaşayır. Heydər Əliyev siyasəti, fəlsəfəsi, ideologiyası yaşayır və bundan sonra da əbədi yaşayacaqdır".*

Heydər Əliyev Fondu 20 illik fəaliyyəti ilə Azərbaycanın sosial, ictimai, mədəni, humanitar həyatında necə müstəsna rol oynadığını, qarşıya qoyduğu məqsədlərin əhəmiyyəti, miqyası və sanbalına görə ölkəmizdə analoqu olmayan əlahiddə qurum olduğunu tam sübuta yetirib. Yerli əhəmiyyətli sosial problemlərin həllinə, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardımçı olmaq bu gün də fondun məqsədləri sırasında öncül yerlərdə dayanır. Azərbaycanın, azərbaycançılığın, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət, ölkəmizin beynəlxalq nüfuzunun artırılması məqsədilə silsilə tədbirlər həyata keçirmək, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq fondun genişmiqyaslı fəaliyyətinin prioritet istiqamətləri kimi xüsusi qeyd olunmalıdır.

Yerli və xarici ölkələrin təhsil müəssisələri ilə sıx əməkdaşlıq, uşaq müəssisələri infrastrukturlarının, səhiyyə və tibbi təsisatların inkişafı, sağlam həyat tərzinin təbliği, Azərbaycanda və xaricdə aktual mövzulara dair konfransların, seminarların təşkili fondun fəaliyyətinin beynəlxalq təşkilatlar tərəfindən də layiqincə qiymətləndirilməsinə imkanlar açıb. Ulu Öndərin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşdırılması naminə müəyyən etdiyi ideyalarla silahlanan, onların reallaşmasına əməldə dəstək verən, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayaraq həyata keçirən Heydər Əliyev Fondu xarici fondlarla, müxtəlif QHT-lərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığı ildən-ilə genişləndirir. Yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olanlara kömək etmək, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək fondun məqsədləri sırasında öncül yerləri tutur.

Qeyd edilənlər Heydər Əliyev Fondunun humanitar sahədəki fəaliyyətinin miqyasının nə qədər geniş olduğunu, bu fəaliyyətin təkcə Azərbaycan sərhədləri çərçivəsində məhdudlaşmadığını göstərir. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın insanlığın yüksəlişinə xidmət edən humanist təşəbbüsləri, fərqli mədəniyyətlərin dialoquna töhfələr verən nəcib layihələri Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldib. Fondun rəhbərinin əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə yaradıcı münasibəti Ulu Öndərin adını daşıyan təşkilatın uğurlarını şərtləndirən ən mühüm amillərdən biridir. Hər bir insanda fərəh və qürur hissləri doğuran bu çoxşaxəli fəaliyyətin qayəsində bir əsas məqsəd dayanır: insanlığa yaxşılıq!

Fond ictimai həyatın ən müxtəlif sahələri üzrə fundamental layihələr həyata keçirir, hər bir vətəndaşın zəruri istək və arzularının gerçəkləşməsinə, problemlərinin həllinə maddi-mənəvi dəstək verir. Qarşıya qoyduğu bu və digər məqsədlər ilə cəmiyyətin mənəvi yüksəlişinə, sağlamlaşmasına çalışan fondun prezidenti nəinki respublika hüdudlarında, beynəlxalq miqyasda da böyük nüfuz qazanıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə "Qızıl ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatlarına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun "Yaqut Xaç" ordeninə, 2009-cu ildə "XXI əsrin böyük qadını" laureatına, 2010-cu ildə Fransanın "Fəxri Legion" ordeninə, UNESCO-nun "Qızıl Motsart" medalına, 2011-ci ildə Krans Montana Forumunun qızıl medalına və digər mühüm təltiflərə layiq görülməsi onun beynəlxalq nüfuzunun real təcəssümüdür.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 iyun tarixli sərəncamı ilə Mehriban xanım Əliyeva I Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsindəki müstəsna roluna, ölkəmizin müsbət imicinin dünyada tanınması istiqamətində gördüyü işlərə görə "Heydər Əliyev" ordeni ilə təltif edilib.

Obyektiv sosial-ictimai zərurət kimi 2017-ci il 21 fevral tarixində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olunan Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın fəal təşəbbüsləri ötən müddətdə ölkəmizin beynəlxalq miqyaslı tədbirlərin təşkilatçısına çevrilməsinə xidmət edib. Çıxışlarında bəşəriyyəti sülhə, sabitliyə, qarşılıqlı faydalı əməkdaşlığa, qlobal problemlərin birgə həllinə səsləyən çağırışların yer alması ölkənin birinci xanımının timsalında Azərbaycan qadını haqqında da dolğun təsəvvür formalaşdırıb. Qadınlarımıza xas nəcibliyi, zəngin daxili mədəniyyəti, ziyalılığı, humanizmi, kübarlığı tərənnüm etdirib.

Əminliklə deyə bilərik ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə Mehriban xanım Əliyeva kimi təcrübəli idarəçinin təyinatı ölkədəki sistem islahatlarının tələbindən irəli gələn, cəmiyyətin mənafeyini özündə ehtiva edən tarixi qərar idi. Heydər Əliyev Fondunun prezidenti kimi vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış, yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva son 7 ildə reallaşdırdığı məsuliyyətli missiya ilə də dövlət başçısının və xalqımızın etimadını doğruldub. Bu təyinat dövlət idarəetmə sisteminin modernləşdirilməsi və islahatların sürətləndirilməsi baxımından mühüm nəticələr verib. Heydər Əliyev Fonduna yüksək səviyyədə rəhbərlik edən Mehriban xanım Əliyeva cəmiyyətdəki böyük nüfuzu ilə idarəçiliyə yeni nəfəs, müasirləşmə və gəncləşmə ruhu gətirib. Birinci vitse-prezident statusundakı fəaliyyəti Azərbaycanda dövlət idarəçilik sisteminin daha da təkmilləşdirilməsini, yeni qlobal çağırışlara uyğunlaşdırılmasını, innovativ yeniliklərə əsaslanmasını təmin edib, çoxşaxəli islahatların səmərəliliyini yüksəldib.

Cəmiyyətin müxtəlif sahələrində nəzərəçarpacaq nailiyyətləri, təmiz imici olan, yüksək bilik və bacarıqlara, idarəetmə və menecer təfəkkürünə malik gənc kadrlara dəstək olması, onların islahatlar prosesində fəal iştiraka cəlb edilməsi Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsində səmərəli fəaliyyətini səciyyələndirən mühüm məqamlardandır. Müsahibələrinin birində Birinci vitse-prezident idarəetməyə islahatçı baxışını özünəməxsus şəkildə ifadə edərək rəhbər şəxsə xas vacib keyfiyyətləri belə səciyyələndirib: *"Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər həqiqətən baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görür, hər şeyi anlayırlar".*

Cəmiyyətin aztəminatlı təbəqələri ilə apardığı fəal iş, onların problemlərinin həlli istiqamətində atdığı ardıcıl addımlar Birinci vitse-prezidentin fəaliyyətinin humanist və insanpərvər mahiyyətini təsdiqləyib. Bu statusda dövlətin sosial və humanitar siyasətinin uğurla həyata keçirilməsi prosesində yaxından iştirak etməklə yanaşı, situasiyaların idarə olunması prosesinə də mühüm töhfələr verib. Ali dövlət vəzifəsi Mehriban xanım Əliyevanın ölkənin hər bir vətəndaşına daha layiqli xidmət göstərmək, xalqın maraq və mənafeyini beynəlxalq arenada lazımınca təmsil etmək imkanlarını genişləndirib. Müasir yanaşma tərzi, yeniliklərə açıq olması, ölkə qarşısındakı strateji hədəfləri aydın təsəvvür etməsi ümumən hökumətin fəaliyyətinin səmərəliliyini yüksəldib.

Birinci vitse-prezidentin yaxından iştirakı ilə idarəetmənin müasir və operativ əsaslarla aparılması, vətəndaş amilini önə çəkən idarəetmənin təmini qarşıya qoyulan vəzifələrin çevik icrasını təmin edib. Bu təyinatın özünü doğrultması və rəğbətlə qarşılanması həm də onunla şərtlənir ki, Mehriban xanım Əliyeva fəaliyyətində insan amilini hər zaman önə çəkib, cəmiyyətin mövcud potensialının bu yöndə səfərbər olunmasına çalışıb.

2018-ci ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələnin başlanmasında, xüsusən də 2019-cu ilin əvvəlindən etibarən əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsində, koronavirus pandemiyası ilə səmərəli mübarizədə Prezident İlham Əliyev ilə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətləri də xüsusi qeyd olunmalıdır.

Ali dövlət vəzifəsində ilk müşavirəni Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi məsələsinə həsr etməsi bir daha göstərdi ki, cəmiyyətin xüsusi qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli Azərbaycanın Birinci vitse-prezidenti üçün prioritet məsələdir. 2017-ci il martın 1-də Sabunçu və Xəzər rayonlarında fiziki imkanları məhdud uşaqlar üçün nəzərdə tutulmuş internat məktəblərində yaradılmış şəraitlə tanış olması bu gerçəkliyi bir daha təsdiqlədi.

Bütün bunlar, əslində, 2004-cü ildən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən sosial layihələrin uğurlu davamı kimi dəyərləndirilməlidir. Fond humanitar və sosialyönümlü fəaliyyətində hər zaman cəmiyyətin mənəvi, mədəni-intellektual yüksəlişini təmin etmək, habelə Azərbaycanın zəngin mədəni irsini - tarixi abidələrini, musiqisini, incəsənətini və ölkə həqiqətlərini dolğunluğu ilə dünya ictimaiyyətinə çatdırmaq məramını qarşıya qoyub. Aztəminatlı insanların, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin, müharibə veteranlarının problemlərinin həllində dövlət basçısı ilə yanaşı, Birinci vitse-prezidentin fəaliyyəti də müstəsnalıq təşkil edir.

Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyəti ilə ötən dövrdə ölkəmizdə sosial siyasətin və xeyriyyəçilik institutunun uğurla reallaşdırılmasına töhfələrini verib. Müasir dövrdə iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir dövlətdə sosial müdafiəyə, köməyə, xeyirxahlığa ehtiyacı olan köməksiz təbəqəyə rast gəlinir. Bazar iqtisadiyyatının sərt reallıqları ilə uzlaşmamasına rəğmən, əksər dövlətlər həssas sosial təbəqələrin ehtiyaclarına, problemlərinə diqqətlə yanaşır, onları himayəsinə götürür. Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyəti isə xüsusilə diqqəti çəkir - respublikamızın dövlət büdcəsində sosialyönümlü xərclər, eləcə də insan inkişafına xidmət edən, iqtisadi səmərə güdməyən dövlət əsaslı kapital qoyuluşları xüsusi çəkiyə malikdir.

Prezident İlham Əliyev ölkədə yoxsulluğun aradan qaldırılmasını, insanları qayğılandıran sosial problemlərin həllini hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirib. Bununla belə mövcud problemlərin həllini bütünlüklə hökumətin üzərinə qoymaq, orta təbəqəni, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını məsuliyyətdən tamamilə kənarlaşdırmaq da düzgün yanaşma olmayıb, sosializmdən qalma düşüncə tərzidir. Bu mənada Heydər Əliyev Fondunun ötən 20 ildəki nəcib, xeyirxah fəaliyyəti digər qurumlar üçün də nümunə, örnək olub.

Fondun rəhbəri Mehriban xanım Əliyeva Birinci vitse-prezident vəzifəsində də milyonlarla insanın ümid, güvənc yerinə çevrilib, ali dövlət səlahiyyətlisi simasında vətəndaşlara həssas münasibətin mükəmməl nümunəsini yaradıb. Cəmiyyət həyatı ilə bağlı məsələlərə adekvat reaksiyası, vətəndaş müraciətlərinə operativ və həssas yanaşması onun yüksək humanizminin, insanpərvərliyinin, vətəndaşlıq məsuliyyətinin bariz təcəssümüdür. Qlobal humanitar layihələrin müəllifi kimi çıxış edən Azərbaycanın birinci xanımının istər respublikamızda, istərsə də ölkə xaricindəki yüksək nüfuzu onun nəcib mənəvi və işgüzar keyfiyyətləri ilə şərtlənib.

İdarəçilikdə yeni yanaşmaların vacibliyini önə çəkən Mehriban xanım Əliyevanın bu fikirləri xüsusilə təqdirəlayiqdir: *"Biz azacıq imkan olan yerdə kömək etməyə çalışırıq. Bilirsiniz həm də ən vacibi nədir? Ən vacibi əlaqədir...Əgər insan məktub yazırsa, elə ertəsi günü, yaxud hansısa qısa müddətdən sonra onunla əlaqə saxlamağa və öyrənməyə çalışırıq. Çünki biz öyrənməliyik. Bəzən elə olur ki, məktubda yazılanlar həqiqətə uyğun gəlmir. Əgər həqiqətən köməyin lazım olduğunu görürüksə, çalışırıq kömək edək. Hesab edirəm ki, Heydər Əliyev Fondu məhz bunun sayəsində insanların sevgi və hörmətini qazanıb".*

Fondun milli-mənəvi dəyərlərin, azərbaycançılıq məfkurəsinin, zəngin mədəni irsin dünyada tanıdılması istiqamətindəki fəaliyyəti xüsusilə diqqət çəkir. Ötən illərdə fondun prezidentinin şəxsi səyləri ilə xalqımızın milli sərvəti sayılan muğam, aşıq musiqisi, xalçaçılıq sənəti, Novruz bayramı, Çovqan atüstü oyunu, kəlağayı, Lahıc misgərlik sənəti, "Yallı" rəqsi, miniatür sənəti və s. UNESCO-nun qeyri-maddi irsi siyahısına daxil olunub.

2009-cu ilin mart ayında Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Bakıda ilk dəfə təşkil olunan və sonra xoş ənənəyə çevrilən beynəlxalq muğam festivalları Azərbaycan mədəniyyətinin, musiqisinin dünyada tanıdılması və təbliği istiqamətində mühüm tədbirlərdən biri kimi yadda qalıb. Daha bir vacib məqam 2009-cu ildə Beynəlxalq Muğam Mərkəzinin açılışı, "Qarabağ xanəndələri" musiqi albomunun nəfis şəkildə buraxılması, onun "Gülüstan" sarayında təqdimat mərasiminin keçirilməsi olub. Azərbaycanda bu sahədə görülmüş işlər muğama marağı xeyli artırıb, onun sirlərinə yiyələnmək istəyənlərin sayı əhəmiyyətli dərəcədə çoxalıb.

Abşeronda aşkar edilən arxeoloji tapıntıların qorunması məqsədilə fondun 2008-ci ildə Qala qəsəbəsində ilk Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaratması da mühüm layihələrdən olub. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə həyata keçirilən layihə ölkəmizin tarixi keçmişinin qorunub saxlanılması ilə yanaşı, turizm mərkəzlərindən birinə çevrilməsi məqsədinə xidmət edib.

Mədəniyyət sahəsində həyata keçirilmiş mühüm layihələrdən biri də Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin inşası olub. 2008-ci ilin mayında Bakıda Azərbaycan Prezidenti İlham Əliyevin və UNESCO-nun sabiq Baş direktoru Koişiro Matsuuranın iştirakı ilə təməlqoyma mərasimi keçirilmiş Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub. 2009-cu ilin martında fondun təşəbbüsü ilə Bakıda Müasir İncəsənət Muzeyinin açılması isə mədəni sahədəki qlobal layihələr sırasında xüsusi vurğulanmalıdır. Muzeydə Azərbaycanın gənc, avanqard üslubda işləyən rəssam və heykəltaraşlarının 800-dən çox işi toplanıb.

Heydər Əliyev Fondunun xalçaçılıq sənətinin tarixi şöhrətinin, zəngin ənənələrinin inkişaf etdirilməsi sahəsindəki fəaliyyəti də təqdirəlayiqdir. Fondun dünya xalçaçılıq sənətinə misilsiz töhfələr verən, milli xalçaçılığın zəngin ənənələrini yaşadan, istehsal etdiyi malları dünyaya çıxarmaqla bu qədim el sənətinin fəal təbliğatçısına çevrilən "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyətinə qayğısı bu nadir sənət incisinə xüsusi diqqətdən irəli gəlir.

Azərbaycanın sivilizasiyalar və mədəniyyətlərarası dialoqla bağlı nümunəvi dövlət qismində çıxış etməsində, Qərblə Şərq, Qərblə islam dünyası arasında önəmli, etibarlı körpü rolu oynamasında, bununla bağlı dünyada yaranan müsbət düşüncənin formalaşmasında Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Heydər Əliyev Fondunun da böyük xidmətləri var. Fond son illərdə elmin, təhsilin, mədəniyyətin, incəsənətin, musiqinin inkişafı, sosial problemlərin həlli naminə gördüyü fəal işlərlə yanaşı, gender problemlərinə, qadınlara qarşı zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirib. 2008-ci il yanvarın 16-da Heydər Əliyev Fondu, BMT-nin Əhali Fondu və Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə birgə layihəyə dair sənədlərin imzalanması deyilənlərin təsdiqidir.

Ötən illərdə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakıda təşkil olunan yüksəksəviyyəli beynəlxalq tədbirlərdə dünyada sülh və sabitliyin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun genişləndirilməsi, qadın hüquqlarının qorunması, savadsızlığın, dini, irqi və s. ayrı-seçkiliyin aradan qaldırılması kimi nəcib ideyalar üstünlük təşkil edib. Xatırlatmaq yerinə düşər ki, Mehriban xanım Əliyevanın 2012-ci ildə "Avroviziya" Beynəlxalq Musiqi Yarışmasının, 2015-ci ildə I Avropa Oyunlarının, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının, 2016-cı ildən etibarən "Formula-1" yarışlarının təşkili istiqamətində nümayiş etdirdiyi yüksək təşkilatçılıq, qonaqpərvərlik nəticəsində Azərbaycan Avropanın təkcə iqtisadi deyil, mənəvi-intellektual, mədəni baxımdan zəngin, multikultural ölkəsi olduğunu sübuta yetirib. Bu tədbirlərin hər birinin yüksək səviyyədə keçirilməsi dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı ilə yanaşı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı, kreativ idarəetmə üslubu, ən başlıcası, Azərbaycanı dünyaya sivil, müasir, inkişaf edən dövlət kimi təqdim etmək məramının nəticəsi idi. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu il noyabr ayında ölkəmizdə keçiriləcək daha bir dünya miqyaslı tədbirin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yüksək səviyyədə təşkili prosesinə sanballı töhfələrini verir.

Ötən 20 ildə reallaşdırılan sosial layihələr çərçivəsində təhsil və səhiyyə sahələrində mövcud problemlərin həlli də xüsusi diqqət mərkəzində olub. Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahənin qloballaşan dünyanın tələbləri səviyyəsində qurulmasıdır. Təhsil sahəsində fondun ən böyük və irimiqyaslı işi - "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə istiqamətlənib. Bu layihə paytaxtla yanaşı, regionlarda da uğurla icra olunub, 500-dən çox yeni məktəb tikilərək istifadəyə verilib.

Fondun təhsillə bağlı həyata keçirdiyi proqramlar sırasında "Təhsilə dəstək" layihəsi birbaşa tədrisin keyfiyyətinə təsir göstərən problemlərin həllinə, məktəblərin əyani vəsaitlə, şagirdlərin dərs ləvazimatı ilə təmin olunmasına yönəlib. Fond hər yeni tədris ilində silsilə aksiyalar keçirməklə, bu sahədə bir sıra problemlərin aradan qaldırılmasına əhəmiyyətli töhfələr verir.

Uşaqlara qayğı və diqqət, gələcək nəslin fiziki-mənəvi cəhətdən sağlam ruhda böyüməsi Heydər Əliyev Fondunun fəaliyyətində prioritet istiqamətlərdən biridir. Uşaqların xoşbəxt gələcəyi üçün əlindən gələni əsirgəməyən fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində müxtəlif orta məktəblərin təhsildə fərqlənən şagirdləri, uşaq evləri və internat məktəblərində tərbiyə alan, valideyn himayəsindən məhrum uşaqlar üçün şənliklər təşkil edilir.

Azərbaycanın birinci xanımı üzərinə götürdüyü xoşməramlı missiya ilə həm də insan hüquqlarının qorunmasına, vətəndaş cəmiyyəti ideyalarının daha da möhkəmlənməsinə, habelə cəza siyasətinin humanistləşdirilməsi prosesinə öz töhfələrini verir. Cəmiyyətdə insanpərvərlik və humanizm ideyalarının möhkəmlənməsinə çalışan Mehriban xanım Əliyevanın 2007-2016-cı illərdə təşəbbüskarı olduğu amnistiya aktları Ümummilli Liderin humanist siyasətinə sədaqətin əyani nümayişi olub. Geniş ictimai dəstək almış bu amnistiya aktları böyük mənəvi-əxlaqi, humanist məzmunu ilə insanlarda xoş təəssüratlar doğurub.

Heydər Əliyev Fondunun beynəlxalq münasibətlərinin genişlənməsi istiqamətində onun bir sıra xarici dövlətlərdə yaradılmış nümayəndəliklərinin də mühüm xidmətləri vardır. Xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında, daha da inkişaf etdirilməsində, təhsil səviyyəsinin yüksəldilməsində, sağlam nəslin böyüməsində və bu qəbildən olan digər missiyaların yerinə yetirilməsində özünəməxsus rol oynayan fondun Azərbaycanın beynəlxalq miqyasda təbliğində onun xarici ölkələrdəki nümayəndəlikləri əvəzsiz rol oynamaqdadır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dərin məzmunlu nitqlərində hər zaman deyirdi ki, mənəviyyat olmayan yerdə haqdan, ədalətdən, düzgünlükdən söhbət gedə bilməz. İstənilən cəmiyyətdə ədalət, insanpərvərlik, dürüstlük kimi mənəvi dəyərlərin özünə möhkəm dayaqlar tapması məhz nəcib, alicənab, kamil insanların əzmkar fəaliyyəti sayəsində mümkün olur. Bu reallıqlar fonunda əminliklə söyləmək olar ki, Azərbaycanın Birinci vitse-prezidenti təmənnasızlığa söykənən fəaliyyəti ilə xalqımızın böyük sevgisini qazanıb. O, çoxşaxəli layihələrində Heydər Əliyev ideyalarını rəhbər tutmaqla yanaşı, həm də insanlığın, bəşəriyyətin nicatına xidmət edən nəcib missiyanı əzmlə həyata keçirir. Bu məsuliyyətli missiya Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, onun layiqli siyasi davamçısı Prezident İlham Əliyevin uğurla davam etdirdiyi strateji kursun həyata keçirilməsinə, bu siyasətin hər bir vətəndaşın həyatında hiss olunmasına dəstək verməyə yönəlib.

*Bütün bunlar Heydər Əliyev Fondunun prezidentinin indiyə qədərki fəaliyyətində dövlətin sosial-humanitar, təhsil və mədəniyyət siyasətinin uğurla həyata keçirilməsi prosesində yaxından iştirak etdiyini bir daha təsdiqləyir. Son 20 ildəki humanist və insanpərvər fəaliyyəti ilə cəmiyyətin ümid və pənah yerinə çevrilmiş Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti statusunda da dövlətimizin başçısının və xalqımızın etimadını layiqincə doğruldur.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri,***
***iqtisad elmləri doktoru***

# Baş prokuror paytaxtın Səbail rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Avqustun 23-də baş prokuror Kamran Əliyev Səbail Rayon Prokurorluğunun inzibati binasında Bakı şəhərinin Səbail rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 49 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Qazaxıstanda səfərdədir

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Qazaxıstana səfəri davam edir.



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Əvvəlcə general-polkovnik K.Vəliyev və Qazaxıstan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-leytenant Sultan Kamaletdinov Almatı şəhərindəki 28 Qvardiyaçı Panfilovçu adına parkı ziyarət edib, abidə önünə əklil qoyublar.

Sonra Azərbaycan nümayəndə heyəti Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Hərb Tarixi Muzeyinə gəlib. Nümayəndə heyətinə muzeyin tarixi və fəaliyyəti ilə bağlı ətraflı məlumat verilib. General-polkovnik K.Vəliyev "Fəxri qonaqlar kitabı"nı imzalayıb.

Sonra Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin Sülhməramlı Əməliyyatlar Mərkəzi ziyarət edilib. Azərbaycan nümayəndə heyəti mərkəzdə yaradılan infrastruktur və təhsil prosesi ilə tanış olub. Mərkəzin yaranma tarixi, təyinatı və fəaliyyəti barədə brifinq təqdim edildikdən sonra Baş Qərargah rəisləri arasında görüş keçirilib.

Görüşdə iki ölkə arasında hərbi, hərbi-texniki və hərbi-təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, habelə hərbi əməkdaşlığın genişləndirilməsi məsələləri ətraflı müzakirə olunub. Tərəflər qarşılıqlı təcrübə mübadiləsinin daha intensiv şəkildə aparılması və əlaqələrin inkişaf etdirilməsinin vacibliyini qeyd ediblər.

# Azərbaycan və Qazaxıstan hərbçiləri birgə taktiki-xüsusi təlim keçirirlər

**Azərbaycan və Qazaxıstan respublikalarının Müdafiə nazirlikləri arasında imzalanmış birgə plana əsasən, Qazaxıstan Respublikasının Almatı vilayətinin Jarkent şəhərindəki "Koktal" təlim poliqonunda keçirilən "Altın Kıran - 2024" ("Qızıl Qartal - 2024") birgə taktiki-xüsusi təlimi davam edir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ssenariyə əsasən, döyüş tapşırığı alan bölmə komandirləri qəbul olunmuş qərarı təlim rəhbərliyinin qərargahına məruzə etdikdən sonra kəşfiyyat tapşırıqlarını icra ediblər. Təlimdə 25 kilometr məsafədə seçilmiş travers üzrə hərəkət edən bölmələr dağlıq ərazidə gizlənən qeyri-qanuni silahlı birləşmələrin sığınacaqlarını müəyyənləşdirərək basqın edib. Qanunsuz silahlıların avtomobil texnikası kolonlarının pusquya salınması və canlı qüvvəsinin məhv edilməsinə, eləcə də qarşıya çıxan digər qəfil tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə nail olunub.

"Altın Kıran - 2024" təlimində əsas diqqət Azərbaycan-Qazaxıstan hərbi qulluqçularının qarşılıqlı əlaqədə birgə fəaliyyətinin təşkilinə, kəşfiyyat bölmələrinin praktiki vərdişlərinin təkmilləşdirilməsinə, dağlıq və səhra ərazilərində maskalanma bacarıqlarının artırılmasına, həmçinin qarşılıqlı təcrübə mübadiləsinin aparılmasına yönəldilib.

# Finlandiya nümayəndə heyəti Şuşaya və Laçına səfər edib






**Finlandiya-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə ölkəmizə gələn Finlandiyanın ictimai-siyasi xadimlərindən ibarət nümayəndə heyəti Şuşada və Laçında olub.**

AZƏRTAC xəbər verir ki, səfərdə Finlandiya parlamentinin üzvü Mikko Polvinen, Aleksanteri İnstitutunda Finlandiya, Rusiya və Şərqi Avropa Araşdırmaları Mərkəzinin direktoru Markku Kansqapuro, xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ixtisaslaşmış jurnalist, "Hymy" jurnalının redaktor müavini, Deputatlar Qrupunun keçmiş sədri (2021), Vantaa-Kereva şəhər dairəsi sovetinin sabiq üzvü (2022), Vanta-Kereva regional hökumətinin sabiq üzvü Antero Eerola, Finlandiyanın sabiq müdafiə naziri, "J-E Enestam AB" konsaltinq şirkətinin idarə heyətinin sədri Jan Erik Enestam, Qərbi Avropa İttifaqının Parlament Assambleyasında Finlandiya nümayəndə heyəti rəhbərinin sabiq müavini Jaako Laakso və Finlandiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Təranə Nəzərova iştirak ediblər.

Səfər çərçivəsində nümayəndə heyəti əvvəlcə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyində olub. Burada Şuşa şəhərinin tarixi, güllələnmiş heykəllər, Cıdır düzü, Şuşada Azərbaycan tarixi abidələrinə qarşı erməni vandalizmi haqqında qonaqlara ətraflı məlumat verilib, görülən işlər diqqətə çatdırılıb.

Daha sonra qonaqlar Cıdır düzünü və Şuşa qalasını ziyarət ediblər. Onlar Şuşada aparılan sürətli bərpa və yenidənqurma işləri ilə tanış olub və görülən işləri yüksək qiymətləndiriblər. İşğal dövründə ermənilər tərəfindən Şuşada mədəniyyət abidələrinə, məscidlərə qarşı törədilmiş vandalizm aktlarını pisləyiblər.

Finlandiya nümayəndə heyəti daha sonra Laçına yola düşüb. Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəliyində olan qonaqlara Laçına yeni köçənlər üçün yaradılan şərait, iş yerləri və onların sosial təminatı, rayonda aparılan yenidənqurma, təmir-bərpa işləri, gələcək plan və layihələr, həmçinin Sus və Zabux kəndləri haqqında ətraflı məlumat verilib.

Nümayəndə heyəti Laçında ilk bərpa olunan 22 evdən birini ziyarət edib, burada yaşayan ailələrlə görüşüb, onlardan müsahibə alıblar. Ev sahibləri müsahibələrində 30 il sonra öz doğma yurdlarına qayıtmağın sevincini ifadə edib, burada sakinlərin rahat yaşaması üçün hər bir şəraitin yüksək səviyyədə qurulduğunu vurğulayıblar. Bu sevinci onlara yaşatdıqları üçün Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan Ordusuna təşəkkürlərini bildiriblər. Qonaqlar oradan xoş təəssüratlarla ayrılıblar.

Qonaqlar həmçinin Laçında "Həkəri Balıq Təsərrüfatı"nı ziyarət edib, rayonun Zabux və Sus kəndlərində olublar. Burada qonaqları mehriban və gülərüz qarşılayan yerli sakinlər onları evlərinə dəvət edib, dövlətin yaratdığı gözəl şəraitlə yaxından tanış ediblər.

Azərbaycan təbiətinin gözəlliyi və yerli sakinlərin qonaqpərvərliyi nümayəndə heyətində xoş təəssüratlar yaradıb.

## — 1 sentyabr Milli Məclisə seçkilər günüdür —

# "Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyasının həmtəsisçiləri bələdiyyə üzvü və qulluqçuları olan namizədlərlə görüşüblər

**"Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyası seçki marafonunda iştirak edən siyasi partiya və bitərəf, QHT sektoru və bələdiyyələrdə fəaliyyət göstərən namizədlər, həmçinin monitorinq və müşahidə fəaliyyətini həyata keçirən yerli və beynəlxalq təşkilatların təmsilçiləri ilə görüşlər keçirir.**



AZƏRTAC xəbər verir ki, avqustun 23-də "Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyasının həmtəsisçiləri Vüqar Tofiqli, Zaur İbrahimli və Ramil İskəndərli bələdiyyə üzvü və qulluqçuları olan namizədlərlə görüşüblər.

Görüşdə Səbail, M.Ə.Rəsulzadə, Yasamal, Binəqədi, Nəsimi, Ramana və digər bələdiyyələrdən olan 20-dək üzv və qulluqçu iştirak edib.

Görüş zamanı seçkiqabağı təşviqat proseslərində namizədlərin fəaliyyəti, əhali qrupları ilə görüşlər və maraq kəsb edən bir sıra digər məsələlər müzakirə edilib, fikir mübadiləsi aparılıb.

Ümumilikdə seçki marafonunda iştirak edən namizədlərdən 30 nəfəri bələdiyyə üzvü və qulluqçularıdır. Namizədlərdən 10 nəfəri bələdiyyə üzvü, 20 nəfəri isə bələdiyyə qulluqçusudur. İki nəfəri isə bələdiyyə sədridir (M.Ə.Rəsulzadə və Ağdaş). Otuz namizəddən 13-ü qadın, 17 nəfəri isə kişidir.

# Seçkilərə hazırlıq yüksək səviyyədədir

**15 saylı Yasamal 1-ci seçki dairəsinin 20 saylı məntəqəsi 158 saylı tam orta məktəbin binasında təşkil edilib.**

Məntəqənin sədri Günel Alməmmədova bizimlə söhbətində bildirdi ki, artıq seçicilərin sayı dəqiqləşdirilib: "Siyahı hazırlanandan sonra məntəqə üzvləri Almara Məmmədova, Aytən Vahidova və Aynur İskəndərova məntəqənin əhatə etdiyi 6 küçədə sakinlərlə görüşmüş və onları seçkidə fəal iştirak etməyə çağırmışlar.

Məntəqə üzrə ilk dəfə səs verəcək gənclərin sayının 7 nəfər olduğunu deyən Günel Alməmmədova dedi ki, gənclər tez-tez məntəqəyə gəlir, onlara yardım etmək istədiklərini söyləyirlər. 18 yaşı tamam olan Minurə Əliyeva və Fidan Mahmudova ilk dəfə səsvermədə iştirak edəcəklər. Onlar bu seçkinin ölkəmiz üçün əhəmiyyətini başa düşürlər. Ona görə də seçkidə iştirak etməkdə qərarlıdırlar.

Sədr məntəqədə səs verəcək yaşlı nəslin nümayəndələrinin də az olmadığını qeyd etdi. Onun sözlərinə görə, qeydiyyata alınan belə seçicilərin sayı 100-dən çoxdur. Amma onu da dedi ki, seçicilərin əksər hissəsinin yaşı 30-65 civarındadır.

10 namizədin mübarizə aparacağı dairənin 20 saylı məntəqəsinin katibi Arif Vəliyev isə vurğuladı ki, seçkinin demokratik normalara uyğun keçirilməsi üçün bütün texniki işlər görülüb. Daşınmaz və daşınan qutular gətirilib, müşahidəçilər üçün yer ayrılıb, məntəqə internet xətti ilə təmin olunub, səsvermə kabinələri normativlərə uyğun quraşdırılıb və s.




Müşahidəçilərin sayı seçki günü ərəfəsində dəqiqləşəcək. Səsvermə günü məntəqəyə gələ bilməyən seçici olacaqsa, onun ünvanına daşınan qutu aparılacaq. Bunun üçün məntəqəyə avtomobil də ayrılıb.

*A.ƏLİYEV,*
*"Azərbaycan"*

# Laçında 6 seçki məntəqəsi yaradılıb

**Sentyabrın 1-nə təyin olunan Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər 121 saylı Laçın seçki dairəsi üzrə 110 məntəqədə keçiriləcək. Laçın rayonundan olan seçicilər respublikanın müxtəlif şəhər və rayonlarında səs verəcəklər. Məntəqələrin altısı işğaldan azad edilmiş ərazilərdə yerləşir.**

Bu barədə AZƏRTAC-a 121 saylı Laçın seçki dairəsi dairə seçki komissiyasının sədri Hüseyn Səfərov bildirib. Komissiya sədrinin sözlərinə görə, dairə üzrə 57 min 649 seçici qeydə alınıb ki, onlardan 766 nəfəri ilk dəfə olaraq seçki hüququndan istifadə edəcək gənclərdir. Seçicilərin 1367 nəfəri 80-100 yaş arasında, 1 seçicinin yaşı isə 100-dən yuxarıdır. 1920-ci il təvəllüdlü Milayim Mustafayeva dairə üzrə qeydə alınan ən yaşlı seçicidir.

H.Səfərov qeyd edib ki, dairə və məntəqə seçki komissiyalarında sentyabrın 1-də keçiriləcək parlament seçkilərinə hazırlıq işləri başa çatıb və bütün seçki məntəqələri səsverməyə hazır vəziyyətə gətirilib. Seçkilərin demokratik, şəffaf və ədalətli keçirilməsi üçün bütün məntəqələrdə lazımi şərait yaradılıb. Məntəqələr zəruri texniki vasitə və metodiki vəsaitlərlə, elektrik enerjisi, rabitə şəbəkəsi və yanğın təhlükəsizliyi ilə təmin olunub. Seçicilərin öz mövqelərini sərbəst şəkildə bildirmələri üçün kabinələr qoyulub. Seçki məntəqələrində katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçicilərə səsvermənin keçirilmə tarixi, vaxtı və yeri barədə bildirişlərin paylanılması da yekunlaşmaq üzrədir.

Dairə üzrə 8 nəfər deputatlığa namizəd qeydə alınıb. Seçkilərin gedişini izləmək üçün 1370 nəfər müşahidəçi qeydiyyatdan keçib.



# Moldova portalında Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı məqalə dərc olunub

**Moldovanın "Noi.md" xəbər portalında "Qarabağ problemi həll olundu - Azərbaycan parlament seçir" sərlövhəli məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, yazıda Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində Azərbaycan ərazilərinin Ermənistanın 30 illik işğalından azad edilməsi vurğulanıb. Qeyd olunub ki, Azərbaycan xalqı öz prezidenti ətrafında sıx birləşərək ölkənin ərazi bütövlüyünü təmin edib. Sonra isə bütün Azərbaycanda ilk dəfə növbədənkənar prezident seçkiləri keçirilib. Həmin seçkilərdə Prezident İlham Əliyev inamlı qələbə qazanıb.


Проблема Карабаха решена - Азербайджан выбирает парламент

**В первый день осени в Азербайджане пройдут первые в новейшей истории парламентские выборы на всей его территории, включая освобожденные районы.**

Məqalədə Qarabağ münaqişəsinin uğurla başa çatdığı qeyd edilib, Azərbaycanın həyatında iqtisadiyyatın gücləndirilməsi, ölkənin dünya miqyasında tanıdılması siyasətini nəzərdə tutan tamamilə yeni mərhələnin başlanmasından və digər prinsipial məqsədlərdən danışılıb.

Müəllif qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə infrastrukturun bərpası və yerli əhalinin öz doğma yurdlarına qayıtması sayəsində həmin yerlərdə sentyabrın 1-də ilk dəfə olaraq seçki məntəqələri açılacaq və burada insanlar Azərbaycanın yeni parlamentinin üzvlərinə səs verəcəklər. Yenidən qurulmuş Qarabağın mənafeyini və daha da çiçəklənməsini nəzərə alaraq yeni qanunlar və qaydalar qəbul ediləcək.

Məqalədə həmçinin qeyd olunur ki, bu ilin payızında Bakıda keçiriləcək və qlobal əhəmiyyət kəsb edəcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasına əlavə olaraq, Azərbaycan otuz ildən sonra yeni milli layihəyə keçməyə hazırlaşır.

# Cəlilabad seçkilərə hazırlığın son mərhələsindədir

**Cəlilabadın hər yerində abadlıq işləri görülür, səliqə-sahman yaradılır. Əkinçilər, bağbanlar yetişdirdikləri məhsulların yığımı, tədarükü ilə məşğuldurlar.**

Bunlarla bərabər, rayonda ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olan Milli Məclisə növbədənkənar seçkilərə ciddi hazırlıq işləri görülür. Məlumat üçün bildirək ki, rayon ərazisində 71 saylı Cəlilabad şəhər və 72 saylı Cəlilabad kənd dairələri təşkil olunub.

71 saylı dairə seçki komissiyasının sədri İsa Allahverdiyevin məlumatına əsasən, dairə 54 məntəqəni əhatə edir. Seçki siyahılarının dəqiqləşdirilməsi prosesi artıq başa çatmışdır. Seçkilərin gedişini izləmək üçün 14 məntəqədə veb-kamera quraşdırılmışdır. Hazırda bildirişlər paylanır. Məntəqə üzvləri üçün hərəkət cədvəli, protokolların doldurulması və s. barədə 4 günlük treninq keçirilmişdir.

Növbədənkənar seçkilərdə əsas məsələ layiqli namizədlərin Milli Məclisə üzv seçilməsidir. 71 saylı DSK üzrə 7 namizəd qeydə alınmışdır. Onlardan 1 nəfəri Yeni Azərbaycan, 1 nəfəri Musavat, 1 nəfəri Ümid partiyaları tərəfindən irəli sürülmüşdür. Qalan 4 nəfər isə öz təşəbbüsləri ilə seçkiyə qatılmışdır. Hazırda namizədlərin təşviqat kampaniyası davam edir. Bunun üçün Cəlilabad RİH başçısının sərəncamı ilə 53 qapalı və bir o qədər də açıq şəraitdə yerlər ayrılmışdır. Dairə üzrə müxtəlif partiyalardan, habelə öz təşəbbüsləri ilə 769 nəfər müşahidəçi qeydə alınmışdır. Bundan əlavə, 55 nəfər məşvərətçi səs hüququ olan üzv vardır.



Dairənin 3 saylı məntəqəsi Cəlilabad şəhərindəki Akademik Zərifə Əliyeva adına 7 saylı tam orta məktəbin binasında yerləşir. Məntəqə texniki cəhətdən seçkiyə tam hazırdır. Təsdiq edilmiş seçki siyahısı binanın girişində xüsusi lövhələrdə asılıb. Məntəqə dövlət atributları, kabinələr, daşınan və daşınmaz qutular, seçkiyə lazım olan bütün sənədlərlə təmin edilib..

72 saylı Cəlilabad kənd DSK-nın sədri İlham Rzayev seçkilərə hazırlıqla əlaqədar dedi ki, dairə üzrə 45 məntəqə mövcuddur. Həmin məntəqələrdə ilk dəfə səs verəcək seçicilərin sayı 569 nəfərdir. Ən yaşlı seçici isə Eldişə kənd sakini 100 yaşlı Surə Mirzəyevadır.

Dairə üzrə namizədlərin sayı burada da 7 nəfərdir. Onlardan 3 nəfəri siyasi partiyalardan irəli sürülənlər, qalan 4 nəfər şəxsi təşəbbüsləri ilə seçkiyə qatılanlardır. Müşahidəçilərin sayı 810 nəfərdir. 5 məntəqədə veb-kamera quraşdırılıb. Təşviqat aparmaq üçün dairə ərazisində 66 qapalı və bu qədər də açıq yerlər ayrılıb. Dairə sədrinin dediklərindən o da məlum oldu ki, 45 məntəqənin hər biri lazımi vəsait və texniki vasitələrlə təmin edilib.

2 saylı məntəqə Alar kənd Heydər Əliyev adına 1 saylı tam orta məktəbin binasında yerləşir. Məntəqənin binası qarşısında daşdan hörülmüş iri çərçivədə Qarabağ müharibəsi şəhidlərinin qara mərmər üzərində şəkilləri əks olunub. Burada da seçkiyə son hazırlıq işləri görülür.

İran İslam Respublikası ilə sərhəddən təqribən 50 - 60 kilometr məsafədə, dağlıq ərazidə yerləşən kəndləri əhatə edən 72 saylı dairə üzrə seçicilərə bildirişlərin paylanması davam edir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Vətən oldu oğullar



# Əbədiləşən könüllü



**2020-ci ilin payızında Vətən müharibəsi başlayandan bir neçə gün sonra Teymur idman yarışlarında, məşqlərdə, hərbi xidmətdə bir yerdə olduğu uşaqlıq dostu Raufa bildirir: "Erməni işğalçılarının qudurğanlığı həddini aşıb. Bizdən az qala 10 yaş kiçiklər gör necə şücaətlə vuruşurlar... Küçəyə, camaat arasına çıxanda çox sıxılıram, gəl könüllü gedək cəbhəyə. Hərbi xidmətdə olmuşuq, nə qədər təcrübəmiz var, geci-tezi torpaqlarımızı mənfur erməni tapdağından azad etməliyik, ya yox?!"**

Rauf dostunun təklifini dərhal dəstəkləyir:
- Nə ürəyimdən keçənlərdən xəbər verdin, mən bunu dünən də, srağagün də sənə demək istəyirdim: amma evlisən, iki azyaşlı uşağın var...

- Nə olar, Allaha şükür, atam, anam, qardaşım var, bir də ki, biz ölməyə yox, erməniləri dədə-baba yurdlarımızdan qovmağa, haqq-ədaləti bərqərar etməyə gedirik...



Bu söhbətdən iki gün sonra - müharibənin 9-cu günü dostu Raufla Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon idarəsinə gedərək könüllü olaraq cəbhəyə yollanırlar...

Zəfər qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsindən Rauf sağ qayıtsa da, Teymur qəhrəmancasına şəhid olur...

Uşaqlığından Vətən təəssübkeşliyi ilə seçilən Teymur Həsənov 1989-cu il aprelin 3-də Bakı şəhərində hərbçi ailəsində dünyaya göz açmışdı. 1996-cı ildə Bakı şəhəri, Yasamal rayonu 153 nömrəli orta məktəbin birinci sinfinə qədəm qoymuş və 2007-ci ildə məktəbi müvəffəqiyyətlə bitirmişdi. Kiçik yaşlarından idmana böyük maraq göstərən və sərbəst güləşlə məşğul olan Teymur respublikadaxili turnirlərin, yarışların iştirakçısı olmuş, Bakı şəhəri təhsil müəssisələri üzrə dəfələrlə I, II və III yerlərin sahibi olmuşdur. İdmana olan həvəsi onu 2007-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil almağa gətirib çıxarmışdı.

Teymur Həsənov tələbə ikən - 2009-cu ildə ailə həyatı qurmuşdu.



Atası müharibə veteranı, ehtiyatda olan gizir Mahal Həsənov Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. O, Ermənistanın Stepanovan rayonunun Puşkin kəndində anadan olub. Həmin kənddə orta məktəbi bitirdikdən sonra 1984-cü ildə Rusiyaya gedib, Kuybışevin Penza şəhərində hərbi məktəbdə gizirlik kursunda oxuyub. Kursu müvəffəqiyyətlə bitirərək Ermənistana qayıdıb və orada hərbi hissədə 1987-ci ilə kimi gizir işləyib. Sonra Qərbi Azərbaycandan olan minlərlə soydaşımız kimi Mahal Həsənov və onun mənsub olduğu ailə üzvləri də öz dədə-baba yurdlarından zorla qovularaq Azərbaycana üz tutmuşlar. Şəmkirdə, Gəncədə, nəhayət, Bakıda məskunlaşmışlar.

Gizir Mahal Həsənov 1992-ci ilin əvvəllərindən Ermənistan silahlı birləşmələrinin terror və hücumlarının qarşısını almaq üçün döyüş cəbhəsində - Füzuli rayonunda yerləşən hərbi hissədə fəaliyyətə başlayıb. Bir ildən sonra Lənkəran bölgəsinə hərbi hissə komandirinin köməkçisi göndərilib. Beş ilə yaxın bu vəzifədə çalışan Mahal Həsənov 2002-ci ildən fəaliyyətini Bakı Ali Hərbi Məktəbində davam etdirib. Hazırda ehtiyatda olan hərbçidir.

Söhbətlərdən aydın olur ki, Teymurun Vətənə, hərbi geyimə ilk sevgisi də atasından yaranıb. Teymur hərbi xidmətdə olub. Vətən qarşısında xidməti borcunu uşaqlıq dostu Raufla 2012-ci ildə birgə başa vurub. Elə Teymurun son şəkli də Raufla birgə çəkilib.

Atası Mahal Həsənov deyir ki, Teymur əsgərlikdən gələndən sonra bir neçə dəfə mənə dedi ki, sənin yolunu davam etdirmək üçün hərbçi olmaq istəyirəm: "Ata, mən Bakıda yox, döyüş cəbhəsində hərbçi olmaq istəyirəm. Gedim sənin də, anamın da, babamın da, nənəmin də, yurdundan-yuvasından zorla qovulan soydaşlarımızın da intiqamını alım". Açığı, ailəli və uşaqları körpə olduğuna görə ehtiyat edirdim. Amma o, dediyindən dönmədi...

Teymur yeniyetmə çağlarından həyətlərində göyərçin saxlayırdı, sülh quşlarını çox sevirdi, elə sülhü, əmin-amanlığı da. Vətənini azad, firavan görmək arzusu ilə hər şeyi geridə buraxıb, sentyabrın 29-da dostu Raufla birlikdə, sözləşdikləri kimi, könüllü olaraq minlərlə gəncimiz kimi torpaqlarımızı erməni işğalçılarından azad etməyə yollandı.

Uşaqlıq və cəbhə yoldaşı Rauf danışır ki, Teymur üçün Vətən hər şeydən öncə gəlirdi. Dost kimi mənə də tövsiyə etdi ki, gəl, bir yerdə gedək. Beləliklə, Teymurun istəyi ilə könüllü olaraq döyüşlərə qatıldıq.



Anası Qüdrət Həsənova deyir ki, müharibə vaxtı Teymurun səhhətində problem yaranmasına baxmayaraq, o, geri dönmədi. Daşkəsəndəki hərbi hospitaldan qayıdandan bir gün sonra yenidən döyüşlərə atıldı. "Hətta biz çox çalışdıq ki, müalicəsi tam başa çatmamış cəbhənin ön sıralarına getməsinə əngəl olaq. Amma buna etiraz etdi, dedi ki, mən getməyim, sən getmə, bəs kim getsin. Komandiri də ona deyirdi ki, ailəlisən, uşağı olanları yuxarı (yəni dağın döşünə) aparmırlar, sən aşağıda qal. O isə bildirirdi ki, mən daha təcrübəliyəm, bu əsgərlərin qabağında mənim kimisi getməlidir".

Teymur Həsənovun komandirinə son sözü isə belə olub: "Mənə bir şey olsa, anamdan əvvəl qardaşıma deyin, o, bu dərdə dözməz".

Amma neyləməli, müharibənin öz qaydaları var...

Bir müddət sonra Teymurun komandiri onun əşyalarını ailəsinə göndərir.

Çantasından çıxan əşyalar hər kəsin göz yaşlarına səbəb olur. Çünki onun "ölüm medalyonu"nun içində "Ana, ağlama", "Ata, ağlama", "Siz dəyərlisiniz" sözləri yazılmışdı.




Teymur Həsənov Ermənistan silahlı birləşmələrinin işğalı altında olan torpaqların azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda başlanan İkinci Qarabağ müharibəsində Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı üçün gedən döyüşlərdə vuruşmuşdur. 25 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı həlak olmuşdur. İkinci Şəhidlər xiyabanında əbədiyyətə qovuşmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan sıravi əsgər Teymur Həsənov hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" medalları ilə, habelə III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.






Bu orden və medallar Teymurun yaşadığı evdə onun ailəsi tərəfindən yaradılmış guşədə ən önəmli yerdə qoyulmuşdu. Burada igid döyüşçünün yoldaşları ilə şəkilləri, hərbi geyimi, "ölüm gülləsi" deyilən boş gilizin içərisində öz əli ilə valideynlərinə ünvanladığı qeydlər, çantası və cibindən çıxan pullar çox diqqətçəkəndir. Cəbhəyə yollanmazdan əvvəl qızı Xədicə, oğlu Məmməd, həyat yoldaşı və ailə üzvləri ilə çəkdirdiyi xatirə şəkillər baxanları kövrək düşüncələrə qərq edir.

İgid döyüşçünün ailəsi, 15 yaşlı qızı və 11 yaşlı oğlu onun arzularını yaşadır. Qızı Xədicə dərs əlaçısıdır, Dəyanət liseyinin 9-cu sinfində oxuyur. Deyir: - Yaxşı oxumaqla atamın ruhunu şad edirəm. O, çox istəyirdi ki, dərs əlaçısı olum, məktəbi bitirəndən sonra pedaqoji təhsil alım, müəllim olum. İşləyəndə şagirdlərin ilk növbədə savadlı və vətənpərvər olmalarına çalışacam. Qoy onlar da Vətən müharibəsinin şəhidləri, qaziləri, bir sözlə, iştirakçıları kimi vətən təəssübkeşliyi ilə böyüsünlər.



Məmməd isə 11 yaşındadır, Nərimanov rayonu 258 N-li məktəbin 4-cü sinfində oxuyur. Deyir ki, məktəbi bitirəndən sonra hərbçi olacam, mənə çoxları "şəhid oğlu" yox, "qəhrəman oğlu" deyə müraciət edir. Bu, məni çox qürurlandırır. Hərbçi olub atamın yolunu davam etdirəcəm.

Şəhid döyüşçünün ailəsi dövlət qayğıları ilə əhatə olunub. Ailə Prezident təqaüdü ilə, habelə Xocasən qəsəbəsində 3 otaqlı mənzillə təmin olunub. YAP Yasamal rayon təşkilatının inzibati binası, 8 Noyabr metrostansiyası qarşısında və 4-cü mikrorayonda Zəfər parkında Teymur Həsənovun şəkli vurulub, MİDA yaşayış kompleksində adına küçə verilib.

Teymurun oxuduğu Yasamal rayonu 153 saylı orta məktəbin qarşısında barelyefi quraşdırılıb, oxuduğu sinif otağı xüsusi olaraq onun adı ilə əbədiləşdirilib. Burada onun məktəb illəri şəkilləri, tədbirlərdə iştirakı, idman uğurları, idman mükafatları, həmyaşıdları və müəllimlərinin xatirələri, mətbuatda onun haqqında yazılan məqalələr və sairə yer alıb. Vətənpərvərlik mövzusunda tədbirlər, görüşlər, tarixi günlər bu otaqda keçirilir.

Ölkə gəncliyinə nümunə kimi tanınan Teymur Həsənovun ali təhsil aldığı Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında da xatirəsi ehtiramla anılır. Akademiyada onun döyüş yolunu əks etdirən guşə yaradılıb. Əlaçı tələbələr üçün şəhid Teymur Həsənov adına təqaüd təsis edilib.



Nəsimi Rayon İcra Hakimiyyətində də beş medallı, bir ordenli, vətənpərvərlik nümunəsi ilə əbədiyaşarlıq qazanan igid döyüşçü Teymur Həsənovun xatirəsi daim əziz tutulur. Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə hər il sentyabrın 29-da Teymur Həsənovun ailə üzvlərinin, yaxın dostlarının, tələbə və döyüş yoldaşlarının, habelə ictimaiyyət nümayəndələrinin iştirakı ilə anım mərasimi keçirilir. Məzarı ziyarət edilir, üzərinə gül-çiçək dəstələri qoyulur, ruhuna dualar oxunur.







*Şəhid Teymur Həsənovun ruhu şaddır ki, onun uğrunda şəhidlik zirvəsinə ucaldığı Qubadlıda, Füzulidə, Cəbrayılda, ümumən erməni işğalından azad edilmiş torpaqlarımızda bu gün böyük bərpa və quruculuq işləri gedir. Keçmiş məcburi köçkünlər tədricən öz yurd-yuvalarına qayıdırlar və Böyük qayıdış uğurla davam etdirilir.*

***Rəhman SALMANLI,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Bu gün bölgənin strategiyasını və gələcəyini yeni Azərbaycan doktrinası müəyyən edir



**"Azərbaycanın 44 günlük Zəfər yürüşündən sonra Prezident İlham Əliyevin də dediyi kimi, Cənubi Qafqazda işğala əsaslanan status-kvo dağıdıldı. Yeni, mövcud status-kvo Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində imzalanan Şuşa Bəyannaməsi ilə yaradıldı. Bununla əlaqədar ermənilərin havadarları Ermənistanı Azərbaycana qarşı yeni müharibəyə ruhlandırmaq və Qarabağla bağlı iddialarını yenidən dirçəltmək üçün fəaliyyətə keçdilər. Burada Avropa İttifaqı daxilindəki ermənipərəst dairələr, o cümlədən Fransadakı erməni lobbisi və ABŞ erməniləri daha çox fəallıq göstərirlər. Baş nazir Nikol Paşinyan hər nə qədər davamlı sülhü dəstəkləsə də, Ermənistanın daxilində və xaricdəki lobbisi buna qarşı çıxır".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə mediasının təmsilçisi, siyasi ekspert Güngör Yavuzaslan söyləyib. Qərbi Azərbaycan İcmasının bəzi Qərb dairələrinin Azərbaycan əleyhinə bir sıra erməni separatçıları ilə təmaslarını aktivləşdirmələrinə dair bəyanatını şərh edən Güngör Yavuzaslan deyib: "Bəyanatda da qeyd edildiyi kimi, hazırda qatillər və irqçilər ilə təmas quran Qərb qüvvələri var. Bu nümunələrdən sonuncusunu Ermənistanın suverenliyinə və torpaq bütünlüyünə qarşı çıxmayan Qərbi Azərbaycan İcması ilə təmaslardan qaçan, lakin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü açıq şəkildə təhdid edən Xocalı qatili, irqçi Robert Koçaryanın dəstəsindən olan Oskanyan kimilərlə təmaslarını aktivləşdirən Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Toyvo Klaarın simasında gördük. Lakin onların bütün səyləri boşboğazlıqdan başqa bir şey deyil. Belə insanları biz medianın dili ilə desək, "heç bir təsiri olmayan kadr" adlandırırıq".

Bu gün bölgənin strategiyasını və gələcəyini Prezident İlham Əliyevin yaratdığı yeni Azərbaycan doktrinasının müəyyənləşdirdiyini söyləyən ekspert vurğulayıb: "Bu yeni Azərbaycan doktrinası Rusiya Prezidenti Vladimir Putini ölkəsində qəbul etmək, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə strategiyalar ortaya qoymaq, Türk Dövlətləri Təşkilatı daxilində yeni mövqe nümayiş etdirərək Şimali Kipr Türk Cümhuriyyətinin bayrağını Bakıda dalğalandırmaqdır. Yəni bölgənin hazırkı strategiyası Prezident İlham Əliyevin baxışına doğru istiqamətlənir. Bütün bunlar yeni dövrün şifrələridir".

"Qərbin Ermənistan sevdası Rusiya-Ukrayna müharibəsindən sonra bölgədə yeni həssas nöqtə yaratmaqdır. Buna görə də bəzi Qərb dairələrinin bu istiqamətdə addımlarını davam etdirəcəyini düşünürəm. Bu, Ermənistanın silahlandırılması, yaxud müxtəlif diplomatik yollardan istifadə edərək mövzuya qarışması ilə də ola bilər. Lakin əsas məqam odur ki, qondarma "Dağlıq Qarabağ respublikası" artıq çoxdan tarixin yaddaşına köçüb. Bundan sonrakı strategiya və təhlükəsizliyi isə yeni doktrina müəyyən edəcək ki, onun da adı Yeni Azərbaycandır", - deyə ekspert diqqətə çatdırıb.

# Azərbaycanın əldə etdiyi iqtisadi və siyasi nailiyyətlər Bolqarıstan mediasında geniş işıqlandırılıb

**Azərbaycanın milli maraqlar, mehriban qonşuluq və qarşılıqlı hörmət üzərində qurduğu və həyata keçirdiyi xarici siyasət kursu və onun nəticəsində əldə etdiyi yüksək nailiyyətlər, habelə ölkənin beynəlxalq aləmdə getdikcə daha çox artan rolunu əks etdirən "Azərbaycan: mehriban qonşuluq uğur və inkişafın zəmanəti kimi" sərlövhəli məlumat Bolqarıstan mediasında geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, yayılan məlumatda qonşu və regional dövlətlər, o cümlədən Türkiyə, Rusiya, Gürcüstan, Bolqarıstan və Rumıniya ilə ahəngdar münasibətlər qurmuş və özünü beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi sübut etmiş Azərbaycanın bölgənin ən aparıcı nəqliyyat və logistika mərkəzinə çevrildiyi, 20 ilə yaxın müddət ərzində davamlı və təhlükəsiz şəkildə Avropa bazarını enerji resursları ilə təmin etdiyi, beynəlxalq əhəmiyyətə malik irimiqyaslı layihələrin həyata keçirilməsi təşəbbüsü ilə çıxış etdiyi, həmçinin geniş Qara dəniz-Xəzər dənizi bölgəsində davamlı sülhün, sabitliyin və rifahın təmin olunmasında səylər göstərdiyi bildirilir.

Bolqarıstanın kütləvi informasiya vasitələrində "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan üzərindən səmərəli keçməsi məqsədilə ölkənin bütün nəqliyyat və logistika infrastrukturunun sürətli templə inkişaf etdirilməsi, gündən-günə artan tranzit daşımaları və yük mübadiləsinin təmin edilməsi məqsədilə Bakının Avrasiya məkanında vacib nəqliyyat qovşağı kimi çıxış etdiyi qeyd edilir.

Məlumatda həmçinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Cənub-Şərqi və Mərkəzi Avropada həyata keçirdiyi səmərəli və uğurlu fəaliyyəti haqqında da bəhs edilir və SOCAR-ın bu ölkələrin enerji təhlükəsizliyi və iqtisadi rifahının təmin edilməsinə töhfə verdiyi bildirilir.

Azərbaycanın əldə etdiyi iqtisadi uğurlarla yanaşı, ölkənin siyasi müstəvidə də həyata keçirdiyi konstruktiv siyasəti, o cümlədən bölgədə davamlı sülhün, sabitliyin və rifahın bərqərar olunmasında fəal iştirak etdiyi və regional məsələlərin üçüncü qüvvələrin müdaxiləsi olmadan bölgə dövlətləri arasında qarşılıqlı inam və danışıqlar əsasında həllində çıxış etdiyi bildirilir.

# Milli Qəhrəman İsgəndər Aznaurovun xatirəsi anılıb

**Türk Ağsaqqalları İctimai Birliyi - TAİB-in mərkəzi ofisində Milli Qəhrəman, Birinci Qarabağ müharibəsi şəhidi İsgəndər Aznaurovun doğum günü münasibətilə tədbir keçirilib.**




İctimai Birlikdən AZƏRTAC-a bildirilib ki, tədbirdə TAİB-in İdarə Heyəti və Gənclər Təşkilatının üzvləri, ziyalılar iştirak ediblər.

TAİB-in sədr müavini Eyvaz Hümbətov bildirib ki, təşkilat tərəfindən vətənimizin azadlığı uğrunda canlarını əsirgəməyən igid oğulları yad etmək ənənə halını alıb. Qeyd edib ki, bu dəfə də ənənəyə sadiq qalaraq Milli Qəhrəman İsgəndər Aznaurov doğum günü ərəfəsində yad edilir. "Topçu İsgəndər" ləqəbi ilə tanınan igid sərrast atəşi ilə düşmənin hərbi sursat məntəqələrini dağıdıb, onlarla canlı qüvvəsini zərərsizləşdirib.

Milli Qəhrəmanın həyat yoldaşı Gülxanım Aznaurova əslən Axıska türkü olan, hələ sağlığında bir topçu zabit olaraq əfsanələşmiş İsgəndər Aznaurovun həyat və döyüş yolundan bəhs edərək, onu gənclərə örnək olaraq xarakterizə edib. Dövlətimizin göstərdiyi qayğıdan da danışan G.Aznaurova Prezident İlham Əliyevin Milli qəhrəmanlara və onların ailələrinə göstərdiyi diqqəti də xüsusi vurğulayıb.

Tədbirdə digər çıxış edənlər İsgəndər Aznaurovun Gədəbəydə Başkəndin işğaldan azad olunmasında önəmli rol oynadığını bildiriblər. Qeyd edilib ki, onun Birinci Qarabağ müharibəsində topçu olaraq göstərdiyi qəhrəmanlıqları dillərdə dastandır.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin 1995-ci il 15 yanvar tarixli fərmanı ilə baş leytenant Aznaurov İsgəndər Söhrab oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə**

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Audiovizual Şuranın növbəti iclası keçirilib

**Avqustun 23-də Audiovizual Şuranın növbəti iclası keçirilib.**




AZƏRTAC xəbər verir ki, gündəliyinə iki məsələnin daxil edildiyi iclasda əvvəlcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində açıq (ödənişsiz) rəqəmsal yerüstü televiziya yayımının genişləndirilməsi müzakirə edilib. Bu məqsədlə Audiovizual Şuranın qərarı ilə Şuşa rayonu ərazisində yerləşən "Turşsu" radio-televiziya yayım stansiyasından 46-cı TV yayım kanalı və Ağdərə rayonu ərazisində yerləşən "Həsənriz kənd" radio-televiziya yayım stansiyasından 25-ci TV yayım kanalı infrastruktur operatoru olan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Radio Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyinin istifadəsinə ayrılıb.

Sonra Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli 1844 nömrəli fərmanı ilə təsdiq edilmiş "Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 avqust tarixli fərmanı ilə aləqədar "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Audiovizual Şuraya müraciəti müzakirə olunub. Şuranın qəbul etdiyi müvafiq qərarlara əsasən, "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC-yə regional yerüstü televiziya yayımçısı (kanalın adı: "Naxçıvan TV") lisenziyası və regional yerüstü radio yayımçısı (kanalın adı: "Naxçıvan Radiosu") lisenziyası verilib. Həmçinin regional yerüstü televiziya yayımını həyata keçirmək şərti ilə "Naxçıvan TV"yə peyk yayımı həyata keçirən platforma yayımçısı lisenziyasının da verilməsi haqqında qərar qəbul olunub.

# Norveç şahzadəsi şamanla evlənir

## Marta Luiza sevgisi naminə ali vəzifələrini qurban verir

**Yüksək vəzifəli insanların həyatı ilə bağlı bütün stereotipləri qıran Norveç şahzadəsi Marta Luiza bir neçə gündən sonra amerikalı "ulduz" şaman Durek Verrettanın qanuni həyat yoldaşı olacaq. Cütlük öz ekstravaqantlığı ilə hər kəsi təəccübləndirdiyindən toy mərasimi də yəqin ki, qonaqların yaddaşlarında unudulmaz təəssüratlar buraxacaq.**



Toy mərasimi avqustun 31-də Norveçin qərbindəki Geyranger-fyord şəhərində baş tutmalıdır. Yerli mətbuatın məlumatına əsasən, şənlik Geyranger kəndində SPA mərkəzi, gecə klubu, bir neçə üzgüçülük hovuzu və köhnə avtomobil muzeyinin yerləşdiyi dördulduzlu "Union" hotelində keçiriləcək. Dəvət olunan qonaqlar arasında Norveç kral ailəsi, şahzadə Marta Luizanın ilk evliliyindən olan övladları, dostlar, eləcə də dünyanın müxtəlif ölkələrindən olan digər kral ailələrinin nümayəndələri var.

Rəsmi toy mərasimindən əvvəl iki gün bayram gəzintiləri, şənlik və əyləncə olacaq. Hər şey avqustun 29-da tanışlıq tədbiri ilə başlayacaq. Onun üçün geyim kodu "sərbəst" olaraq təyin edilib. Əyləncə mənzərəli sahil şəhəri Olesunnda yerləşən "1904" hotelində xüsusi olaraq icarəyə götürülmüş bağda keçiriləcək. Bu, kral ailəsinin sevimli istirahət yerlərindən biridir.

Ertəsi gün qonaqlar Geyranger kəndi ətrafında qayıqla gəzintiyə çıxacaqlar. Toydan əvvəl daha bir məclis təşkil olunacaq və orada hamı Latın Amerikası üslubunda salsa rəqs edəcək.

Şənbə günü, avqustun 31-də baş tutacaq rəsmi mərasimdə şahzadə Marta Luizanı yeddi rəfiqəsi müşayiət edəcək, onlardan üçü onun qızları - Mod Anjelika, Liya Aysedora və Emma Tallula olacaq. Mərasimdə şahzadənin valideynləri Kral Harald və Kraliça Sonya, həmçinin qardaşı vəliəhd Hokon və həyat yoldaşı Mette-Maritin iştirak edəcəyi gözlənilir. Qadın keşiş Margit Lovise Holte nikah mərasiminə cavabdeh olacaq. Rəsmi mərasim - toy səhər yeməyi və qəbulla davam edəcək.

51 yaşlı şahzadə Marta Luiza Durek Verretta ilə 2019-cu ildə ortaq dostları vasitəsilə tanış olub. Eyni zamanda cütlük bir-birlərini bundan çox əvvəl - keçmiş həyatda, Qədim Misir dövründə tanıdıqlarını iddia edirlər...

Əslində, şahzadə çoxdan "qəribəlikləri" ilə seçilir: o, kəşfiyyatçı olduğunu iddia edir, mələklərin səslərini eşitdiyini bildirir və heyvanlarla ünsiyyət qurduğunu deyir.

Paradoksal olsa da, Marta Luiza sertifikatlı həkim-fizioterapevtdir.

Qara dərili şamanla tanışlıq Marta Luizanın ilk əri, yazıçı və ssenarist Ari Benin intiharından bir neçə ay sonra baş verib. Həmin hadisədən üç il əvvəl onlar boşanmışdı. Ancaq məhz Durek Verretta keçmiş həyat yoldaşını itirməsi səbəbindən düşdüyü depressiyadan çıxmaqda şahzadəyə kömək edib.

Sevgilisi naminə Marta Luiza kral ailəsi üzvü vəzifələrini yerinə yetirməkdən imtina edib. Buna səbəb təkcə onun şübhəli fəaliyyəti - şamançılıq deyil, həm də mübahisəli və əsassız açıqlamaları olub. Belə ki, Marta Luiza Norveçdə nəşri qadağan edilmiş kitabında yazıb ki, uşaqlarda xərçəng xəstəliyinin səbəbi onların yaşadıqları bədbəxtlikdir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistanda əhalinin 83 faizi yaşayış səviyyəsindən narazıdır

## Sadə vətəndaşlar çətin durumdan xilas olmaq üçün xaricə qaçmağa üstünlük verirlər

**Müharibədəki məğlubiyyətdən sonra Azərbaycanla sülh müqaviləsinin imzalanmasını hər cəhdlə uzatmağa çalışan Ermənistanın tənəzzülü bir qədər də sürətli xarakter almaqda, ölkənin üzləşdiyi çətinliklərin miqyası davamlı şəkildə genişlənməkdədir. Bütün bunlar həm də iqtidarın əhali arasında nüfuzunun daha da aşağı düşməsi ilə müşayiət olunmaqdadır.**

Araşdırmalar göstərir ki, Ermənistanda iqtisadiyyatın ifrat mərkəzləşdirilməsi, bütün resursların hakimiyyətdəki ailə ilə oliqarxların əlində cəmləşməsi, vergilərin qarətə çevrilməsi nəticəsində Ermənistanda ağır bir situasiya formalaşıb. Bundan xilas olmaq üçün isə sadə vətəndaşlar xaricə qaçmağa üstünlük verirlər. Aparılan sorğulardan məlum olub ki, əhalinin 83 faizi yaşayış səviyyəsindən narazıdır. Respondentlərin 20 faizi ölkəni tərk etmək istədiyini bildirib.

Bunların fonunda müxalifət düşərgəsində son günlərdə aktivləşmə müşahidə edilir. "Vətən naminə Tavuş" hərəkatının lideri Baqrat Qalstanyanın payızla bağlı çoxsaylı vədləri, digər tərəfdən də yeni partiya və koalisiyaların yaranması ilə bağlı yayılan xəbərlər erməni siyasi mühitində yeni qarşıdurmaların yaranacağına işarə edir. Baş nazir Nikol Paşinyan isə cərəyan edən hadisələrə uyğun olaraq addımlar atır. Bu günlərdə məhkəmənin qərarı ilə Gorusun meri Aruş Aruşanyana 5 il müddətinə siyasətlə məşğul olmaq qadağan edilib, külli miqdarda cərimə təyin edilib. Aruşanyan isə qərarla razı olmadığını, məhkəməyə müraciət edəcəyini, sona qədər gedəcəyini bildirib. Mer bildirib ki, bu, siyasi qərardır və məqsəd seçkilərə qədər Gorus kimi kritik regiona Paşinyanın qərarlarını sözsüz icra edəcək şəxsin təyinatını təmin etməkdir. Bundan əlavə, bir sıra bölgələrdə hakim komandanın dedikləri ilə razılaşmayan yerli idarəetmə orqanlarının rəhbərləri ilə bağlı ciddi tədbirlər görülür, barələrində kompromat materiallar mediaya ötürülür, sonra isə cinayət işi açılır. Hətta bu məsələdə sözügedən şəxslərin ailə üzvlərinə də toxunulur.

Vəziyyətin kifayət qədər acınacaqlı olduğuna diqqət çəkən Ermənistan müxalifəti mətbuata verdiyi açıqlamalarda qeyd edir ki, ölkə yanlış siyasətin əsirinə çevrilib. Bu siyasət bir çox sahədə olduğu kimi, iqtisadi müstəvidə də ölkənin tənəzzülünü daha da sürətləndirib. Qiymətlər durmadan artır, əhalinin gəlirləri inflyasiyaya adekvat deyil. Mərkəzi Bank hər vəchlə çalışır ki, dövlət büdcəsi dolsun, inflyasiya sabit qalsın. Paşinyan iqtidarı verdiyi vədlərə əməl etmir. Yarıtmaz siyasət nəticəsində nə büdcə dolur, nə də qiymət artımı dayanır. Əksinə, Ermənistan iqtisadiyyatı get-gedə daha iflic vəziyyətə düşür.

Bütün bunlarla yanaşı, o da qeyd olunur ki, büdcənin doldurulmasında hakimiyyət bütün əsas yükü kiçik və orta bizneslə məşğul olanların üzərinə qoymağa çalışır. Bu sahədə fəaliyyət göstərənlərin sayı olduqca məhdud olduğuna görə onlar öz bizneslərini dayandırır, başqa əlac olmadıqda isə xarici ölkələrə köçməyə üstünlük verirlər. Beləliklə də, ölkə büdcəsinin doldurulmasında ciddi problem yaşanır, eyni zamanda kiçik və orta biznesin sıradan çıxma prosesi daha geniş vüsət alır.

İş adamlarını qorxutmaq, müxalifəti dayaqsız buraxmaq üçün atılan addımlar bununla kifayətlənmir. Rəsmilərin əlində olan biznes strukturlarını çiçəkləndirmək üçün bütün bağlı qapılar Nikol Paşinyanın himayəsi altında mexaniki şəkildə açılır. Hətta hakim partiya ilə maraqları toqquşan rəsmi şəxslərə qarşı da cəza mexanizmləri işə düşür. Məsələn, Korrupsiyaya qarşı mübarizə komissiyası bir müddət əvvəl Vaqarşapat meri Diana Qasparyanı 300 min dram məbləğində cərimələyib. Komitədən bildirilir ki, Qasparyan qayınanasının şirkətinə tikinti icazəsi verdiyi üçün bu addım atılıb. Məlum olub ki, mer Ruzanna Asatryana məxsus "Nare Pius" şirkətinə tikinti icazəsi verilməsi ilə bağlı 20 qərar qəbul edib. Amma sonradan məlum olub ki, sözügedən ərazidə tikinti aparmaq hakim partiyanın yüksək ranqlı məmurunun maraq dairəsində olub. Partiyadan Dianaya bununla bağlı xəbərdarlıq edilsə də, sonuncu bunu qulaqardına vurub. Bu zaman isə "qanuni yolla" mer cəzalandırılıb.

Başqa bir misal, hakim partiyanın deputatı Arsen Torosyanın həyat yoldaşı Vardanuş Tevanyan əri parlament üzvü seçildikdən sonra qəflətən "Mibs" MM-nin direktoru təyin edilib. Bu şirkət də Səhiyyə Nazirliyi ilə xidmətlərin göstərilməsi üçün müqavilələr imzalayıb. Ümumi məbləği 200 milyon drama yaxın olan iki müqavilə üçün isə tenderdə iştirak edən digər şirkətlər müxtəlif üsullarla susdurulub.

Yuxarıda qeyd olunan problemlər onu deməyə əsas verir ki, Ermənistan cəmiyyəti kifayət qədər ciddi problemlərlə üzüzədir. Yaranmış vəziyyət Ermənistanın bütövlükdə ciddi siyasi böhrana yuvarlandığından xəbər verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Smerç" yaylım atəşli reaktiv sistemli texnikalardan döyüş atışları icra edilib

**Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının "Smerç" yaylım atəşli reaktiv sistemli bölmələri ilə döyüş hazırlığı məşğələləri keçirilir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, həyəcan siqnalı ilə qaldırılan bölmələr atəş mövqelərinin dəyişilməsi və döyüş zamanı şərti düşmən hədəflərinin koordinatlarının müəyyənləşdirilərək məhv edilməsi üzrə təlim tapşırıqlarını yerinə yetiriblər.

Bölmələrin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə keçirilən məşğələlərdə hərbi qulluqçular yüksək peşəkarlıq nümayiş etdiriblər.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokuroru Müslüm Şahmarova atası

**ƏSGƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidmətinin rəhbərliyi və kollektivi Tovuz su meliorasiya sistemlərinin istismarı idarəsinin rəisi Nəsrəddin Aslanova qardaşı

**ZİRƏDDİN ASLANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası və katibliyin əməkdaşları polkovnik Əbülfəz Atakişiyevə atası

**ATAKİŞİ ATAKİŞİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Hüquq Departamentinin direktoru Vüqar Babayevə anası

**BƏKURƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ənvər Seyidov ailəsi ilə birlikdə İkram Kərimova qardaşı

**VƏTƏN KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Hərbi Ovçuluq İttifaqı" MMC-nin rəhbərliyi və kollektivi İsmi, Kamil və Əbülfəz Atakişiyevlərə ataları

**ATAKİŞİ ATAKİŞİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3991
Sifariş 1864

Qiyməti 60 qəpik